RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 278 (9733) 17 dekabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Müstəqil siyasətin uğurları



## Tarazlı diplomatiya, milli maraqların qorunması, regional əməkdaşlığın genişləndirilməsi

Azərbaycanın müstəqil siyasətinin əsas prinsipləri arasında tarazlı diplomatiya, beynəlxalq hüquq normalarına riayət, milli maraqların qorunması və regional əməkdaşlığın təşviqi önəmli yer tutur. Ölkəmiz bu prinsipləri rəhbər tutaraq həm regional, həm də qlobal miqyasda strateji tərəfdaşlıqlar qurur və öz mövqeyini daha da möhkəmləndirir.

Bu prinsiplərin hər birinə ayrı-ayrılıqda qısaca nəzər salsaq görərik ki, dövlətimiz tarazlı diplomatiya davranışına sadiq qalaraq, müxtəlif geosiyasi bloklar arasında balansı qorumaqla həm regional, həm də beynəlxalq miqyasda sabitlik və əməkdaşlıq mühitini təmin edir. Azərbaycan Rusiya, Türkiyə, Gürcüstan, İran kimi qonşu dövlətlərlə, həm də Qərb ölkələri və beynəlxalq təşkilatlarla, o cümlədən Qoşulmama Hərəkatı, Avropa İttifaqı, NATO ilə əməkdaşlıq edir. Bu yanaşma dövlətin xarici siyasətində riskləri azaltmağa və müxtəlif tərəfdaşlarla faydalı əlaqələr qurmağa imkan verir. Məsələn, Azərbaycan enerji siyasətində həm Avropa bazarlarını qazla təmin edir, həm də Rusiya və İranla konstruktiv münasibətləri qoruyur.

Qeyd edildiyi kimi, Azərbaycanın müstəqil siyasəti beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Ölkə öz suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün hər zaman beynəlxalq hüququn qaydalarına, nizamına əsaslanır. Bu yanaşmaya ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması üçün aparılan uzunmüddətli proseslər kontekstində də hər kəs şahidlik edir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq öz torpaqlarını işğaldan azad etdi, ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsinə nail oldu. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində də beynəlxalq hüququn tətbiqini təşviq edir, yüksək səviyyədə ədalətin təmin olunmasını dəstəkləyir.

Milli maraqların qorunması isə ölkəmizin müstəqil siyasətinin mərkəzində durur. Bu prinsiplə dövlətimiz öz enerji resurslarından, iqtisadi potensialından və strateji mövqeyindən istifadə edərək daxili sabitlik və rifahı təmin etməyə çalışır. Azərbaycan beynəlxalq layihələrdə iştirak edərək milli maraqlarına prioritet verir. Belə ki, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Qars layihələri Azərbaycanın enerji və nəqliyyat sahəsindəki maraqlarını təmin etməklə yanaşı, ölkənin bütün dünyada nüfuzunu artırır. Dövlətimiz həmçinin diaspor siyasəti ilə milli maraqları beynəlxalq səviyyədə müdafiə edir.

→ 8

## Azərbaycan beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoq prosesinə böyük töhfə verir



### Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul edib.

→ 2

## Azərbaycan-Bəhreyn dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf etdiriləcək

### Bəhreynin Kralı əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Bəhreyn əlaqələrinin genişləndirilməsi, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Bəhreyn xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2024-cü il*

## Milli Məclisin iclasında 2025-ci ilin dövlət büdcəsi qəbul olundu

**Dekabrın 16-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasın gündəliyinə 14 məsələ daxil edilib və 10 məsələ 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. O qeyd edib ki, bu qanun layihələrinə üçüncü oxunuşda baxılacaq.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O bildirib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər layihələri birinci və ikinci oxunuşda deputatlar tərəfindən dəstəklənib. Komitə sədri qanun layihəsinin müzakirə olunduğu ərəfədə bir sıra dövlət qurumlarında struktur dəyişikliklərinin həyata keçirildiyini, dövlət və icmal büdcə-



lərindən maliyyələşən maliyyə yardımı alan subyektlərin fəaliyyəti ilə ölkə Prezidenti tərəfindən hökumətə müvafiq icra tapşırıqlarının verildiyini, eyni zamanda büdcə müzakirələri zamanı millət vəkillərinin bir sıra təkliflər irəli sürdüyünü qeyd edib. Bu amillərin 2025-ci ilin dövlət büdcəsinin ikinci oxunuşda qəbul edilmiş layihəsinə müəyyən dəyişikliklərin edilməsi zərurəti yaratdığını və həmin dəyişikliklərin sənədin üçüncü oxunuşu üçün təqdim edilmiş layihəsində öz əksini tapdığını söyləyib.

→ 4

## Qərb Ermənistanı yeni savaşa təhrik edir

### Hayastan yenidən təxribatlara əl atarsa, böyük faciə ilə qarşılaşacaq

Qərbin təhriki və dəstəyi ilə Ermənistanın silahlanması Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə, kövrək sülhün pozulmasına və yeni müharibənin başlanmasına səbəb olar. Göründüyü kimi, məğlub ölkə savaşa hazırlaşır. Fransa və Hindistanın verdiyi pulsuz silahlar, Yunanıstanın "S-300" raket komplekslərini Ermənistana göndərmək niyyəti, adını "sülh fondu" qoyub Hayastana silah-sursat, hərbi texnikaların alınması üçün milyonlarla dollar ayıran Avropa İttifaqının "Avropa Sülh Fondu" Ermənistanı yenidən revanşist fikirlərə salıb. Bir tərəfdən, Fransa, digər tərəfdən, Avropa İttifaqının Ermənistanı silahlandırması bu qüvvələrin, əslində, Qafqazda yeni münaqişə ocağının yaranmasında maraqlı olduqlarını bir daha göstərir. Qərb regionda çox təhlükəli strategiyasını həyata keçirmək planını yenidən işə salıb. Ermənistanın hücum təyinatlı silahlarla silahlandırılması gələcəkdə regionda münaqişənin yenidən alovlanmasını şərtləndirə bilər.

Ölkəmizin yaratdığı yeni tarixi reallıqları qəbul etmək istəməyənlər vəziyyəti öz xeyirlərinə dəyişmək kimi çirkin və təhlükəli planları ilə regionu qarışdırıb "bulanıq suda balıq tutmağa" çalışırlar. Noyabrın 8-də Bakıda Zəfər parkının açılışında Müzəffər Ali Baş Komandan bir daha bu məsələdən danışaraq Ermənistana xəbərdarlıq etmişdi.

→ 6

## HƏZM PROBLEMİ

### Yaxud qu quşunun son nəğməsi

**Adətən, qu quşu dünyadan köçəndə son dərəcə kədərli və qəmli bir mahnı oxuyur...**

**Buna qu quşunun son nəğməsi deyirlər.**

Ondan sonra nə yeyir, nə də səs çıxarır...

*ABŞ-nin Dövlət katibi Entoni Blinken də gethagetdədir.*

*O da Azərbaycanla bağlı qu quşunun son nəğməsinə bənzər bir açıqlama verib, "jurnalistləri, hüquq müdafiəçilərini, siyasi opponentləri və haqsız yerə saxlanılanları "dərhal azad etməyə" çağırıb.*

Doğrudur, Azərbaycan XİN-in Mətbuat xidməti onun cavabını verib: *"ABŞ Dövlət katibi Entoni Blinkenin 2024-cü il dekabrın 4-də ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik".*

**Amma biz məsələyə digər baxış bucağından yanaşmaq, "həzm problemi"nin yaratdığı "mədə sancıları"ndan söhbət açmaq istəyirik.**

❖ ❖ ❖

Görünür, ABŞ, Qərb və bir para digər dövlətlər Qarabağı "öz torpaqları" hesab edirmişlər.

Odur ki, Ermənistanın Qarabağı və Şərqi Zəngəzuru işğalını normal qəbul edərək belə düşünürmüşlər ki, həmin ərazilər əbədi onlarda qalmalıdır.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu sərsəm düşüncəni və xain planları 44 gündə "dəmir yumruğ"u ilə puça çıxartdı!**

**Otuzillik işğala son qoyaraq erməni işğalçılarını Azərbaycan ərazilərindən qovdu!**

**Düşməni qarşısında diz çökdürərək ona kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalatdırdı!**

Azərbaycanın dövlət suverenliyini bərpa edərək doğma torpaqlardan separatizmin kökünü birdəfəlik kəsdi!

*Bu gün özlərini dünyanın ağası sayanlar, Cənubi Qafqaza burun soxmaq niyyətində olanlar bu gerçəkliyi qəbul etmək istəmirlər.*

**Əslində, Azərbaycan öz torpaqlarını erməni işğalından azad etməklə BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsini də icra etmişdir.**

→ 6

# Azərbaycan beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoq prosesinə böyük töhfə verir

## Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, arxiyepiskop Paul Riçard Qallager Roma Papası Fransiskin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Roma Papasının sonuncu dəfə 2016-cı ildə Azərbaycana səfər etdiyini deyən dövlətimizin başçısı həmin vaxt və özünün 2020-ci ildə Vatikana səfəri çərçivəsində Roma Papası ilə görüşlərini məmnunluqla xatırladı, Roma Papasını ölkəmizə səfərə dəvət etdi.

Səfərinin əsas məqsədinin Azərbaycanda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdis edilməsi olduğunu deyən qonaq bu kilsənin inşası üçün ərazinin ayrılmasına və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi, bunun tərəfdaşlığın nümunəsi olduğunu və ölkəmizdəki katolik icması tərəfindən çox böyük rəğbətlə qarşılandığını vurğuladı.

Dövlətimizin başçısı yeni kilsənin inşasına başlanmasından məmnunluğunu ifadə edərək arxiyepiskop Paul Riçard Qallagerin ölkəmizə səfərinin və kilsənin tikiləcəyi ərazini təqdis etməsinin Müqəddəs Taxt-Tacın Azərbaycanın katolik icması ilə əlaqələrə verdiyi önəmi nümayiş etdirdiyini dedi. Prezident İlham Əliyev yeni tikiləcək kilsənin əlaqələrimizin yaxşı rəmzi olacağını vurğuladı.

Qonaq Azərbaycanda müxtəlif dini icmaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasında Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etdi. Arxiyepiskop Paul Riçard Qallager vurğuladı ki, müxtəlif dinlərin və konfessiyaların nümayəndələrinə bu cür hörmət göstərilməsi, harmonik şəraitin yaradılması Azərbaycanın və xalqımızın fərqləndirici xüsusiyyətlərindən biridir.



Dövlətimizin başçısı Azərbaycanın multikulturalizm ənənələrini qeyd edərək, ölkəmizdə müxtəlif xalqların və konfessiyaların nümayəndələrinin daim sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşadığını vurğuladı.

Arxiyepiskop Paul Riçard Qallager ölkəmizdəki katolik icmasının nümayəndələrinin Azərbaycan rəsmiləri və cəmiyyəti ilə rahat şəraitdə münasibətlərinin olmasından məmnunluğunu bildirdi və qeyd etdi ki, bu da Azərbaycana nüfuz gətirən amillərdən biridir. Qonaq ölkəmizə səfəri çərçivəsində çox səmərəli görüşlər keçirdiyini dedi.

Prezident İlham Əliyev bütün bunların Azərbaycan üçün fəxr hissi doğurduğunu bildirdi, ölkəmizdə multikulturalizmin və çoxmillətliliyin daim təmin olunmasını məmnunluqla qeyd etdi, bunu dövlət siyasəti ilə xalqımızın ənənəvi yaşayış tərzinin vəhdəti olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, müxtəlif millətlərin, dinlərin nümayəndələrinin ölkəmizdə sülh, dostluq və mehriban şəraitdə yaşaması Azərbaycana əlavə güc verir, sabitliyin və cəmiyyətdə ahəngdarlığın təmin olunmasına xidmət edir.

Azərbaycanın həmçinin beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoq prosesinə və bu sahədə əməkdaşlığa böyük töhfə verdiyini deyən dövlətimizin başçısı ölkəmizdə mütəmadi olaraq mədəniyyətlər və konfessiyalararası dialoqa həsr edilən beynəlxalq tədbirlərin keçirildiyini məmnunluqla xatırladı.

Qonaq COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev bildirdi ki, COP29 ərəfəsində dünya dini liderlərinin sammiti də keçirilib və orada dünya dini liderləri tərəfindən də iqlim dəyişmələri ilə əlaqədar beynəlxalq ictimaiyyətə müraciət olunub. COP29 zamanı Azərbaycanın müxtəlif tərəflər arasında körpülərin yaradılmasına çalışdığını deyən dövlətimizin başçısı bu tədbir çərçivəsində aparılan danışıqlar prosesinin uğurlu nəticələr verdiyini xüsusilə qeyd etdi.

Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini vurğuladı.

Görüşdə Yaxın Şərqdəki vəziyyətə toxunuldu. Prezident İlham Əliyev Əsəd rejiminin çökməsindən sonra qardaş Türkiyə ilə məsləhətləşərək Suriya xalqının üzləşdiyi humanitar problemlərin həllinə dəstək verməyə hazır olduğunu bir daha qeyd etdi.

Arxiyepiskop Paul Riçard Qallager dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 753 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.9-cu maddə əlavə edilsin:

"1.0.9. daşınar əmlakın seriya nömrəsi - istehsalçı tərəfindən əmlaka tətbiq edilən hərf, rəqəm və ya onların kombinasiyasından ibarət eyniləşdirmə nömrəsi.".

2. 21.1.5-ci maddəyə "təsviri" sözündən sonra ", habelə bildirişi daxil edən şəxs tərəfindən müəyyən edildikdə daşınar əmlakın seriya nömrəsi" sözləri əlavə edilsin.

3. 26.1-ci maddəyə üçüncü halda "nömrəsi" sözündən sonra ", yüklülük predmeti olan daşınar əmlakın seriya nömrəsi (olduqda)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 76-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 76-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1901 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 451 (Cild I) ilə təsdiq edilmiş "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1.5-ci yarımbəndə "təsviri" sözündən sonra ", habelə bildirişi daxil edən şəxs tərəfindən müəyyən edildikdə daşınar əmlakın seriya nömrəsi" sözləri əlavə edilsin;

1.2. 11.1.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 11.1.6-cı yarımbənd əlavə edilsin:

"11.1.6. yüklülük predmeti olan daşınar əmlakın seriya nömrəsi (olduqda).".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 76-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1372 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Xalid Əhədov - Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi";

1.2. "Elçin Əmirbəyov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi" və "Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi" abzasları aşağıdakı redaksiyada verilsin:

"Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Elçin Əmirbəyov - Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi";

1.3. "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla)" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

1.4. "Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri" sözləri "Aydın Kərimov - Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi" sözləri ilə əvəz edilsin;

1.5. "Kamran Əliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Elçin Yusubov - Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Vahid Hacıyev - Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Məsim Məmmədov - Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Bəşir Hacıyev - Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi";

1.6. "Fikrət Məmmədov" sözləri "Fərid Əhmədov" sözləri ilə, "İnam Kərimov" sözləri "Məcnun Məmmədov" sözləri ilə əvəz edilsin;

1.7. "Anar Quliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Fərid Qayıbov - Azərbaycan Respublikasının gənclər və idman naziri";

1.8. "Vüqar Süleymanov" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Fuad Nağıyev - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Zaur Mikayılov - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Saleh Məmmədov - Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri".

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında çoxtərəfli əməkdaşlığın inkişafı perspektivləri müzakirə olunub

**Dekabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi arxiyepiskop Paul Riçard Qallager ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, tərəflər arasında keçirilən təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında mövcud ikitərəfli, habelə çoxtərəfli əməkdaşlığın inkişafı perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə arasında qarşılıqlı səfər və təmasların dinamikasında müşahidə olunan artımın məmnunluq doğurduğu, Azərbaycan ilə Müqəddəs Taxt-Tacın siyasi, mədəni, humanitar sahələrdə mövcud əməkdaşlığına ciddi töhfə verdiyi vurğulanıb. Azərbaycanın Vatikanda səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli münasibətlər üçün əhəmiyyəti məmnunluqla qeyd edilib. Roma Papası II İoann Pavelin 2002-ci ildə, Papa Fransiskin 2016-cı ildə ölkəmizə səfərləri xatırlanıb, qarşılıqlı səfərlərin davamlı olacağına inam ifadə edilib.



Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun dünyanın bir çox bölgələrində, o cümlədən Müqəddəs Taxt-Tac ərazisində yerləşən beynəlxalq əhəmiyyətli mədəni abidələrin bərpasında fəal iştirakının təqdirəlayiq olduğu diqqətə çatdırılıb. Görülən tədbirlərin ölkəmizin multikulturalizmin təşviqi sahəsində mövcud təcrübə və fəaliyyətinin davamı olduğu bildirilib, bu istiqamətdə həmçinin Müqəddəs Taxt-Tacla əməkdaşlığın inkişafında ölkəmizin maraqlı olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov həmçinin qarşı tərəfi cari ildə ölkəmizdə COP29-un nəticələri barədə ətraflı məlumatlandıraraq, Azərbaycanın sədrliyi ilə uğurla həyata keçirilən konfrans çərçivəsində bir sıra vacib tədbir və təşəbbüslərlə yanaşı, Dünya Dini Liderlərinin Qlobal Bakı Sammitinin təşkil edildiyini diqqətə çatdırıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyətindən, delimitasiya komissiyaları tərəfindən aparılan iş barədə ətraflı bəhs edilib. Ölkəmizin təşəbbüsü ilə başladılan sülh gündəliyinin irəlilədilməsi istiqamətində vacib irəliləyişlərin əldə olunmasına baxmayaraq, Ermənistanın Konstitusiyasında və digər qanunvericilik aktlarında ölkəmiz əleyhinə ərazi iddialarının davam etdirilməsinin, habelə bu ölkənin sürətli silahlandırılmasının regional sülh və təhlükəsizliyə təhdid törətdiyi vurğulanıb.

Arxiyepiskop Paul Riçard Qallager II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin təqdis edilməsinə görə böyük məmnunluq duyduğunu diqqətə çatdırıb, kilsənin inşasına yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I); 2024, № 5 (I kitab), maddə 486) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 86-cı maddənin birinci hissəsindən "müvafiq normativ-hüquqi aktlarla təchiz olunmasını," sözləri çıxarılsın;

1.2. 93-3-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Hakim vəzifəsinə namizədlər test imtahanı, yazılı imtahan və müsahibə əsasında seçilirlər. İmtahanlar və müsahibə Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil edilir.

İmtahanların və müsahibənin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Hakimlərin Seçki Komitəsi bu işə özünün formalaşdırdığı ad hoc komissiyanı cəlb edə bilər.

Hakimlərin Seçki Komitəsi imtahanlardan və müsahibədən müvəffəqiyyətlə keçmiş namizədləri topladıqları ballara uyğun sıralayır.

Namizədlərin qiymətləndirilməsinin nəticələri Məhkəmə-Hüquq Şurasına təqdim olunur. Məhkəmə-Hüquq Şurası namizədlərin vakant hakim vəzifələrinin sayına müvafiq olaraq hakim vəzifəsinə təyin edilmələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdimat verir.

Bu Qanunun 96-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış şəxslər 5 il müddətində hakim vəzifəsinə namizədlərin seçilməsi üçün imtahanlarda və müsahibədə iştirak edə bilməzlər.

Vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydaları Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir.";

1.3. 93-4-cü maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Hakim vəzifəsindən öz arzusu ilə azad olunaraq ədliyyə orqanlarında inzibati vəzifəyə və ya prokurorluq işçisi kimi prokurorluğa qulluğa qəbul edilmiş şəxslər Məhkəmə-Hüquq Şurasında müsahibədən keçirilməklə, bu Qanunun 94-cü maddəsi ilə müəyyən edilmiş qaydada yenidən hakim vəzifəsinə təyin edilə bilərlər.";

1.4. 96-cı maddənin birinci hissəsinin ikinci və üçüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

"Təyin olunduqdan dərhal sonra onlar peşə hazırlığı məqsədilə müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilmiş qaydada təlimə cəlb edilirlər. 3 illik müddətin sonunda hakimlərin fəaliyyəti qiymətləndirilir.";

1.5. aşağıdakı məzmunda 96-1-ci maddə əlavə edilsin:

**"Maddə 96-1. Hakimlərin Qiymətləndirilməsi Komitəsi**

Hakimlərin Qiymətləndirilməsi Komitəsi Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və onların peşə hazırlığının artırılması üzrə ehtiyacların müəyyən edilməsi işinin aparılması məqsədilə formalaşdırılan orqandır.

Hakimlərin Qiymətləndirilməsi Komitəsinin fəaliyyəti bu Qanunla, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, habelə Məhkəmə-Hüquq Şurasının qəbul etdiyi Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnamə və hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin qaydaları və metodologiyası ilə tənzimlənir.";

1.6. 112-ci maddənin onuncu hissəsi ləğv edilsin.

**Maddə 2.** "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11-ci maddə üzrə:

2.1.1. 11.0.6-cı maddə ləğv edilsin;

2.1.2. aşağıdakı məzmunda 11.0.10-2-ci maddə əlavə edilsin:

"11.0.10-2. Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurası haqqında Əsasnaməni təsdiq edir;";

2.2. 12-ci maddə üzrə:

2.2.1. 12.0.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.0.1. vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydalarını müəyyən etmək;";

2.2.2. aşağıdakı məzmunda 12.0.2-1-ci maddə əlavə edilsin:

"12.0.2-1. Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnaməni təsdiq etmək və Hakimlərin Qiymətləndirilməsi Komitəsini formalaşdırmaq;";

2.2.3. 12.0.21-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.0.21. ilk dəfə 3 il müddətinə təyin olunan hakimlərin müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində təlimə cəlb edilməsi qaydalarını müəyyən etmək;";

2.2.4. aşağıdakı məzmunda 12.0.26-2-ci maddə əlavə edilsin:

"12.0.26-2. məhkəmə hakimiyyəti orqanlarının və Məhkəmə-Hüquq Şurasının aparatlarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə baxılması üçün Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasını yaratmaq;";

2.3. 13-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 13. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi**

13.1. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ədalət mühakiməsinin keyfiyyətinin artırılması, məhkəmə sistemində idarəçiliyin təkmilləşdirilməsi, hakimlərin vəzifədə irəli çəkilməsində şəffaflığın təmin olunması, onların fəaliyyətinin stimullaşdırılması, tədris ehtiyaclarının müəyyənləşdirilməsi və fəaliyyətini davam etdirməyə uyğunluğunun müəyyən edilməsi məqsədilə aparılır.

13.2. Məhkəmə-Hüquq Şurası ilk dəfə 3 il müddətinə təyin edilmiş hakimlərin fəaliyyətini həmin müddətin sonunda, digər hakimlərin fəaliyyətini 5 ildə bir dəfədən az olmayaraq, məhkəmə sədrlərinin, sədr müavinlərinin və kollegiya sədrlərinin inzibati səlahiyyətlərin icrası üzrə fəaliyyətini isə həmçinin bu vəzifələr üzrə fəaliyyət müddətinin sonunda qiymətləndirir.

13.3. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir.

13.4. Hakimlərin fəaliyyəti Hakimlərin Qiymətləndirilməsi Komitəsi tərəfindən toplanılan materiallar əsasında onların peşəkarlıq səviyyəsini müəyyən etməyə imkan verən kəmiyyət (məhkəmə fəaliyyəti üzrə iş yükü və onun öhdəsindən gəlmək bacarığı) və keyfiyyət (məhkəmə aktlarının və məhkəmə proseslərinin idarə edilməsi keyfiyyəti, kommunikasiya bacarıqları, hakim etikası və intizamlılıq) göstəriciləri üzrə qiymətləndirilir.

13.5. Məhkəmə sədrləri, sədr müavinləri və kollegiya sədrlərinin inzibati səlahiyyətlərin icrası üzrə fəaliyyəti Hakimlərin Qiymətləndirilməsi Komitəsi tərəfindən toplanılan materiallar əsasında onların idarəçilik bacarıqlarını müəyyən etməyə imkan verən meyarlar (müvafiq məhkəmədə əmək və icra intizamına riayət edilməsi və işin təşkili vəziyyəti (məhkəmə statistikasının və arxiv işinin aparılması, kargüzarlıq qaydalarına əməl olunması, məhkəmə aparatına rəhbərliyin təşkili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi vəziyyəti, vətəndaşların qəbulu, müraciətlərə baxılması sahəsində məhkəmədə işin təşkili) üzrə qiymətləndirilir.

13.6. Hakimlərin fəaliyyəti məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri, Məhkəmə-Hüquq Şurası Aparatının, fəaliyyəti qiymətləndirilən hakimin, həmçinin Azərbaycan Respublikasının Ali Məhkəməsi, apellyasiya instansiyası və birinci instansiya məhkəmələri sədrlərinin məlumatları və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiyaya yönəldilən işlərin sayı nəzərə alınmaqla qiymətləndirilir. Hakimlərin fəaliyyəti qiymətləndirilərkən Məhkəmə-Hüquq Şurası üzvlərinin malik olduqları məlumatlardan istifadə oluna bilər.

13.7. Hakimlərin Qiymətləndirilməsi Komitəsi hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə dair yekun rəy tərtib etməklə Məhkəmə-Hüquq Şurasına təqdim edir.

13.8. Hakimlərin Qiymətləndirilməsi Komitəsinin hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə dair yekun rəyi Məhkəmə-Hüquq Şurasının üzvlərinə qiymətləndirmə ilə bağlı Məhkəmə Hüquq Şurasının iclasına ən geci 10 gün qalmış təqdim edilir.

13.9. Məhkəmə-Hüquq Şurası Hakimlərin Qiymətləndirilməsi Komitəsindən daxil olmuş yekun rəyi iclasında müzakirə edir və hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinin təsdiqinə dair qərar qəbul edir.

13.10. Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yekun rəyi hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyasında müəyyən edilmiş forma və məzmuna uyğun olmadıqda, habelə ziddiyyətli olduqda Məhkəmə-Hüquq Şurası əsaslandırılmış qərarı ilə yekun rəyi ona əlavə edilmiş materiallarla birlikdə geri qaytarır. Bu zaman Hakimlərin Qiymətləndirilməsi Komitəsi Məhkəmə-Hüquq Şurasının qərarını nəzərə almaqla, yekun rəydəki çatışmazlıqları aradan qaldırır və yenidən Məhkəmə-Hüquq Şurasına təqdim edir.

13.11. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsinə dair qərar qəbul edilərkən səsvermədə Məhkəmə-Hüquq Şurasının yalnız hakim üzvləri iştirak edirlər. Qiymətləndirmə ilə bağlı Məhkəmə Hüquq Şurasının iclası Şuranın səsvermədə iştirak etmək hüququ olan hakim üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Qərar Məhkəmə-Hüquq Şurasının səsvermədə iştirak edən hakim üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda Məhkəmə-Hüquq Şurasının iclasına sədrlik edənin səsi həlledici hesab olunur.

13.12. Hakimin fəaliyyətinin qiymətləndirilməsinin yekununda aşağıdakı nəticələrdən biri müəyyən olunur:

13.12.1. hakimin fəaliyyəti yüksək qiymətləndirilir;

13.12.2. hakimin fəaliyyəti qənaətbəxş qiymətləndirilir;

13.12.3. hakimin fəaliyyətində peşəkar çatışmazlıqlar var.

13.13. Bu Qanunun 13.12.1-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən hakimin vəzifədə irəli çəkilməsi imkanı nəzərdən keçirilir.

13.14. Bu Qanunun 13.12.2-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən hakimin tutduğu vəzifəyə uyğunluğu barədə qərar qəbul edilir.

13.15. Bu Qanunun 13.12.3-cü maddəsində nəzərdə tutulmuş halda, o cümlədən məhkəmələrin fəaliyyətinin monitorinqi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar aşkar edildikdə, hakimin (ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla) fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən olunmuş vaxtda təkrar, lakin bir ildən tez və iki ildən gec olmamaqla qiymətləndirilir. Təkrar qiymətləndirmə zamanı hakimin fəaliyyətində yenidən peşəkar çatışmazlıqlar aşkar edildikdə, onun səlahiyyətlərinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vaxtından əvvəl xitam verilir.

13.16. Məhkəmə sədrləri, sədr müavinləri və kollegiya sədrlərinin inzibati səlahiyyətlərinin icrası üzrə fəaliyyətinin qiymətləndirilməsinin yekununda aşağıdakı nəticələrdən biri müəyyən olunur:

13.16.1. fəaliyyəti qənaətbəxş qiymətləndirilir;

13.16.2. fəaliyyətində peşəkar çatışmazlıqlar var.

13.17. Bu Qanunun 13.16.1-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmə sədrinin, sədr müavininin və ya kollegiya sədrinin inzibati vəzifəyə təyinatı ilə bağlı təklifin verilməsi barədə qərar qəbul edilir.

13.18. Bu Qanunun 13.16.2-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmə sədrinin, sədr müavininin və ya kollegiya sədrinin tutduğu vəzifədə işləməyə uyğun olmaması barədə qərar qəbul edilir.";

2.4. aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

**"Maddə 13-1. Hakimlərin Qiymətləndirilməsi Komitəsi**

13-1.1. Məhkəmə-Hüquq Şurası hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə 9 üzvdən ibarət aşağıdakı tərkibdə Hakimlərin Qiymətləndirilməsi Komitəsini formalaşdırır:

13-1.1.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin üç hakimi;

13-1.1.2. apellyasiya instansiyası məhkəmələrinin üç hakimi;

13-1.1.3. birinci instansiya məhkəmələrinin üç hakimi.

13-1.2. Məhkəmə-Hüquq Şurasının və ya Hakimlərin Seçki Komitəsinin üzvü eyni zamanda Hakimlərin Qiymətləndirilməsi Komitəsinin üzvü ola bilməz.

13-1.3. Hakimlərin Qiymətləndirilməsi Komitəsi üzvlərinin səlahiyyət müddəti beş ildir.

13-1.4. Hakimlərin Qiymətləndirilməsi Komitəsinin fəaliyyəti dövlət büdcəsindən Məhkəmə-Hüquq Şurasına ayrılmış vəsait hesabına Şura tərəfindən maliyyələşdirilir. Məhkəmə-Hüquq Şurasının üzvləri üçün bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş təminatlar Hakimlərin Qiymətləndirilməsi Komitəsinin üzvlərinə də şamil olunur.";

2.5. 14-cü maddə üzrə:

2.5.1. 14.1-ci maddənin birinci abzasında "nəfərlik tərkibdə aşağıdakı şəxslərdən" sözləri "üzvdən ibarət aşağıdakı tərkibdə" sözləri ilə əvəz edilsin;

2.5.2. aşağıdakı məzmunda 14.1-1-ci maddə əlavə edilsin:

"14.1-1. Hakimlərin Seçki Komitəsi üzvlərinin səlahiyyət müddəti beş ildir.";

2.5.3. 14.2-ci maddəyə "Şurasının" sözündən sonra "və ya Hakimlərin Qiymətləndirilməsi Komitəsinin" sözləri əlavə edilsin;

2.5.4. 14.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"14.3. Hakimlərin Seçki Komitəsi vakant hakim vəzifəsinə namizədlərin sənədlərini toplayır, bu şəxslər üçün şəffaf surətdə test imtahanı, yazılı imtahan və müsahibə təşkil edir.";

2.5.5. 14.4-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hakimlərin Seçki Komitəsinin fəaliyyəti dövlət büdcəsindən Məhkəmə-Hüquq Şurasına ayrılmış vəsait hesabına Şura tərəfindən maliyyələşdirilir.";

2.6. 15-ci maddə üzrə:

2.6.1. 15.1-ci maddənin birinci abzasının birinci cümləsində "ilkin uzunmüddətli tədris kurslarını müvəffəqiyyətlə bitirmiş və yekun müsahibədən" sözləri "test imtahanı, yazılı imtahan və müsahibədən müvəffəqiyyətlə" sözləri ilə əvəz edilsin;

2.6.2. 15.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15.1.3. test imtahanı, yazılı imtahan və müsahibənin nəticələri;";

2.7. 16.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"16.0.3. test imtahanı, yazılı imtahan və müsahibənin nəticələri;";

2.8. 17.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Səslər bərabər olduqda Məhkəmə-Hüquq Şurasının iclasına sədrlik edənin səsi həlledici hesab olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2024-cü il*

---

# "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 96-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;

1.4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 12.0.21-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744 (Cild I); 2024, № 5 (I kitab), maddə 519) 7 ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.1-ci bənddə birinci halda "altıncı" sözü "dördüncü" sözü ilə əvəz edilsin və həmin bənddən "onuncu hissəsinin ikinci-dördüncü, altıncı və yeddinci abzaslarında," sözləri çıxarılsın;

3.2. aşağıdakı məzmunda 7.1-1-ci bənd əlavə edilsin:

"7.1-1. həmin Qanunun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.3. 7.9-cu bəndə "birinci cümləsində" sözlərindən sonra "və 96-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.5-ci bənddə "və Hakimlərin Seçki" sözləri ", Hakimlərin Seçki Komitəsinin və Hakimlərin Qiymətləndirilməsi" sözləri ilə əvəz edilsin;

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.2-ci bənddən ", 13.3-cü" sözləri çıxarılsın;

4.2.2. aşağıdakı məzmunda 2.3 1 ci bənd əlavə edilsin:

"2.3-1. həmin Qanunun 12.0.21-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

---

# N.N.Məmmədovun Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nəsir Natiq oğlu Məmmədov Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

---

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639 (Cild I) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.7.8-1-ci yarımbəndindən "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.6-cı bəndi nəzərə alınmaqla," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

## Milli Məclisin iclasında

# Milli Məclisin iclasında 2025-ci ilin dövlət büdcəsi qəbul olundu

*Əvvəli 1-ci səh.*

Azər Əmiraslanov diqqətə çatdırıb ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri üzrə 40 milyon manat məbləğində artım istiqamətində dəyişiklik edilir. Bu məbləğ büdcədən kənar gəlirlərin, eləcə də bu gəlirlərdən formalaşan xərclərin artımı ilə bağlıdır. Bununla yanaşı, dövlət büdcəsinin bəzi xərc istiqamətlərində ümumi məbləğ daxilində dəyişiklik edilir. Qeyd olunub ki, bəzi istiqamətlər üzrə xərclər ümumilikdə 229.8 milyon manat azaldılır, digər istiqamətlər üzrə həmin məbləğ qədər artırılır. Beləliklə, dövlət büdcəsinin gəlirləri növbəti il üçün 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407 milyon 600 min manat nəzərdə tutulur.

Komitə sədri qeyd edib ki, dövlət büdcəsi təkcə iqtisadi göstəricilərdən, rəqəmlərdən ibarət illik maliyyə planı deyil. O milli iqtisadiyyatla yanaşı, dövlət siyasətinin də güzgüsüdür. Belə ki, büdcə rəqəmləri həm də dövlətin hansı strateji məqsəd və təşəbbüsləri, hansı siyasi qərarları reallaşdırdığını özündə əks etdirir.

Bildirilib ki, əgər dövlət büdcəsində müdafiə xərcləri artırılırsa, xarici borclanmaya mühafizəkar yanaşılırsa, strateji layihələrin maliyyələşməsi daxili resurslara əsaslanırsa, bu büdcənin arxasında milli maraqlara söykənən dövlət siyasəti dayanır. Büdcə zərfi hökumət tərəfindən təqdim edilsə də, o icra və qanunverici orqanların birgə müzakirə platformasından keçdikdən sonra dövlət başçısı tərəfindən imzalanır və qanun qüvvəsinə malik olan dövlət büdcəsi statusunu qazanır və ümummilli, vahid strateji sənədə çevrilir.

Qeyd olunub ki, bir ay davam edən büdcə müzakirəsi zamanı 2025-ci ilin dövlət büdcəsi layihəsinə münasibətdə hökumətlə parlament vahid mövqe nümayiş etdirib. Vurğulanıb ki, ölkəmizdə vahid dövlət siyasətinin həyata keçirilməsi ənənəsi bundan sonra da davam edəcək, sosial, iqtisadi, siyasi və institusional islahatların reallaşdırılması üçün imkanlar yaradacaq, dövlət idarəçiliyinin ahəngdarlığına və sabitliyinə öz töhfəsini verəcək.

Azər Əmiraslanov bildirib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər ölkənin iqtisadi reallıqlarına və büdcə qanunvericiliyinin tələblərinə cavab verir. Habelə ölkəmizin milli təhlükəsizliyinə, iqtisadiyyatın inkişafına, sosial rifaha, Qarabağın və Şərqi Zəngəzurun bərpasına və digər dövlət maraqlarına xidmət edir. 2025-ci ilin büdcəsi dövlətimizin siyasi, iqtisadi və hərbi gücünü nümayiş etdirməklə, növbəti ildə də ölkə Prezidenti tərəfindən qarşıya qoyulmuş çox mühüm və təxirəsalınmaz strateji vəzifələrin yerinə yetirilməsi üçün etibarlı maliyyə təminatı yaradır.

Milli Məclisin Sədri Sahibə Qafarova nəzərə çatdırıb ki, birinci və ikinci oxunuşlar zamanı 85 deputat 2025-ci ilin dövlət büdcəsi haqqında öz mülahizələrini bildirib və bütün çıxışlar, o cümlədən deputatların yazılı şəkildə təqdim etdikləri 27 çıxış aidiyyəti üzrə Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə göndərilib.

Sonra maliyyə naziri Samir Şərifov 2025-ci ilin dövlət büdcəsi layihəsinin konstruktiv şəkildə müzakirə edilməsinin təşkilinə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya, komitə sədrlərinə, təklif və tövsiyələrinə görə millət vəkillərinə təşəkkürünü ifadə edib.

Nazir bəzi zəruri istiqamətlər üzrə xərclərin artırılması ilə bağlı, o cümlədən müzakirələr zamanı millət vəkillərinin irəli sürdüyü təkliflər də nəzərə alınmaqla təqdim olunan büdcə layihəsinə bir sıra dəyişikliklərin edilməsinin məqsədəuyğun hesab olunduğunu bildirib. Diqqətə çatdırılıb ki, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalarını və ona müvafiq olaraq büdcədənkənar xərclərini 40 milyon manat məbləğində artırmaq nəzərdə tutulur. Əlavə gəlir potensialının səfərbər edilməsi yolu ilə bir sıra publik hüquqi şəxslərə xərclərini dövlət büdcəsi hesabına deyil, daha çox öz gəlirləri hesabına təmin etmək tövsiyə edilir. Bunun nəticəsi olaraq, təqribən 159 milyon manat vəsaitin bu təyinat üzrə sərbəstləşdirilməsi və tam həcmdə ölkəmizin müdafiə və milli təhlükəsizliyinin daha da gücləndirilməsi ilə bağlı tədbirlərinin əlavə maliyyə təminatına yönəltmək təklif olunur. Bununla müdafiə və milli təhlükəsizlik xərclərinin dövlət büdcəsindəki ümumi məbləği 8 milyard 555 milyon manata çatdırılır.

Samir Şərifov bildirib ki, büdcə təşkilatlarında malların və xidmətlərin alınması üzrə xərclərin optimallaşdırılması yolu ilə əlavə 36 milyon manat vəsaiti sərbəstləşdirmək və aşağıdakı istiqamətlər üzrə xərcləri artırmaq nəzərdə tutulur. Belə ki, Azərbaycan Milli Məclisinin maliyyə təminatını əlavə olaraq 815 min manat məbləğində artırmaq, Prezidentin tapşırığı ilə siyasi partiyalara maliyyə yardımının ayrılması üçün ilkin proqnozlaşdırılan vəsaitin 1 milyon manat və ya 20 faiz artırmaq, 2025-ci ildə Yaponiyanın Osaka şəhərində keçiriləcək Expo-2025-də ölkəmizin təmsil olunması xərcləri də daxil olmaqla dövlət büdcəsində beynəlxalq fəaliyyət üzrə xərcləri 24 milyon manat artırmaq, ölkəmizin ixrac və investisiya potensialının təbliği ilə bağlı xərclərin maliyyələşdirilməsi üçün 10 milyon manat ayırmaq planlaşdırılır.

Bununla yanaşı, 2025-ci ilin dövlət büdcəsində Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika və Su Ehtiyatları agentliklərinin səlahiyyətlərinin müvafiq olaraq "Azərenerji", "Azərişıq" açıq səhmdar cəmiyyətlərinə və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə ötürülməsi ilə bağlı dəyişikliklərin və bununla bağlı müvafiq xərclərin dövlət büdcəsində əks etdirilməsi zərurəti yaranıb. Müvafiq olaraq Naxçıvan Muxtar Respublikasına dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılması nəzərdə tutulmuş dotasiyanın məbləği 34,8 milyon manat azaldılır və eyni məbləğdə vəsait muxtar respublikanın ərazisində fəaliyyət göstərən Dövlət Su Ehtiyatları Agentliyinin maliyyə təminatına yönəldilir.

Nazir qeyd edib ki, təklif olunan dəyişikliklər qəbul edildiyi təqdirdə 2025-ci il üçün həm dövlət, həm də icmal büdcələrin gəlir və xərcləri bərabər olaraq 40 milyon manat artır, yəni dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri 41 milyard 407 milyon 600 min manat, icmal büdcənin gəlirləri 43 milyard 950 milyon 500 min manat, xərcləri 47 milyard 629 milyon 400 min manat təşkil edəcək. Dövlət və icmal büdcələrinin kəsirlərində hər hansı dəyişiklik baş verməyəcək və onlar ilkin təqdim olunmuş büdcə layihəsindəki kimi saxlanılır.

Məsələ ətrafında müzakirələrdə komitə sədri Polar Bülbüloğlu, deputatlar Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Elşən Musayev, Elman Nəsirov çıxış edərək 2025-ci il üçün dövlət büdcəsinin layihəsi barədə fikirlərini səsləndiriblər, habelə sənədə təklif olunan dəyişiklikləri məqbul hesab ediblər.



Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra gündəliyin növbəti iki məsələsi - "Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri təqdim edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə məlumatında bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun növbəti il üçün büdcəsi gəlir və xərcləri bərabər olmaqla 7,7 milyard manat nəzərdə tutulur və bu, cari illə müqayisədə 10,5 faiz çoxdur. İşsizlikdən Sığorta Fondunun büdcəsi gəlir və xərcləri bərabər olmaqla 261 milyon manat nəzərdə tutulur və bu, cari illə müqayisədə 9,5 faiz çoxdur.

Komitə sədri, dövlət büdcəsinin də sosialyönümlü olduğunu qeyd edərək, bunun növbəti ildə əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına imkan verəcəyini, aztəminatlı insanların sosial müdafiəsini gücləndirmək üçün büdcədə etibarlı maliyyə təminatının yaradılacağını deyib. O qeyd edib ki, 2025-ci ilin büdcəsi habelə minimum əməkhaqqının, minimum pensiyaların məbləğinin artırılmasına da şərait yaradacaq. Belə ki, növbəti ildə əmək pensiyalarının orta məbləği 535 manata, yaşa görə pensiyaların orta məbləği 571 manata çatacaq. Bildirilib ki, eyni zamanda 2025-ci ildə İşsizlikdən Sığorta Fondunun büdcəsinin böyük əksəriyyəti, yəni 55 faizi aktiv məşğulluq tədbirlərinə yönələcək və bu çərçivədə özünüməşğulluq layihəsi də davam etdiriləcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bu iki sənədin rəhbərlik etdiyi komitə tərəfindən dəstəkləndiyini açıqlayıb.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair bu komitənin müsbət rəyini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra komitə sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov sənədin bu komitə tərəfindən dəstəkləndiyini söylədikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihənin birinci və ikinci oxunuşda komitədə və plenar iclaslarda geniş müzakirə edildiyini, deputatlar tərəfindən bir sıra təkliflərin səsləndirildiyini deyib. Müzakirə dövründə qanun layihəsində tənzimlənməsi zəruri bilinən bir sıra məsələlərin diqqət mərkəzində saxlanıldığını qeyd edib. Bildirilib ki, bu məsələlər komitə və İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti tərəfindən nəzərdən keçirilərək məqbul hesab edilib və qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb.

Komitə sədri bu düzəlişlərlə bağlı diqqətə çatdırıb ki, Məcəllənin 13.2.11-ci maddəsində dəqiqləşdirmə məqsədilə "torpağa mülkiyyət" sözlərindən sonra, "habelə torpaqdan istifadə" sözləri əlavə edilir və bununla da vergi qanunvericiliyinin məqsədləri üçün torpaqdan istifadə hüququnun verilməsinin hüquqi rejimi müəyyən olunur. Habelə 16.1.11-17-ci maddəyə təklif olunan dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsulları bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri və idarəediciləri tərəfindən vergi ödəyiciləri barədə məlumatın hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək uçotda olduğu vergi orqanına təqdim edilməsi nəzərdə tutulur. Üçüncü oxunuşa təqdim olunan layihədə bu məlumatın elektron formada olması ilə bağlı müvafiq düzəliş edilib. Bununla yanaşı, məcəllənin digər maddələrində istifadə olunan terminlə eyniliyi təmin etmək üçün 50.1.15-ci maddədə "subyekt" sözü "təsərrüfat subyekti" sözləri ilə əvəz edilir. Bildirilib ki, qanun layihəsi ilə dövlət-özəl tərəfdaşlığı çərçivəsində özəl tərəfdaşlara bir sıra vergi növləri üzrə güzəştlər tətbiq ediləcək. Güzəştlərin özəl tərəfdaşlarla yanaşı, layihə şirkətinə da şamil edilməsi nəzərdə tutulur. Bu məqsədlə 106.1.35, 106.1.63, 207.13 və 199.22-ci maddələrə təklif olunan mətnə "özəl tərəfdaş" sözlərindən sonra "müəyyən layihə şirkəti" sözləri əlavə edilir.

Azər Əmiraslanov təklif olunan düzəlişlərin Vergi Məcəlləsinin təkmilləşdirilməsinə xidmət etdiyini söyləyib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Azər Əmiraslanov "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı da məlumat verib, əvvəlki oxunuşlarda layihəyə heç bir əlavə düzəlişlərin edilmədiyini deyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Nağdsız hesablaşmalar haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O, bu qanun layihəsinə hər hansı bir dəyişikliyin edilmədiyini deyib. Layihəyə əsasən, bütün ƏDV ödəyiciləri, həmçinin ictimai iaşə fəaliyyəti ilə məşğul olan və 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi ödəyən vergi ödəyiciləri tərəfindən ay ərzində aparılmasına icazə verilən nağdsız hesablaşma limiti onların satış dövriyyəsindən asılı olaraq, əvvəlki təqvim ayında təqdim edilən mal, iş və xidmətlər üzrə dövriyyənin (ƏDV daxil olmaqla) 2 faizi həcmində müəyyən edilir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti barədə danışıb. Komitə sədri layihədə Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakterli düzəlişlərin edildiyini söyləyib. O, sənəd barədə əvvəlki oxunuşlarda ətraflı məlumat verildiyini, komitəyə heç bir əlavə təklifin daxil olmadığını, layihənin mətnində dəyişikliyin edilmədiyini deyib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dəyişikliklərlə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. O, sənəddə dövlət-özəl tərəfdaşlığı layihələri üçün gömrük güzəştlərinin nəzərdə tutulduğunu söyləyib. Komitə sədri layihədə birinci və ikinci oxunuşlarda hər hansı düzəlişlərin edilmədiyini deyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova büdcə zərfinə daxil olan bütün qanun layihələrinin üçüncü oxunuşda qəbul edildiyini bildirib və çıxış üçün Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova söz verib.

İclasda çıxış edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bildirib ki, 2024-cü il vətənimiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə zəngin olub.

Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün suveren ərazimizdə fevralın 7-də növbədənkənar prezident seçkiləri, sentyabrın 1-də isə VII çağırış Milli Məclisə növbədənkənar seçkilər keçirilib.

Prezident və parlament seçkilərinin nəticələri birmənalı olaraq Prezident İlham Əliyevin zəfərlərə yol açan uğurlu və məqsədyönlü siyasətinə xalqımızın inam və etimadını bir daha nümayiş etdirib.

Baş nazir qeyd edib ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində dövlət suverenliyimizin tam bərpa edilməsi tarixinin əbədiləşdirilməsi üçün cənab Prezidentin imzaladığı sərəncama əsasən sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi təsis edilib. Həmçinin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin bağlanmasının 30-cu ildönümü qeyd olunub.

Bildirilib ki, "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının təməl daşıdır. Məhz bu strategiya Azərbaycanın müstəqilliyini möhkəmləndirdi, onun uzunmüddətli və davamlı iqtisadi inkişafını təmin etdi. Bu strateji kurs bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun olaraq məharətlə və qətiyyətlə davam etdirilərək, ölkəmizin inkişafının, iqtisadi qüdrətinin və siyasi nüfuzunun yüksəlməsini, xalqımızın rifahının artmasını təmin edib.

Baş nazir diqqətə çatdırıb ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib, cənab Prezidentin sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub.

Əli Əsədov dünyanın ən əhəmiyyətli və irimiqyaslı beynəlxalq mötəbər tədbirlərindən biri olan COP29-un Bakıda keçirilməsindən danışaraq qeyd edib ki, bu tədbir çox yüksək səviyyədə, mükəmməl təşkil olunmaqla regionda ilk dəfə Azərbaycanda baş tutub.

Ötən ilin dekabrında 200-ə yaxın ölkənin yekdil qərarı ilə Azərbaycanın COP29-un ev sahibi seçilməsi dünya miqyasında ölkəmizə və şəxsən dövlət başçısına olan böyük hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rola verilən yüksək qiymətdir.

COP29-un Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin çıxışını xüsusi qeyd edən Baş nazir bildirib ki, cənab Prezident öz məzmunlu və çoxhədəfli çıxışı ilə bir daha mükəmməl diplomatik məharətini və qətiyyətli mövqeyini nümayiş etdirdi, Azərbaycanın COP29-un sədri qismində "yaşıl keçid"in güclü lideri olacağını dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Sonra Baş nazir ölkənin əsas maliyyə sənədi olan 2025-ci il dövlət və icmal büdcə layihələri ilə bağlı Milli Məclisin plenar iclaslarında müzakirələrin yüksək səviyyədə təşkilinə və sənədlərin qəbuluna görə spiker Sahibə Qafarova başda olmaqla Milli Məclisin rəhbərliyinə təşəkkürünü ifadə edib.

Əli Əsədov bildirib ki, sentyabrın 26-da cənab Prezidentin sədrliyi ilə keçirilən "İqtisadi məsələlərə həsr olunmuş müşavirədə dövlət başçısının qeyd etdiyi kimi, "İlin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. Və bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər də bunu təsdiqləyir".

Bununla bağlı bəzi makroiqtisadi göstəriciləri diqqətə çatdıran Baş nazir qeyd edib ki, artıq 11 ayda iqtisadi artım 4,1 faiz olub, o cümlədən qeyri-neft sektorumuz 6,4 faiz artıb. Strateji valyuta ehtiyatlarımız 72 mlrd. dolları ötüb. Birbaşa xarici dövlət borcumuz ÜDM-in cəmi 7,3 faizini təşkil edir.

Hökumət tərəfindən təsdiq edilmiş müvafiq Tədbirlər Planının icrası da antiinflyasiya tədbirlərinə öz töhfəsini verib.

Hal-hazırda dünyada və regionda davam edən geosiyasi gərginliklərə, iqlim dəyişikliklərinə, əmtəə bazarlarında qiymətlərin volatilliyinə baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub.

Baş nazir bildirib ki, növbəti il və ortamüddətli dövr üçün büdcə siyasəti əsas hədəflər, həmçinin cənab Prezidentin hökumət qarşısında qoyduğu əsas prioritet vəzifələr nəzərə alınmaqla hazırlanmışdır. Bunlar ölkənin hərbi-müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük qayıdışın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması üçün əlavə sosial dəstək paketinin həyata keçirilməsi, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin olunması və Naxçıvan Muxtar Respublikasının dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrasıdır.

Əli Əsədov diqqətə çatdırıb ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat proqnoz edilir. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4 faizdir. Büdcə layihəsi müasir Azərbaycan tarixində ən böyük büdcədir.

Makroiqtisadi proqnozlara əsasən, 2025-ci ildə ümumi daxili məhsulun 3,5 faiz, qeyri-neft sektoru üzrə isə 4,9 faiz real artım tempi proqnozlaşdırılır.

Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 20,6 faizini təşkil edir.

2025-ci ildə büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaqdır. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında daim qalmağa davam edəcəkdir.

Ümumilikdə bütün istiqamətlər üzrə sosialyönümlü xərclər dövlət büdcəsi xərclərinin 40 faizini üstələyir.

2025-ci ildə minimum əməkhaqqı, pensiya, müavinət və digər sosial ödənişlərdə yeni artımlar 3 milyona yaxın vətəndaşı əhatə edəcəkdir.

Müasir təhsilin inkişafı və əhalinin keyfiyyətli və qabaqcıl tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması məqsədləri üçün növbəti ilin dövlət büdcəsində daha çox vəsait nəzərdə tutulub.

Səhiyyə sahəsində aparılan davamlı islahatların nəticəsində cari ildə Tibbi Xidmətlər Zərfi çərçivəsində göstərilmiş xidmətlərin sayında 21 faiz artım olmuşdur.

2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə toplam 22 mlrd. manata yaxın, o cümlədən 2025-ci ildə 4 mlrd. manat vəsait ayrılıb.

Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi prosesi uğurla həyata keçirilir. Bu günədək 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülüb.

Əli Əsədov ölkəmizin regionda enerji və nəqliyyat sahələrində həyata keçirdiyi meqa investisiya layihələri, eyni zamanda ölkəmizin "yaşıl enerji" mənbəyi kimi Avropanın aparıcı tərəfdaşlarından birinə çevrilməsi, Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılması sahəsində görülən işlər barədə də məlumat verib.

Baş nazir deputatların səsləndirdikləri bir sıra kommunal xidmətlər, məşğulluq, məktəblərin və yolların təmiri və digər sosial-iqtisadi məsələlərin həll edilməsi üçün təkliflərə cavab olaraq bildirib ki, ölkə ərazisində qazlaşdırılma səviyyəsi 96,6 faizdir (o cümlədən Naxçıvanda 100 faiz). Bu göstəriciyə görə ölkəmiz MDB və digər qonşu ölkələri qabaqlayır.

Əli Əsədov qeyd edib ki, hazırda 473 məktəbin əsaslı təmirinə ehtiyac var. Bu, ölkədəki bütün məktəblərin 10 faizini təşkil edir. Bunlardan 123 məktəbdə təmir-tikinti işlərinin gələn ildə aparılması nəzərdə tutulub.

2021-ci ildən bu günədək ölkə üzrə 2700 km-dən çox avtomobil yolları yenidən qurulub və təmir olunub. Bunun yarısından çoxu yerli əhəmiyyətli yollardır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə 45 layihə icra edilir.

Baş nazir bildirib ki, dövlət büdcəsində "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1,1 mlrd. manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılacaqdır ki, bununla da bir çox məsələlərin həll edilməsi üçün işlər görüləcəkdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası diqqət mərkəzində saxlanılacaq və 150 milyon manat vəsait ayrılacaqdır. Eyni zamanda hökumət tərəfindən regionların sosial-iqtisadi inkişafına dair növbəti 5 illik dövlət proqramının hazırlanması planlaşdırılır.

Parlamentin Sədri Sahibə Qafarova Baş nazir Əli Əsədova təşəkkür edib, hökumət üzvlərinə ölkəmizin inkişafı naminə dəyərli fəaliyyətlərində, dövlət büdcəsinin və digər büdcə sənədlərinin icrasında uğurlar arzulayıb.

*Ardı 5-ci səh.*

# Milli Məclisin iclasında 2025-ci ilin dövlət büdcəsi qəbul olundu



*Əvvəli 4-cü səh.*

Sonra spiker Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihələri olduğunu qeyd edib. O bu məsələlərlə bağlı məlumatın əvvəlcədən verildiyini, bu gün isə səsvermənin həyata keçiriləcəyini söyləyib.

Deputat Aydın Mirzəzadənin fikirləri dinlənildikdən sonra Milli Məclisin hər iki qərar layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Gündəliyin on üçüncü məsələsi olan "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. Komitə sədri bildirib ki, həm birinci, həm də ikinci oxunuşda layihə barədə ətraflı məlumat verilib və sənəd geniş müzakirə edilib. O, sənədin mətnində heç bir dəyişikliyin aparılmadığını diqqətə çatdırıb və qanun layihəsinin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin sonuncu məsələsini - Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim edib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev birinci oxunuşda müzakirəyə təqdim olunan qanun layihəsinin müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması, habelə hərbi xidmətə çağırışla bağlı müvafiq müddəaların dəqiqləşdirilməsi məqsədilə hazırlandığını vurğulayıb. Bildirilib ki, layihəyə əsasən, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna "tibbi şəhadətləndirilmə", "elektron kabinet" və "çağırış vərəqəsi" anlayışları əlavə edilir. Təklif olunan dəyişikliklərdə vətəndaşların hərbi vəzifələrinin icrası ilə bağlı xidmətlərin müvafiq informasiya sistemi vasitəsilə həyata keçirilməsi və hərbi vəzifələrinin icrası ilə əlaqədar vətəndaşlar tərəfindən elektron kabinetlərin yaradılması nəzərdə tutulub. Bundan başqa, layihədə aidiyyəti dövlət orqanları arasında tibbi müayinənin nəticələrinin elektron əldə edilməsi, müvafiq dövlət orqanlarının sistemlərinin qarşılıqlı inteqrasiyası ilə bağlı müddəalar əks olunub. Həmçinin müddətli həqiqi hərbi xidmətə çağırış üçün nəzərdə tutulan son yaş həddinin 30 yaşa endirilməsi təklif olunub.

Komitə sədri layihədə nəzərdə tutulan ilkin hərbi qeydiyyat, həmçinin çağırışçılar barəsində qərarların qəbul edilməsi kimi məsələlərlə bağlı müddətlərin optimallaşdırılmasını diqqətə çatdırıb. Yuxarıda qeyd olunanlarla yanaşı, layihədə müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək hərbi qeydiyyatdan çıxarılan vətəndaşların dairəsi və təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi ilə bağlı daha dəqiq tənzimləmə təsbit olunub.

Cinayət Məcəlləsinin 321-ci maddəsinə əlavə edilməsi təklif olunan "Qeyd" hissəsində "çağırışdan boyun qaçırma" əməlinin nədən ibarət olması dəqiq müəyyən olunur. Buna uyğun olaraq, Miqrasiya Məcəlləsinə ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı yeni halın əlavə edilməsi təklif olunur. İnzibati Xətalar Məcəlləsində çağırışçılar və hərbi vəzifəlilər haqqında aidiyyəti orqanlar tərəfindən məlumatların vaxtında verilməməsinə görə inzibati məsuliyyəti müəyyən edən maddənin dispozisiyası dəqiqləşdirilir və bu inzibati xətaya görə məsuliyyət sərtləşdirilir.

Digər qanunlara dəyişikliklər isə "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda mövcud olan müddəalardan və bu layihə ilə təklif edilən dəyişikliklərdən irəli gəlir.

Komitə sədri Arzu Nağıyev qanun layihəsinin komitə iclasında birinci oxunuşda müzakirəsindən sonra dəyişikliklərin sosial şəbəkələrdə və mediada dəstəkləndiyini, müsbət dəyərləndirildiyini vurğulayıb.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov layihə ilə bağlı komitələrinin müsbət rəylərini diqqətə çatdırıblar. Layihənin müzakirəsində deputatlar Vüqar Bayramov və Aydın Hüseynov çıxış edərək dəyişikliklərə dair fikirlərini bildiriblər, qeydlərini səsləndiriblər.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# YAP İdarə Heyətinin iclası keçirilib





**Dekabrın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

İclasda ilk olaraq Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının avanqard siyasi qüvvə kimi hər zaman ictimai-siyasi proseslərin önündə getdiyini və mühüm qələbələrə imza atdığını, qarşıdan gələn bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını qeyd edib. O bildirib ki, yerli özünüidarəetmə orqanlarında təmsil olunan YAP üzvləri xalqın etimadını böyük məsuliyyət kimi qəbul edərək bu sahədə konkret nəticələrin əldə olunmasına hesablanan məqsədyönlü fəaliyyət həyata keçirirlər: "Bununla bərabər, yerli özünüidarəetmənin təkmilləşdirilməsi, eləcə də əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması naminə qarşıda mühüm vəzifələr durur. Əminəm ki, xalqın iradəsi əsasında yeni formalaşacaq bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri də dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikrini əsas götürərək ötən dövrün təcrübəsini və yeni dönəmin çağırışlarını nəzərə almaqla bu sahədə məqsədyönlü fəaliyyət göstərəcəklər".

Tahir Budaqov seçkilərin keçiriləcəyi 685 bələdiyyənin hər biri üzrə ümumilikdə 8071 namizədin müəyyən edildiyini və onların siyahısının İdarə Heyətinin üzvlərinə əvvəlcədən təqdim olunduğunu vurğulayaraq münasibət bildirilməsini xahiş edib.

YAP Sədrinin müavini Əli Əhmədov çıxış edərək ölkəmizdə ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atıldığını diqqətə çatdırıb. O, seçkilərin əhəmiyyətinə toxunaraq YAP tərəfindən namizədliyi irəli sürülən şəxslərin müasir, qalib və qüdrətli Azərbaycanın vətəndaşlarının yüksək rifahı naminə öz üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün var gücü ilə çalışacaqlarına inamını ifadə edib və İdarə Heyətinin üzvlərini həmin namizədləri dəstəkləməyə çağırıb.

Məsələ səsə qoyulub və YAP-ın bələdiyyə üzvlüyünə namizədlərinin siyahısı yekdilliklə təsdiq olunub.

Bundan sonra seçki komissiyalarının tərkibinə təklif olunan məşvərətçi səs hüquqlu üzvlər, seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə bağlı məsələyə baxılıb və onların siyahıları təsdiq edilib.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov irəli sürülmüş namizədlərin göstərilmiş etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəklərinə əminliyini ifadə edərək onlara uğurlar arzulayıb: "İnanırıq ki, 2025-ci il yanvarın 29-da keçiriləcək növbəti bələdiyyə seçkiləri Ulu Öndər Heydər Əliyevin dəyərli mənəvi-siyasi mirası olan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyasına xalqımızın inam və etimadının növbəti bariz nümunəsi olacaqdır".

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 520** **QƏRAR** **10 dekabr 2024-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 oktyabr tarixli 453 nömrəli, 31 oktyabr tarixli 467 nömrəli və 20 noyabr tarixli 481 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə 5603 12 100 0, 5603 13 100 0, 6307 90 980 1 və 6307 90 980 2 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2024-cü il" sözləri "31.12.2027-ci il" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 522** **QƏRAR** **11 dekabr 2024-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 17 oktyabr tarixli 323 nömrəli Sərəncamının 3.3-cü bəndinin və "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının 2.5-ci bəndinin icrasını təmin etmək məqsədilə və Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci iI 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996 ) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissəyə aşağıdakı məzmunda iyirmi ikinci - iyirmi beşinci abzaslar əlavə edilsin:

"4-21/ Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi

4-22/ Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi

4-23/ Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi

4-24/ Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi".

2. 5-ci hissəyə aşağıdakı məzmunda səksən altıncı - yüz yetmişinci abzaslar əlavə edilsin:

"5-85/ Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsi

5-86/ Naxçıvan Muxtar Respublikası Culfa Rayon Məhkəməsi

5-87/ Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsi

5-88/ Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsi

5-89/ Naxçıvan Muxtar Respublikası Ordubad Rayon Məhkəməsi

5-90/ Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Məhkəməsi

5-91/ Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsi

5-92/ Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsi

5-93/ Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi
5-94/ Bakı şəhəri Xətai Rayon Məhkəməsi
5-95/ Bakı şəhəri Xəzər Rayon Məhkəməsi
5-96/ Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi
5-97/ Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi
5-98/ Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi
5-99/ Bakı şəhəri Nizami Rayon Məhkəməsi
5-100/ Bakı şəhəri Pirallahı Rayon Məhkəməsi
5-101/ Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi
5-102/ Bakı şəhəri Səbail Rayon Məhkəməsi
5-103/ Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi
5-104/ Bakı şəhəri Yasamal Rayon Məhkəməsi
5-105/ Abşeron Rayon Məhkəməsi
5-106/ Ağcabədi Rayon Məhkəməsi
5-107/ Ağdam Rayon Məhkəməsi
5-108/ Ağdaş Rayon Məhkəməsi
5-109/ Ağstafa Rayon Məhkəməsi
5-110/ Ağsu Rayon Məhkəməsi
5-111/ Astara Rayon Məhkəməsi
5-112/ Balakən Rayon Məhkəməsi
5-113/ Beyləqan Rayon Məhkəməsi
5-114/ Bərdə Rayon Məhkəməsi
5-115/ Biləsuvar Rayon Məhkəməsi
5-116/ Cəbrayıl Rayon Məhkəməsi
5-117/ Cəlilabad Rayon Məhkəməsi
5-118/ Daşkəsən Rayon Məhkəməsi
5-119/ Füzuli Rayon Məhkəməsi
5-120/ Gədəbəy Rayon Məhkəməsi
5-121/ Gəncə Şəhər Məhkəməsi
5-122/ Goranboy Rayon Məhkəməsi
5-123/ Göyçay Rayon Məhkəməsi
5-124/ Göygöl Rayon Məhkəməsi
5-125/ Hacıqabul Rayon Məhkəməsi
5-126/ Xaçmaz Rayon Məhkəməsi
5-127/ Xankəndi Şəhər Məhkəməsi
5-128/ Xızı Rayon Məhkəməsi
5-129/ Xocalı Rayon Məhkəməsi
5-130/ Xocavənd Rayon Məhkəməsi
5-131/ İmişli Rayon Məhkəməsi
5-132/ İsmayıllı Rayon Məhkəməsi
5-133/ Kəlbəcər Rayon Məhkəməsi
5-134/ Kürdəmir Rayon Məhkəməsi
5-135/ Qax Rayon Məhkəməsi
5-136/ Qazax Rayon Məhkəməsi
5-137/ Qəbələ Rayon Məhkəməsi
5-138/ Qobustan Rayon Məhkəməsi
5-139/ Quba Rayon Məhkəməsi
5-140/ Qubadlı Rayon Məhkəməsi
5-141/ Qusar Rayon Məhkəməsi
5-142/ Laçın Rayon Məhkəməsi
5-143/ Lerik Rayon Məhkəməsi
5-144/ Lənkəran Rayon Məhkəməsi
5-145/ Masallı Rayon Məhkəməsi
5-146/ Mingəçevir Şəhər Məhkəməsi
5-147/ Naftalan Şəhər Məhkəməsi
5-148/ Neftçala Rayon Məhkəməsi
5-149/ Oğuz Rayon Məhkəməsi
5-150/ Saatlı Rayon Məhkəməsi
5-151/ Sabirabad Rayon Məhkəməsi
5-152/ Salyan Rayon Məhkəməsi
5-153/ Samux Rayon Məhkəməsi
5-154/ Siyəzən Rayon Məhkəməsi
5-155/ Sumqayıt Şəhər Məhkəməsi
5-156/ Şabran Rayon Məhkəməsi
5-157/ Şamaxı Rayon Məhkəməsi
5-158/ Şəki Rayon Məhkəməsi
5-159/ Şəmkir Rayon Məhkəməsi
5-160/ Şirvan Şəhər Məhkəməsi
5-161/ Şuşa Rayon Məhkəməsi
5-162/ Tərtər Rayon Məhkəməsi
5-163/ Tovuz Rayon Məhkəməsi
5-164/ Ucar Rayon Məhkəməsi
5-165/ Yardımlı Rayon Məhkəməsi
5-166/ Yevlax Rayon Məhkəməsi
5-167/ Zaqatala Rayon Məhkəməsi
5-168/ Zəngilan Rayon Məhkəməsi
5-169/ Zərdab Rayon Məhkəməsi".

3. 9-cu hissənin üçüncü abzası və 13-cü hissənin on doqquzuncu abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# HƏZM PROBLEMİ

## Yaxud qu quşunun son nəğməsi



Dünyanın ən çətin işlərindən biri yediyini sınırmamaqdır.

Tibdə buna "həzm problemi" deyilir.

Açması isə belədir ki, əlinə keçəni atmısan mədənə, indi nə oyana gedir, nə də buyana.

Sən də qalmısan yana-yana...

Həzm probleminin səbəbləri müxtəlif olur.

MƏSƏLƏN:

* Çox yemisən deyə, mədənin onu əritməyə gücü çatmır.

* Xörək çiy, tikə yekə olub deyə, mədə şirəsi onu əridə bilmir.

* Ya da ki, ətin sümüyünü udmusan, nə keçirə bilirsən, nə də geri qaytara.

*Yəni ilişib qalıb boğazında.*

*Elə ən çətini də beləsidir!*

**Azərbaycanın 44 günlük Zəfər müharibəsində öz gücünə torpaqlarını azad edərək dövlət suverenliyini bərpa etməsi bir qismin boğazında ilişən sümüyə çevrilib.**

*Nə həzm edə bilirlər, nə də qaytara.*

*Odur ki, qalıblar deyinə-deyinə.*

❖ ❖ ❖

**Adətən, qu quşu dünyadan köçəndə son dərəcə kədərli və qəmli bir mahnı oxuyur...**

**Buna qu quşunun son nəğməsi deyirlər.**

Ondan sonra nə yeyir, nə də səs çıxarır...

*ABŞ-nin Dövlət katibi Entoni Blinken də gethagetdədir.*

*O da Azərbaycanla bağlı qu quşunun son nəğməsinə bənzər bir açıqlama verib, "jurnalistləri, hüquq müdafiəçilərini, siyasi opponentləri və haqsız yerə saxlanılanları "dərhal azad etməyə" çağırıb.*

Doğrudur, Azərbaycan XİN-in Mətbuat xidməti onun cavabını verib: *"ABŞ Dövlət katibi Entoni Blinkenin 2024-cü il dekabrın 4-də ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik".*

**Amma biz məsələyə digər baxış bucağından yanaşmaq, "həzm problemi"nin yaratdığı "mədə sancıları"ndan söhbət açmaq istəyirik.**

❖ ❖ ❖

Görünür, ABŞ, Qərb və bir para digər dövlətlər Qarabağı "öz torpaqları" hesab edirmişlər.

Odur ki, Ermənistan tərəfindən Qarabağın və Şərqi Zəngəzurun işğalını normal qəbul edərək belə düşünürmüşlər ki, həmin ərazilər əbədi onlarda qalmalıdır.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu sərsəm düşüncəni və xain planları 44 gündə "dəmir yumruğ"u ilə puça çıxartdı!**

**Otuzillik işğala son qoyaraq erməni işğalçılarını Azərbaycan ərazilərindən qovdu!**

**Düşməni qarşısında diz çökdürərək ona kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalatdırdı!**

Azərbaycanın dövlət suverenliyini bərpa edərək doğma torpaqlardan separatizmin kökünü birdəfəlik kəsdi!

*Bu gün özlərini dünyanın ağası sayanlar, Cənubi Qafqaza burun soxmaq niyyətində olanlar bu gerçəkliyi qəbul etmək istəmirlər.*

**Əslində, Azərbaycan öz torpaqlarını erməni işğalından azad etməklə BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsini də icra etmişdir.**

*Halbuki BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan ABŞ və Fransa həmin qətnamələrin icrasına daha çox çalışmalıydılar.*

**Həm də ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan ABŞ və Fransa münaqişənin hələ otuz il əvvəl sülh yolu ilə həllinə nail olmalıydılar.**

*Beynəlxalq hüququn təminatçılarından hesab edilən AŞPA və Avropa İttifaqı Ermənistana təsir və təzyiq göstərərək, sanksiyalar tətbiq edərək işğalçı qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını təmin etməliydilər.*

Azərbaycan onların hərəkətsizliyinin yaratdığı nəticəni öz ordusunun gücü ilə ləğv etdikdən sonra ona "sağ ol" demək əvəzinə, AŞPA Azərbaycanın qurumdakı səsvermə hüququnu dondurur, Avropa İttifaqı özünün "sülh fondu"ndan Ermənistana vəsait ayıraraq yenidən silahlanmasına kömək göstərir, keçmiş jandarm və polislərini casus tapşırıqları ilə Azərbaycanla sərhədə "durbin baxışı"na göndərir.

**İkili standartların "buynuz"u beləcə aşkar görünür...**

Hələ bu harasıdır...

❖ ❖ ❖

*İndi Blinken Azərbaycanda insan hüquqlarının, vətəndaş cəmiyyətinin vəziyyətindən "narahatlığını" ifadə edir.*

Görəsən, otuz il ərzində bir milyondan çox azərbaycanlının ən adi insan haqları - istədiyi yerdə ömür sürmək, yaşamaq, mülkiyyət, seçki, əmək, vətəndaş cəmiyyəti qurmaq və digər hüquqları erməni faşistləri tərəfindən pozulanda, soyqırımına, işgəncələrə məruz qalanda Blinken kimilər hardaydılar?!

Bütün bu vəhşilikləri, qəddarlıqları, kütləvi şəkildə pozulan insan haqlarını görmürdülər?!

Bu gün Ermənistanın həqiqi mina xəritələrini verməməklə mülki azərbaycanlıların ölümünə, ömürlük əlilliklərinə səbəb olduqlarından da xəbərləri yoxdur?!

Azərbaycan gənc, müstəqil dövlətdir, bazar iqtisadiyyatı və demokratiya yolunu tutub.

Bu istiqamətdə uğurla fəaliyyət göstərə bilsin deyə özünə beynəlxalq tələblərə cavab verən qanunvericilik bazası da yaradıb və hər bir məsələni qanunauyğun şəkildə həll edir.

**Milli maraqları, milli-mənəvi dəyərləri ilə bağlı məsələlərdə isə heç zaman, heç kəsə güzəştə getmir!**

MƏSƏLƏN:

* Avropa Şurasının bütün cəhdlərinə baxmayaraq, Azərbaycan cinsi azlıqlar barədə qanun qəbul etmədi!

* Azərbaycanda LGBT-nin təbliğatı qadağandır.

* QHT-lərin xaricdən maliyyələşdirilməsində şəffaflıq tələb olunur.

*Gürcüstanda baş verən son hadisələr və gürcü xalqının qəbul etdiyi qərarlar da sübut etdi ki, Azərbaycan bu məsələlərdə düzgün mövqedədir, haqlı olaraq milli-mənəvi dəyərlərini qoruyur və tutduğu yol doğrudur!*

* Kimsə bunu bəyənsə də, bəyənməsə də!

* Kimsənin bunlardan xoşu gəlsə də, gəlməsə də!

**Dövlət öz qanunları ilə idarə olunmalıdır, başqalarının məkrli istək və niyyətləri ilə yox!**

❖ ❖ ❖

* Azərbaycanda söz azadlığı təmin olunub, ölkə əhalisinin 95 faizindən çoxu internet istifadəçisidir.

* Azərbaycanda vətəndaş cəmiyyəti formalaşıb, minlərlə QHT fəaliyyət göstərir.

* Azərbaycanda fikir plüralizmi, vicdan azadlığı mövcuddur, kim haçan istəsə, siyasi partiya yarada bilir.

* Azərbaycanda jurnalistlərin fəaliyyətinə, onların qəzet, sayt, internet TV-lər təsis etmələrində heç bir əngəl yoxdur, sadəcə hər şey qanunauyğun şəkildə həyata keçirilməlidir.

*Azərbaycan özünün informasiya və dövlət təhlükəsizliyini də təmin etməyi bacarır!*

Kifayət qədər peşəkar qurumları, vətənpərvər övladları vardır!

**Bu qayda və qanunları pozanlar, "5-ci kolon"a xidmət etmək istəyənlər və edənlər isə həmin qanunlar qarşısında məsuliyyət daşıyırlar!**

Jurnalist jurnalistlik fəaliyyəti ilə məşğul olmalıdır.

*Əgər kimsə hesab edirsə ki, bu ad altında gizlənərək özünə "toxunulmazlıq" hüququ qazanıb ölkəmizin milli maraqları əleyhinə fəaliyyət göstərəcək, antiazərbaycançı şəbəkədən maliyyə qazanaraq gizli yolla pullar alacaq, çox ciddi səhvə yol verir!*

**Hələ Ulu Öndər Heydər Əliyevin ölkəyə dönüşündən az sonra xaricdən verilən dəstəklə iki dəfə dövlət çevrilişinə cəhd göstərildi.**

*Ulu Öndərimizin cəsarət və qəhrəmanlığı sayəsində xain niyyətlər puça çıxarıldı.*

**Əsrin əvvəllərində - cənab İlham Əliyevin ilk prezident seçkisindən dərhal sonra yenə hakimiyyət çevrilişinə cəhd oldu.**

*Xalq buna imkan vermədi!*

İndi Azərbaycanda rəngli inqilablar, iğtişaşlar törətməyi kimsə yalnız ürəyindən keçirə bilər...

Amma səfeh düşüncədir!

*Nə dövlət o dövlətdir, nə də xalq hər kəsə inanan xalq!*

**Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır!**

**Azərbaycan xalqı milli birliyi və öz rəhbəri ətrafında sıx birləşməsi sayəsində otuzillik işğala son qoydu!**

*İndi isə öz gücü və imkanları hesabına Qarabağda və Şərqi Zəngəzurda sürətli quruculuq apararaq doğma torpaqlarına qayıdır!*

*Nə kimsəyə inanır, nə də kimsədən kömək, dəstək gözləyir!*

*Necə deyərlər, ötən dövrdə hamının dabbaqdakı gönünə bələd olub.*

❖ ❖ ❖

**Bu gün sülh danışıqları adı ilə Cənubi Qafqaza soxulmaq istəyənlər, buranı Ukraynanın vəziyyətinə salmağa can atanlar da var.**

* Heç sülh yaratmaq istəyənlər də tərəflərdən birinin mövqeyini cani-dildən müdafiə edərək açıq şəkildə tərəfini saxlayar?

*Heç sülh yaratmaq istəyənlər də tərəflərdən birini müxtəlif mənbələrdən maliyyələşdirərək digərinə qarşı sanksiya tətbiq edər?

* Heç sülh yaratmaq istəyənlər də tərəflərdən birini silahlandıraraq ona təlimlər keçməklə revanşizmə hazırlayar?

* Heç sülh yaratmaq istəyənlər də tərəflərdən birinə doğma, digərinə ögey yanaşaraq ona təzyiq yolu tutar?

**Sülh yaratmaq istəyən tərəfsiz, qərəzsiz, obyektiv, məkrsiz olmalıdır!**

*Azərbaycan heç zaman etibardan düşmüşləri sülhyaratma prosesinə yaxın buraxmaz!*

Azərbaycanla düşmən münasibətdə olanlar Cənubi Qafqaza soxularaq burada özünə yer tuta bilməz!

**Cənubi Qafqazın söz sahibi Azərbaycandır!**

❖ ❖ ❖

* Ermənistan illərlə arxalandıqlarına arxalanaraq dünyaya yalançı "erməni soyqırımı"nı qəbul etdirmək istədi.

Hətta ABŞ Prezidenti Bayden də onların həsrətlə gözlədiyi "erməni soyqırımı" ifadəsini işlətdi.

* Ermənistan arxalandıqlarına arxalanaraq özünə "böyük Ermənistan" yaratmaq istədi!

* Ermənistan arxalandıqlarına arxalanaraq Azərbaycan torpaqlarını işğal edərək özünə "artsax" adlı guya bir "respublika" da qurdu!

**Nooldu?!**

*Hanı o mifik Ermənistan?*

*Hardadır "artsax respublikası"?*

*Real Ermənistanın vəziyyəti necədir?*

Dostu Bəşər Əsəd də belə getdi!

Öz əhalisi isə dayanmadan qaçır...

*Nə qədər ki Azərbaycanın şərtləri əsasında sülh müqaviləsi imzalamayıb, bu vassal ölkədə kişi cinsindən olanların hamısı yeni müharibə qorxusu altında qaçıb gedəcəklər!*

**Makrona, Blinkenə inanan Paşinyan deyəsən bir dəfə batdığı palçığa təzədən girmək istəyir.**

*Yaxşı olar ki, heç kəsə arxayın olaraq həzm edə bilməyəcəyi tikəni udmasın.*

*Xüsusən mədəsində ilişərək axırına çıxa biləcək sümükdən özünü qorusun.*

Azərbaycanla prinsipial, dövləti maraqlarla bağlı məsələlərin telefon zəngləri vasitəsilə həll olunacağını güman etmək sadəlövhlükdür!

Axı bunu bir dəfə sınaqdan da çıxarmısınız!

Sanksiyadan dəm vuranlara isə meteoroloqların proqnozunu xatırladırıq:

Bu il son 40-50 ilin ən sərt qışı ilə rastlaşacağıq.

Azərbaycan 12 Avropa ölkəsini təbii qazı ilə qışın soyuğundan xilas edəcəkdir!

**Bəxtiyar SADIQOV**

# "Binokl diplomatiyası"nın agentinə çevrilmiş missiyaya zərurət yoxdur



**"Ermənistan sülh üçün praktiki addımlar atmır. Son zamanlar bu ölkədə revanşist çağırışlar artmaqdadır. Xüsusilə, hərbiləşmə siyasəti, Qərblə bu istiqamətdə sıx əməkdaşlıq Ermənistanın sülh sazişini imzalamağa maraqlı olmadığını göstərir". Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, müəyyən Qərb dövlətləri, xüsusilə, Fransa Ermənistanı fəal şəkildə silahlandırır. Rəsmi Paris Ermənistan vasitəsilə Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışır. Parisin məqsədi regionda yeni müharibə alovlandırmaqdır.**

Fransa ilə yanaşı, Hindistan da Ermənistana silah satışını davam etdirir. Yunanıstan isə S-300 raket komplekslərini Ermənistana vermək niyyətindədir. Qərbin təhriki və dəstəyi ilə Ermənistanın silahlandırılması Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə və yeni müharibənin başlanmasına hesablanıb. Ermənistandakı Avropa İttifaqının missiyasının kəşfiyyat xarakterli fəaliyyəti də bu məqsədə xidmət edir.

S.Fətəliyevanın sözlərinə görə, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının gerçək məqsədi regionda sülhə töhfə vermək deyil: "Ötən dövrdə baş verən proseslər göstərdi ki, bu missiya mülki deyil, hərbi-kəşfiyyat xarakteri daşıyır. Missiya üzvlərinin əvvəllər hərbi-təhlükəsizlik sahəsində çalışmaları da bunu təsdiqləyir. Sual yaranır: Avropa İttifaqının missiyası sərhəddə konkret hansı işlərlə məşğul olub? O, sülhə töhfə verə bilibmi, yaxud da Ermənistanın hərbi təxribatlarının qarşını alıbmı? Əlbəttə ki, yox. Missiya üzvləri ötən dövrdə yalnız binoklla sərhəddən Azərbaycana baxmaqla kifayətlənib, hərdən də bir sıra ölkələrdən gələn rəsmilərlə, eləcə də diplomatlarla birlikdə uzaqdan Azərbaycan ərazilərini seyr etməklə məşğul olublar. Ötən dövrdə erməni tərəfi bir sıra hərbi təxribatlar törədib ki, Aİ missiyası o zaman ortalıqda görünməyib. Yəni onlar erməni təxribatının qarşısını almaq üçün heç bir addım atmayıblar. Sadəcə missiyanın üzvlərinin sayı artırılaraq 200 nəfəri ötüb. Bu da Qərbin müəyyən maraqlarının göstəricisidir".

Deputat qeyd edib ki, sözügedən missiya regional sabitlik, habelə tərəflər arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsinə çevrilib. Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə hesablanmış "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ-nin diqqətinə çatdırılıb.

Sevinc Fətəliyevanın fikrincə, baş verənlər onu deməyə əsas verir ki, həqiqətən də, regionda belə bir missiyaya ehtiyac yoxdur. Çünki Azərbaycan və Ermənistan artıq birbaşa danışıqlara üstünlük verir. Eləcə də tərəflər arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə hökumət komissiyalarının birgə işi haqqında sənədin imzalanması Aİ missiyasının Ermənistanda mövcudluğunu davam etdirməsinə lüzum olmadığını göstərir. "Əldə edilən razılığa uyğun olaraq may ayında Qazaxın işğal altında olan 4 kəndi Azərbaycana qaytarılıb. Bütövlükdə, hazırda hər iki tərəf hansısa kənar vasitəçi olmadan sərhədlərin delimitasiya və demarkasiyası işlərini davam etdirirlər. Bu işlərin nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyənləşdirilib. Yaxın zamanda Avropa İttifaqının Ermənistandakı missiyasının müddəti bitəcək. Bəzi qüvvələr isə onun mandatının uzadılmasına çalışırlar", - deyə o əlavə edib.

Siyasətçi vurğulayıb ki, proseslər Azərbaycanla Ermənistan arasında məsələlərin həllində üçüncü qüvvələrə ehtiyac olmadığını göstərir. Bu baxımdan, Aİ-nin monitorinq missiyasına da hər hansı zərurət duyulmur.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Qərb Ermənistanı yeni savaşa təhrik edir

## Hayastan yenidən təxribatlara əl atarsa, böyük faciə ilə qarşılaşacaq



**"Tarixi Zəfərimizdən sonra Ermənistana sülh təklifinin edilməsi ölkəmizin humanist siyasətinin tərkib hissəsidir. Mənfur düşmən 30 il torpaqlarımızı işğal altında saxlayaraq, soydaşlarımızı qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum etmişdilər. Bu torpaqlarda bütün infrastruktur, tarixi və dini abidələrimiz dağıdılıb. Azərbaycanın sülh müqaviləsinin imzalanması təklifi bunları unutmaq anlamına gəlmir. Yeni dövrün reallıqlarına uyğun olaraq bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin yaradılması mütləqdir, ancaq rəsmi İrəvanın sözdə sülh tərəfdarı olmasından danışması imitasiyadan başqa bir şey deyil".**

"Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib ki, Ermənistanın hazırkı destruktiv mövqeyinin arxasında məhz Qərb dayanır. Ermənistanla sülh müqaviləsi layihəsi 17 maddədən ibarətdir, artıq 15 maddə razılaşdırılıb. İki maddə ilə bağlı isə işlər davam edir. Bu barədə xarici işlər naziri Ceyhun Bayramov da mətbuata açıqlamasında məlumat verib. Nazir bildirib ki, 17 maddə və preambuladan ibarət olan sülh müqaviləsi layihəsi preambula və 15 maddə üzrə demək olar tam razılaşdırılıb. İki maddə üzrə isə açıq suallar var. Hələ ki tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb, işlər davam edir. "Ceyhun Bayramov onu da qeyd edib ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. Bu yaxınlarda Ermənistan Konstitusiya Məhkəməsinin qərarı bu işi daha da mürəkkəbləşdirib. Çünki məhz Ermənistan Konstitusiyasının preambulasında Ermənistan müstəqillik əldə etdikdən sonrakı sənədə istinad var və orada Azərbaycana ərazi iddiaları mövcuddur", - deyə o bildirib.

K.Bayramov qeyd edib ki, Qərbin təhriki və dəstəyi ilə Ermənistanın silahlanması Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə, kövrək sülhün pozulmasına və yeni müharibənin başlanmasına səbəb olar. Göründüyü kimi, məğlub ölkə savaşa hazırlaşır. Fransa və Hindistanın verdiyi pulsuz silahlar, Yunanıstanın S-300 raket komplekslərini Ermənistana göndərmək niyyəti, adını "sülh fondu" qoyub Hayastana silah-sursat, hərbi texnikaların alınması üçün milyonlarla dollar ayıran Avropa İttifaqının "Avropa Sülh Fondu" Ermənistanı yenidən revanşist fikirlərə salıb. Bir tərəfdən, Fransa, digər tərəfdən, Avropa İttifaqının Ermənistanı silahlandırması bu qüvvələrin, əslində Qafqazda yeni münaqişə ocağının yaranmasında maraqlı olduqlarını bir daha göstərir. Qərb regionda çox təhlükəli strategiyasını həyata keçirmək planını yenidən işə salıb. Ermənistanın hücum təyinatlı silahlarla silahlandırılması gələcəkdə regionda münaqişənin yenidən alovlanmasını şərtləndirə bilər.

Deputat diqqətə çatdırıb ki, Azərbaycan bütün prosesləri izləyir və Ermənistanın silahlandırılması faktlarını görür: "Ölkəmizin yaratdığı yeni tarixi reallıqları qəbul etmək istəməyənlər vəziyyəti öz xeyirlərinə dəyişmək kimi çirkin və təhlükəli planları ilə regionu qarışdırıb "bulanıq suda balıq tutmağa" çalışırlar. Noyabrın 8-də Bakıda Zəfər parkının açılışında Müzəffər Ali Baş Komandan bir daha bu məsələdən danışaraq Ermənistana xəbərdarlıq etmişdi. Dövlət başçımız bildirmişdi ki, bu gün mövcud vəziyyətlə barışmaq istəməyən anti-Azərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər".

Deputat vurğulayıb ki, Ermənistan Qərbin planlaşdırdığı ssenariyə aldanaraq yenidən təxribatlara əl atarsa, sonu yaxşı olmayacaq. Çünki Azərbaycan Ermənistan tərəfindən hücuma məruz qalarsa, hərbi hədəflərin harada olmasına baxmayaraq, onu məhv edəcək. Ermənistan ərazilərindən ölkəmizə qarşı potensial təhlükə yaranarsa, təhlükəsizliyi təmin etmək tam hüququmuzdur.

***Ə.QABİLQIZI, "Azərbaycan"***

# ADA Universiteti hüquqşünaslıq üzrə magistr proqramını təqdim edir





**ADA Universiteti ixtisasları sırasına daha birini əlavə edərək hüquqşünaslıq üzrə magistr proqramını təqdim edir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanda hüquq təhsilinin inkişafında mühüm rol oynayacaq bu proqramın təqdimatını keçirmək, həmçinin ictimaiyyəti məlumatlandırmaq məqsədilə dekabrın 16-da açılış tədbiri keçirilib.

ADA Universitetinin akademik portfelində xüsusi yerə malik olacaq və hüquq təhsili sahəsində beynəlxalq standartlara cavab verəcək bu yeni proqramın təqdimatında çıxış edən bu ali təhsil ocağının Hüquq fakültəsinin dekanı Rəşad İbadov proqramın yenilikçi və müasir yanaşması, milli hüquq sisteminin inkişafına verə biləcəyi töhfələrdən danışıb.

Qeydiyyat və tələbə xidmətləri üzrə prorektor Günay Ziyadova çıxışında proqramın ADA Universitetinin təhsildə mükəmməllik missiyası ilə olan əlaqəsinə, akademik kurikulum vasitəsilə tələbələri yerli və beynəlxalq əmək bazarına hansı formada hazırlayacağına, eləcə də qəbul və seçim meyarlarına toxunub.

Hüquq fakültəsinin dekan müavini Cavid Qədirov yeni proqramın tədris planı, metodu və strukturundan, habelə müasir çağırışlara cavab verən hüquqşünaslar yetişdirmək üçün nəzərdə tutulan nəzəri və praktiki yanaşmasından söhbət açıb.

Akademik işlər üzrə prorektor Elkin Nurməmmədov proqramın hüquqi islahatları irəli aparmaq və karyera inkişafını dəstəkləmək kimi vacib ehtiyacları hansı formada qarşılayacağını açıqlayıb.

Daha sonra çıxış edən Azərbaycanın ədliyyə naziri və ADA Universitetinin Hüquq fakültəsinin müəllimi Fərid Əhmədov Azərbaycanın müasir hüquq sistemindəki islahatları və onların təhsil sisteminə müsbət təsirini vurğulayıb, təqdim edilən magistr proqramını ölkəmizdə beynəlxalq standartlarda hüquq təhsili vermək üçün atılan strateji addım kimi qiymətləndirib.

Tədbirdə yekun nitqlə çıxış edən rektor Hafiz Paşayev vurğulayıb ki, peşəkar hüquqşünaslara olan ehtiyacı nəzərə alan, müvafiq sahədəki boşluqları doldurmaq səylərini dəstəkləyən ADA Universiteti bu yeni proqramı yalnız akademik nailiyyət kimi deyil, Azərbaycanın və onun aid olduğu regionun hüquq sisteminin gələcəyinə edilən elmi investisiya kimi dəyərləndirir.

# 2024-cü ilin ən fəal sahibkarları mükafatlandırılıb






**Sahibkarların ölkə iqtisadiyyatına verdiyi töhfə nəzərə alınaraq, artıq 3 ildir ki, biznes nümayəndələrinə "Dayaq" mükafatı təqdim edilir.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2022-ci ildə təsis edilmiş "Dayaq" mükafatının məqsədi biznesində innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsal edən, aktiv investisiya fəaliyyəti ilə seçilən, məşğulluğun təmin edilməsinə öz töhfəsini verən şirkətləri mükafatlandırmaqla onları stimullaşdırmaq, eləcə də sahibkarların qazandıqları uğurları ictimaiyyətin diqqətinə çatdırmaq, biznes düşüncə tərzini təşviq etmək, dövlət və özəl sektor arasında əlaqələri daha da möhkəmləndirməkdir. Rəmzi məna daşıyan "Dayaq" mükafatı həm də dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir.

AZƏRTAC xəbər verir ki, 2024-cü il üzrə "Dayaq" mükafatının sahibkarlara təqdim edilməsi üçün İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA-nın təşkilatçılığı ilə tədbir keçirilib. Dövlət qurumlarının nümayəndələrinin, millət vəkillərinin, sahibkarların, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev 2024-cü il ərzində ölkəmizdə sosial-iqtisadi sahədə, özəl bölmədə əldə olunmuş uğurlar, sahibkarların məşğulluğun təmin olunmasında rolu, növbəti illərdə iqtisadiyyat və sahibkarlıq sahəsində yeniliklər barədə məlumat veriblər. Milli Məclisin deputatı Nigar Arpadarai, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov isə çıxışlarında sahibkarlıq sahəsində qanunvericilik təşəbbüsləri, KOB-ların dayanıqlı və davamlı iqtisadi inkişafda, "yaşıl keçid"də rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirlərini bölüşüblər.

Sonra 2024-cü ildə uğur qazanmış 15 sahibkarlıq subyektinə dövlət qurumlarının rəhbər şəxsləri tərəfindən müxtəlif nominasiyalar üzrə "Dayaq" mükafatları təqdim edilib. Sahibkarlar "Turizm", "Fəal xarici şirkət", "Fəal ixracatçı şirkət", "Uğurlu fermer", "Gənc sahibkar", "Uğurlu qadın sahibkar", "İlin investoru", "Əlillik məhdudiyyət deyil", "İnnovativ həllər", "Uğurlu startap", "Naxçıvan Muxtar Respublikasında uğurlu şirkət", "Halal biznes", "Azad olunmuş ərazilərdə uğurlu biznes", "Yaşıl biznesin təşviqi" və "Təmiz ətraf mühit və yaşıl artım" nominasiyaları üzrə mükafatlandırılıblar.

Həmçinin KOBİA tərəfindən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi "Bakı KOB evi"ndə "G2B xidmətlərinin səmərəli təşkili" nominasiyası üzrə mükafata layiq görülüb.

Tədbir çərçivəsində KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsi məqsədilə KOBİA tərəfindən elan edilmiş 6-cı qrant müsabiqəsinin 20 qalibinə qrant mükafatları təqdim olunub. Qeyd edək ki, KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsinə dəstək məqsədilə indiyədək 6 qrant müsabiqəsi keçirilib və bu müsabiqələr çərçivəsində KOB-ların 99 layihəsinə 1,7 milyon manat həcmində qrant vəsaiti ayrılıb.

# *İcma:* ABŞ səfirliyi yaydığı açıqlama ilə ictimaiyyəti yanıltmağa cəhd edib

**ABŞ-nin Bakıdakı səfirliyi Ermənistanda Azərbaycan xalqının mədəni irsinin qorunması ilə bağlı Vaşinqtonun mümkün addımlarına dair Azərbaycan mediasının sualına cavab verməyib, sadəcə, bu ölkənin işğaldan azad edilmiş ərazilərimizdə hansısa layihələr təklif etdiyini xatırlatmaqla kifayətlənib. Bu azmış kimi, ABŞ səfirliyi yaydığı açıqlama ilə ictimaiyyəti yanıltmağa cəhd edib.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: "Hesab edirik ki, səfirlik özünün cavabının tonu ilə, o cümlədən media subyektlərinin sualını "aldadıcı" kimi dəyərləndirməklə ABŞ-nin hər zaman vurğuladığı "söz azadlığı", "fikir müxtəlifliyi" prinsiplərinə, əslində, necə "hörmət bəslədiyi"ni nümayiş etdirib.

Qərbi Azərbaycan İcması olaraq ABŞ-nin Ermənistandan zorla çıxarılmış azərbaycanlıların məsələsini, o cümlədən onların mədəni irsinin Ermənistan tərəfindən dağıdılmasını görməzdən gəlməsini təəssüf hissilə qeyd edirik. Qayıdış hüququmuzun dəstəklənməsi xahişi ilə hələ ötən ilin aprelində ABŞ Dövlət katibi Entoni Blinkenə göndərdiyimiz məktuba bu günədək cavab verilməyib. Halbuki ötən dövr ərzində ABŞ hökuməti "insan hüquqları" adı altında bir sıra uydurma məsələləri dəfələrlə gündəmə gətirib. Hamıya məlumdur ki, ABŞ-nin hazırkı administrasiyası "insan hüquqları" və "mədəni irs" mövzularını yalnız Azərbaycana qarşı saxta ittihamlar irəli sürmək lazım gəldikdə xatırlayır.

ABŞ-nin hazırkı administrasiyasının azərbaycanlılara qarşı nümayiş etdirdiyi irqi ayrı-seçkiliyi qətiyyətlə qınayır və qərəzli siyasətinə heç olmasa səlahiyyət müddətinin bitməsinə az qalmış son verməyə, o cümlədən Dövlət katibi Entoni Blinkeni göndərdiyimiz məktuba cavab verməyə çağırırıq. Bundan əlavə, biz regional məsələlərə dair müxtəlif birtərəfli dinləmələr təşkil edən ABŞ Senatı, Konqresin Tom Lantos adına İnsan Hüquqları Komissiyası, Dini Azadlıq Komissiyası kimi qurumlarının növbəti dinləmələrində Qərbi Azərbaycan İcmasının da iştirakının təmin olunacağına dair gözləntimizi ifadə edirik".

# Azərbaycan məhsulları Türkiyə bazarında daha geniş təmsil olunacaq

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalı ilə Türkiyənin İstanbul şəhərində yerləşən "Tradexter Global" şirkəti arasında anlaşma memorandumu imzalanıb. Sənədə əsasən, tərəflər Azərbaycanda istehsal olunan malların Türkiyə bazarına çıxarılmasında birgə əməkdaşlıq edəcəklər.**

"Azexport" portalının rəhbəri Ayxan Qədəşov bildirib ki, Türkiyə bazarı Azərbaycan məhsullarının diversifikasiyası üçün ciddi əhəmiyyətə malikdir: "İl ərzində Türkiyəyə 55 milyondan artıq xarici turist səfər edir. Belə böyük ziyarətçi kütləsi olan bazarda daha geniş təmsil olunmağın ciddi əhəmiyyəti var. Bu ziyarətçilər arasında Azərbaycan mallarının potensial müştəriləri olan iri beynəlxalq topdansatış şəbəkələrinin nümayəndələri, həmçinin yeni məhsul axtarışında olan iş adamları da olur. Bu baxımdan, Azərbaycan məhsullarının Türkiyədə daha geniş təmsil edilməsi türk dövlətləri arasında ticarət əlaqələrinin daha da artması ilə yanaşı, həm də məhsullarımızın beynəlxalq səviyyədə tanınmasında ciddi əhəmiyyətə malikdir".

"Tradexter Global" şirkətinin baş icraçı direktoru Güclü İlalmak da Azərbaycanda istehsal olunan məhsullara Türkiyə bazarında tələbatın çox olduğundan danışıb: "Biz eyni tarixi köklərə, adət ənənələrə bağlı, eyni coğrafiyadan olan insanlarıq. Bu, bizim ağız dadımızın, qida seçimlərimizin bənzərliyi ilə də tamamlanır. Şirkətimiz Azərbaycanda istehsal olunan malların Türkiyə bazarına çıxarılmasını yerli şirkətlərlə birgə yaxından işləyəcək. Bu proses tək fiziki mağazalar yox, həm də e-ticarət şəbəkələri üzərindən həyata keçiriləcək. Biz artıq "Azexport" platformasında mövcud olan Azərbaycan məhsullarının kataloqları ilə tanış olmuşuq. Hazırda məhsulların seçilməsi və şirkətlərlə görüşlərin keçirilməsi istiqamətində işlər davam edir. Əməkdaşlığımızın uğurlu olacağına inanırıq".

Qeyd edək ki, Türkiyə bazarında yerləşən e-ticarət platformaları və market şəbəkələrində təmsil olunmaq istəyən sahibkarlar "Azexport" portalı vasitəsilə müraciət edə bilərlər. Portal tərəfindən göstərilən xidmətlərə görə faiz və ya komissiya nəzərdə tutulmayıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi cari ilin 10 ayında qeyri-neft-qaz məhsullarının ixracı barədə statistik məlumatları da açıqlayıb. Bildirilir ki, cari ilin yanvar-oktyabr ayları ərzində Azərbaycandan ixrac edilən qeyri-neft-qaz məhsullarının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artaraq 2,8 milyard dollar olub. Sözügedən dövr ərzində yeyinti məhsullarının dəyəri isə 13,6 faiz artaraq 803,1 milyon dollara çatıb. Bunlardan əlavə, şəkərdən hazırlanan qənnadı məhsullarının dəyəri 61,8, pambıq lifi 63,9, bitki-mənşəli yağlar və piylər 29,4, kimya sənayesi məhsulları 18,6, spirtli və spirtsiz içkilərin ixracı 15,8 faiz artıb. Hesabat dövründə aqrar məhsullarda 5,7, aqrar-sənaye məhsullarında 60,3 faiz artım olub. Bütövlükdə aqrar və aqrarsənaye məhsullarının birgə ixracı 17,8 faiz artıb.

İlin 10 ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, pambıq mahlıcı ikinci, tomat üçüncü olub. Həmin dövrdə ən çox Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, ABŞ-yə qeyri-neft sektoruna aid məhsul ixrac edilib.

Yeni növ ixrac hesab edilən peyk telekommunikasiya xidmətləri ixracın şaxələnməsi istiqamətində mühüm rola malikdir. Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 50 ölkəsinə 15,4 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 74 faizini təşkil edib. Cari ilin oktyabr ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,6 milyon dollar dəyərində xidmət göstərib. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Pakistan və Türkiyə olub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Əqli Mülkiyyət Agentliyində ÜƏMT-nin departament direktoru ilə görüş keçirilib

**Dekabrın 16-da Əqli Mülkiyyət Agentliyində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Regional və milli inkişaf sektorunun Keçid və inkişaf etmiş dövlətlər departamentinin direktoru Habip Asanla görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Azərbaycanda əqli mülkiyyət sisteminin nailiyyətləri və qarşısında duran vəzifələr haqqında məlumat verib.

ÜƏMT-nin departament direktoru Habip Asan Azərbaycan ilə ÜƏMT arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib. Eyni zamanda bu əlaqələrin daha da inkişaf etdirilməsinin və yeni layihələrin həyata keçirilməsinin mümkünlüyünü diqqətə çatdırıb. Qonaq həmçinin Azərbaycanda Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini, əqli mülkiyyət məsələləri ilə vahid qurumun məşğul olmasını müsbət qiymətləndirib.

Daha sonra Kamran İmanov Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti haqqında təqdimat edib. Təqdimatda qeyd olunub ki, Azərbaycanın əqli mülkiyyət idarəetmə sisteminin qarşısında duran vəzifələr strateji sənədlərdə öz əksini tapır. Həmin sənədlərdə əqli mülkiyyətin üstünlük təşkil etdiyi kreativ iqtisadiyyatın dəstəklənməsi və inkişaf etdirilməsi, yaradıcı sahibkarlar və mütəxəssislərlə müasir rəqəmsal texnologiyalar arasında əməkdaşlığın gücləndirilməsi, eləcə də peşəkar kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi zərurəti göstərilir.

Agentliyin rəhbəri bildirib ki, əqli mülkiyyətin ekosistemi qurularaq, ölkəmizdəki islahatların əqli mülkiyyətlə əlaqəli təsiri və əqli mülkiyyətin dəyişmiş, yenidən dərk edilən kontekst amilləri nəzərə alınıb.

"Əqli mülkiyyət qarşısında duran vəzifələr dövlətimizin başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə formalaşdırılıb. Bununla da əqli mülkiyyət bu siyasətin təsirinə və innovativ inkişafına adekvat xidmət etməli, investisiyaların cəlb edilməsində və innovasiyalara dəstək verilməsində real aktora çevrilməli, öz-özlüyündə abstrakt xidmətin vasitəsindən sosial-iqtisadi uğurların aparıcı amillər sırasında öz yerini tutmalıdır", - deyə Kamran İmanov qeyd edib.

Agentliyin rəhbəri bildirib ki, ümumi struktur transaksiya xərcləri nəzərə alınması ilə optimallaşdırılıb. Qeyd edib ki, agentliyin fəaliyyətinin son məhsulu əqli fəaliyyətin nəticələrinə qorunan obyektlər statusunun və ya onların qorunma müddətinin uzadılması (sənaye mülkiyyəti), habelə qanunla qorunan əqli fəaliyyətin nəticələrini dəstəkləmək üçün hüquqi əhəmiyyətli qərarların verilməsidir. Agentliyin son məhsuluna, bundan savayı əqli mülkiyyət hüquqlarının qorunma sənədlərinin və qəbul edilən göstəricilər vasitəsilə iqtisadi təsirinin təhlili və sosiomədəni effektinin müəyyən edilməsi də daxildir.

Kamran İmanov həmçinin qeyd edib ki, kreativ sənayenin ölkəmizdə ÜDM-dəki payı 5,2 faizdir.

Diqqətə çatdırılıb ki, əqli mülkiyyət obyektlərinə iddia sənədlərinin ekspertiza müddəti orta hesabla 30-50 faiz qısaldılıb. Bakı Dövlət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universitetində əqli mülkiyyət kafedraları yaradılıb, filialları Əqli Mülkiyyət Agentliyində fəaliyyət göstərir. Agentliyin əməkdaşları tədris prosesinə cəlb edilib.

Qeyd olunub ki, patent sahəsində ixtiraçıların və sahibkarlıq subyektlərinin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi məqsədilə sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı üçün iddia sənədlərinin qəbulu Əqli Mülkiyyət Agentliyində yaradılan "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi vasitəsilə həyata keçirilir. PƏNAH rəqəmli sistemi 24/7 rejimində fəaliyyət göstərir və qeydiyyatın istənilən yerdən və istənilən vaxt təşkilidir.

Görüşdə ÜƏMT-nin departament direktoru Habip Asan Əqli Mülkiyyət Agentliyində proseslərin rəqəmsallaşdırılmasının kifayət qədər maraqlı olduğunu söyləyib. O, agentliyin universitetlərlə əməkdaşlığını, kafedraların yaradılmasını mütəxəssis hazırlığı baxımından yüksək qiymətləndirib. ÜƏMT rəsmisi agentliyin transaksiya xərclərinin azaldılması ideyasını təqdir edib. Həmçinin agentliyin rəhbəri Kamran İmanovun əqli mülkiyyət hüquqlarının daha sərt qorunması fikri ilə razılaşdığını bildirib. ÜƏMT-nin departament direktoru əqli mülkiyyətin qorunmasında Azərbaycan modelini yüksək qiymətləndirib, bu modelin təbliğ edilməsinin vacibliyini söyləyib. Bununla yanaşı, Azərbaycan modelinin ölkənin iqtisadi inkişafı, iqtisadiyyatın şaxələndirilməsinə uyğun olduğunu söyləyib.

Görüşdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə ÜƏMT arasında əməkdaşlıq məsələləri müzakirə edilib.




# Müstəqil siyasətin uğurları

## Tarazlı diplomatiya, milli maraqların qorunması, regional əməkdaşlığın genişləndirilməsi

**Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış ölkəmizin uğurlarının təməlində onun həyata keçirdiyi müstəqil siyasət durur. Azərbaycanın müstəqil siyasəti, ölkənin milli maraqlarını qorumaq və beynəlxalq arenada suverenliyini möhkəmləndirmək məqsədilə reallaşdırılan strateji yanaşmaların əsasını təşkil edir. Bu siyasət Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin daxili və xarici siyasətində mühüm istiqamət olmuşdur. Hazırda 21 ildir ki, Prezident İlham Əliyev eyni yanaşmanı uğurla davam etdirməkdədir.**

### Əsas prinsiplər

Azərbaycanın müstəqil siyasətinin əsas prinsipləri arasında tarazlı diplomatiya, beynəlxalq hüquq normalarına riayət, milli maraqların qorunması və regional əməkdaşlığın təşviqi önəmli yer tutur. Ölkəmiz bu prinsipləri rəhbər tutaraq həm regional, həm də qlobal miqyasda strateji tərəfdaşlıqlar qurur və öz mövqeyini daha da möhkəmləndirir.

Bu prinsiplərin hər birinə ayrı-ayrılıqda qısaca nəzər salsaq görərik ki, dövlətimiz tarazlı diplomatiya davranışına sadiq qalaraq, müxtəlif geosiyasi bloklar arasında balansı qorumaqla həm regional, həm də beynəlxalq miqyasda sabitlik və əməkdaşlıq mühitini təmin edir. Azərbaycan Rusiya, Türkiyə, Gürcüstan, İran kimi qonşu dövlətlərlə, həm də Qərb ölkələri və beynəlxalq təşkilatlarla, o cümlədən Qoşulmama Hərəkatı, Avropa İttifaqı, NATO ilə əməkdaşlıq edir. Bu yanaşma dövlətin xarici siyasətində riskləri azaltmağa və müxtəlif tərəfdaşlarla faydalı əlaqələr qurmağa imkan verir. Məsələn, Azərbaycan enerji siyasətində həm Avropa bazarlarını qazla təmin edir, həm də Rusiya və İranla konstruktiv münasibətləri qoruyur.

Qeyd edildiyi kimi, Azərbaycanın müstəqil siyasəti beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Ölkə öz suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün hər zaman beynəlxalq hüququn qaydalarına, nizamına əsaslanır. Bu yanaşmaya ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması üçün aparılan uzunmüddətli proseslər kontekstində də hər kəs şahidlik edir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq öz torpaqlarını işğaldan azad etdi, ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsinə nail oldu. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində də beynəlxalq hüququn tətbiqini təşviq edir, yüksək səviyyədə ədalətin təmin olunmasını dəstəkləyir.

Milli maraqların qorunması isə ölkəmizin müstəqil siyasətinin mərkəzində durur. Bu prinsiplə dövlətimiz öz enerji resurslarından, iqtisadi potensialından və strateji mövqeyindən istifadə edərək daxili sabitlik və rifahı təmin etməyə çalışır. Azərbaycan beynəlxalq layihələrdə iştirak edərək milli maraqlarına prioritet verir. Belə ki, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Qars layihələri Azərbaycanın enerji və nəqliyyat sahəsindəki maraqlarını təmin etməklə yanaşı, ölkənin bütün dünyada nüfuzunu artırır. Dövlətimiz həmçinin diaspor siyasəti ilə milli maraqları beynəlxalq səviyyədə müdafiə edir.

### Regional əməkdaşlığa töhfə

Azərbaycan regional əməkdaşlığa da xüsusi diqqət yetirir. Cənubi Qafqazda əsas aktor kimi regionun iqtisadi inkişafına və təhlükəsizliyinə töhfə verir. Enerji və nəqliyyat sahəsində bir sıra təşəbbüslər Azərbaycanı regional əməkdaşlıq üçün vacib mərkəzə çevirib. Ölkəmiz enerji resurslarından istifadə edərək əməkdaşlığı təşviq edən əsas dövlətlərdən biridir. "Cənub qaz dəhlizi" layihəsi bunun parlaq nümunələrindəndir. Bu layihə Azərbaycanı Avropanın enerji təhlükəsizliyində əsas tərəfdaşlardan birinə çevirib. Azərbaycan qazını Türkiyə və Avropa bazarlarına çatdırır, enerji ehtiyatlarının şaxələndirilməsini təmin edir. Bakı-Tbilisi-Ceyhan boru kəməri də regionun neft ixracı üçün əsas marşrutlarındandır. Bu isə ilk növbədə Gürcüstan və Türkiyə ilə sıx əməkdaşlığı, iqtisadi inteqrasiyanı gücləndirir. Eləcə də Bakı-Tbilisi-Ərzurum kəməri Azərbaycanın təbii qazını qonşu ölkələrə ixrac edir, regionun enerji təminatını möhkəmləndirir və iqtisadi əlaqələri genişləndirir.

Azərbaycanın geosiyasi mövqeyi ölkəmizi beynəlxalq nəqliyyat dəhlizlərinin də mərkəzinə çevirib. Buna nümunə kimi Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığı son illərdə daha da dərinləşdirib. Bu dəmir yolu Asiya ilə Avropa arasında yükdaşımaların əsas marşrutlarından biridir və ticarətin sürətlənməsinə xidmət edir. "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsi isə Azərbaycanı Rusiya, İran və Hindistanla birləşdirir. Şimal-Cənub dəhlizi həm də Asiya və Avropa arasında ticarət axınını artırır, regionda iqtisadi əlaqələri möhkəmləndirir. "Şərq-Qərb" nəqliyyat dəhlizi layihəsi isə Çin, Mərkəzi Asiya və Avropanı birləşdirərək o da ticarət və nəqliyyat sahəsində əməkdaşlığı gücləndirir.

Azərbaycan regionda sabitliyin təmin edilməsinə töhfə vermək üçün təhlükəsizlik sahəsində əməkdaşlığı dəstəkləyir. Vətən müharibəsindəki tarixi qələbəmizdən, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycanın təşəbbüsü ilə əbədi sülh və əməkdaşlıq, yeni nəqliyyat marşrutlarının açılması, sərhədlərin delimitasiyası kimi məsələlər gündəmə gəlib. Bu proses regional sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə bu platformadan istifadə edərək qlobal təhlükəsizlik məsələlərində mühüm təşəbbüslər irəli sürüb və onların reallaşdırılmasına əhəmiyyətli şəkildə nail ola bilib. Ölkəmiz terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizədə də yüksək fəallıq göstərir, bölgədə təhlükəsizliyin təmin olunması üçün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri qurur.

Azərbaycan mədəniyyət diplomatiyasının gücündən faydalanmaqla, mədəniyyətlərarası dialoqu təşviq etməklə də regional əməkdaşlığa töhfə verir. Bakı Humanitar Forumu və Mədəniyyətlərarası Dialoq Forumu kimi tədbirlər mədəniyyətlər arasında qarşılıqlı əlaqələri möhkəmləndirməklə Azərbaycanın regionda mədəni körpü kimi rolunu gücləndirir.

Mühüm strateji mövqeyə, zəngin təbii sərvətlərə, böyük inkişaf potensialına görə tanınan Azərbaycanı dünyanın böyük bir hissəsi indi həm də zəngin mədəniyyətimizlə kəşf etməyə başlayıb. Bu layihələrin hər biri ölkəmizin imicini daha da yüksəldir. Azərbaycanlıları sivil, qədim mədəniyyətə malik xalq kimi dünyaya təqdim edir. Min illər bu torpaqlarda yaradılan və nəsillərdən-nəsillərə mənəvi miras kimi keçən misilsiz mədəniyyət incilərimizi bəşəriyyətə sərgiləyir. Mədəniyyətlər arasında dialoq, tolerantlılıq, multikulturalizm çağırışları ilə Azərbaycanın tutduğu yolu, ümumbəşəri dəyərlərə bağlılığını, yüksək amallarını göstərir.

Heydər Əliyev Fondunun silsilə tədbirləri, xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri, Üzeyir bəy Hacıbəyli, Rostropoviç, Qəbələ Beynəlxalq Musiqi festivalları, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Bakı Caz Festivalı, görkəmli mədəniyyət xadimlərinin yubileyləri ölkəmizin getdikcə artan nüfuzu və potensialının mədəniyyət sahəsindəki göstəricisidir. Bütün bunlar hazırda Azərbaycanı dünyanın əsas musiqi mərkəzlərindən birinə çevirmişdir.

Son illər Qarabağda, Naxçıvan, Qəbələ, Şəki, İsmayıllı, Lənkəran və digər şəhər-rayonlarda keçirilən tədbirlər həm bölgələrin mədəni irsinin, həm də turizm potensialının yerli və beynəlxalq ictimaiyyətə tanıdılması baxımından əhəmiyyətlidir.

Ölkəmiz Türk Dövlətləri Təşkilatının ən fəal üzvlərindən biri olaraq bu təşkilat çərçivəsində də türk dövlətləri arasında mədəni və iqtisadi əlaqələri inkişaf etdirir. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də müsəlman ölkələri arasında humanitar və mədəni layihələrdə yüksək fəallıq göstərir.

Multilateral əməkdaşlıq platformalarının aktiv təmsilçisi kimi Azərbaycan müxtəlif beynəlxalq təşkilatlar vasitəsilə də qarşılıqlı əlaqələrin güclənməsinə liderlik edir. Ölkəmizin əməkdaşlıq təşəbbüsləri, iqtisadi və strateji maraqlarımızı təmin etməklə yanaşı, regionda sabitlik və inkişaf üçün möhkəm baza yaradır. Enerji, nəqliyyat, təhlükəsizlik və mədəniyyət sahələrində həyata keçirilən layihələr Azərbaycanın rolunu gücləndirir və qonşuları ilə əlaqələrini möhkəmləndirir. Bu siyasət ölkənin beynəlxalq miqyasda nüfuzunu daha da artırır və davamlı inkişafa geniş şərait yaradır.

Azərbaycanın əsas götürdüyü prinsiplər ölkəmizin müstəqil siyasətinin dayanıqlığını və effektivliyini təmin edir. Tarazlı diplomatiya riskləri azaldır, beynəlxalq hüquq normalarına riayət ədaləti qoruyur, milli maraqların mühafizəsi isə ölkənin inkişafına xidmət edir. Regional əməkdaşlıq prinsipi isə ölkəmizin beynəlxalq təsirini artıraraq həm qonşuları, həm də qlobal tərəfdaşları ilə əlaqələrini gücləndirir. Bu yanaşmalar bir yerdə Azərbaycanın suverenliyini və müstəqilliyini gücləndirən əsas faktorlardandır.

Müstəqil siyasət, milli maraqları qorumaq üçün həm strateji mövqeləri gücləndirir, həm də ölkənin daxili sabitliyinə və iqtisadi inkişafına xidmət edir.

### Sabitlik, inkişaf, rifah

Ölkəmiz daxili siyasətində tam müstəqildir və hər hansı kənar qüvvələrin inkişaf proseslərinə müdaxilə etməsinə imkan vermir. Ümumilikdə, Azərbaycan bütün kənar güclərin Cənubi Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlıq və inkişaf mühitinə təhdid yaradan addımlarına qarşıdır.

Azərbaycanın müstəqil daxili siyasəti milli maraqlara əsaslanaraq ölkənin sosial, iqtisadi, siyasi və mədəni inkişafını təmin etmək məqsədini güdür. Bu siyasət dövlət idarəetmə sistemini möhkəmləndirmək, əhalinin rifahını yüksəltmək, milli birliyi təmin etmək və müasir dövrün tələblərinə cavab verən islahatları həyata keçirmək istiqamətində həyata keçirilir.

Ölkənin müstəqil daxili siyasətində sabitliyin təmin olunması prioritet məsələdir. Bu ilk növbədə demokratik idarəetməyə əsaslanır. Respublikada qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin müstəqilliyi prinsipi əsasında idarəetmə sistemi qurulub. Elektron xidmətlərin tətbiqi dövlət idarəçiliyində effektivliyi artırır və vətəndaşlara xidmətləri asanlaşdırır. Azərbaycan vətəndaş cəmiyyəti institutlarının inkişafını dəstəkləməklə demokratik idarəetmə modelini gücləndirir. Dövlət müxtəlif etnik və dini qrupların sülh şəraitində birgə yaşamasını təmin edir. Multikulturalizm və tolerantlıq dövlət siyasətinin əsas elementlərindən birinə çevrilib.

Ölkəmizin daxili siyasətində əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah səviyyəsinin artırılması da mühüm yer tutur. Əhalinin aztəminatlı təbəqəsinin müdafiəsi üçün dövlət tərəfindən müavinətlər, pensiyalar və sosial yardımlar artırılır. İşsizliyin azaldılması məqsədilə yeni iş yerlərinin açılması və gənclər üçün məşğulluğun artırılması məqsədilə müxtəlif proqramlar həyata keçirilir. Ölkənin səhiyyə və təhsil sistemi inkişaf etdirilir. Xüsusilə ümumi icbari tibbi sığorta sisteminin tətbiqi əhalinin sağlamlıq xidmətlərinə çıxışını son illər xeyli dərəcədə yaxşılaşdırmışdır. Azərbaycanın iqtisadi siyasəti milli iqtisadiyyatın dayanıqlılığını və rəqabətqabiliyyətliliyini təmin edir. Ölkədə qeyri-neft sektorunun inkişafı prioritet məsələlərdəndir. Kənd təsərrüfatı, turizm, rəqəmsal inkişaf və sənaye kimi sahələrdə genişmiqyaslı layihələr həyata keçirilir.

Dövlət regionların balanslı inkişafını təmin etmək üçün müxtəlif proqramlar icra edir. İnfrastruktur layihələri, kənd yerlərində kiçik və orta sahibkarlığın təşviqi bu istiqamətdə mühüm addımlardandır.

Azərbaycanda sahibkarlığın inkişafı üçün qanunvericilik sadələşdirilir, vergi yükü azaldılır və investisiyalar təşviq edilir. İnnovativ texnologiyalar və startapların təşviqi ölkənin iqtisadiyyatında yeni imkanlar yaradır.

Azərbaycanın müstəqil daxili siyasəti qanunların aliliyini və ədalətli idarəetməni təmin etmək məqsədilə hüquqi dövlət quruculuğunu dəstəkləyir. İnsan hüquq və azadlıqlarının qorunması, məhkəmə sisteminin şəffaflaşdırılması və ədalət sisteminin gücləndirilməsi istiqamətində islahatlar həyata keçirilir. Dövlət idarəçiliyində şəffaflıq təmin edilir, korrupsiyaya qarşı mübarizə üzrə xüsusi proqramlar tətbiq olunur.

Azərbaycanın mədəni irsinin qorunması və milli dəyərlərin təşviqi də daxili siyasətin üstün istiqamətlərindəndir. Ölkədə müxtəlif mədəniyyətlər və dinlər arasında dialoq təşviq edilir, milli irsin qorunması üçün tədbirlər görülür. Gənclərin milli dəyərlər əsasında yetişməsi və təhsilə, mədəniyyətə marağın artırılması üçün dövlət proqramları reallaşdırılır.

Dövlətimizin həyata keçirdiyi daxili siyasətində ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilir. Bərpaolunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, meşələrin bərpası və ətraf mühitin qorunması üzrə layihələr mühüm rol oynayır. Eləcə də su ehtiyatlarının qorunması və onlardan səmərəli istifadə üçün tədbirlər görülür.

Azərbaycanın müstəqil daxili siyasəti milli maraqlar əsasında qurulmuş strategiyadır. Bu siyasət ölkənin hərtərəfli inkişafını təmin etməklə yanaşı, vətəndaşların rifahını yüksəldir və dövlət idarəetməsini müasir dövrün tələblərinə uyğunlaşdırır. Eyni zamanda sabitliyin və inkişafın təmin olunması üçün strateji və məqsədyönlü yanaşmaları özündə birləşdirir.

Beləliklə, Azərbaycanın suverenliyi və müstəqilliyi, dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasət milli kimliyimizin əsas sütunudur və bu dəyərlər gələcəkdə də qorunaraq inkişaf etdiriləcəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qərb Gürcüstanda məğlub oldu



**Cənubi Qafqazı təsir dairəsinə salmaq bölgədə marağı olan Qərbin çoxdankı istəyidir. Müəyyən dövrlərdə Gürcüstan üzərindən qismən buna müvəffəq də olub. Qafqazın digər ölkəsi Ermənistanın isə hazırda da Qərbin forpostu olduğu danılmaz faktdır.**

Son dövrlərdə ABŞ və Avropa İttifaqı Gürcüstanda mövqeyini möhkəmləndirmək üçün bütün rıçaqlarını işə saldı, ələ aldığı QHT və KİV vasitəsilə çaxnaşmalar yaratmaqdan tutmuş, bu ölkəyə sanksiyaların tətbiqinə, siyasi təzyiqlərə qədər hər şeydən istifadə etməyə başladı. Bir sözlə, Qərb "rəngli inqilab" adı altında yenidən gürcü xalqını qara günə qoymağa çalışdı, amma Gürcüstanda ard-arda baş verən siyasi proseslər nəticəsində bu ölkədəki dayaqlarını itirdi, konkret olaraq məğlub oldu.

### Cənubi Qafqazda Ukrayna ssenarisi fiaskoya uğradı

Gürcü xalqının istəyinin təzahürü olaraq "Gürcü arzusu" Partiyasının hakim mövqeyini qoruyub saxlaması, həmçinin Mixeil Kavelaşvilinin dekabrın 14-də keçirilən seçkilərdə qalib gələrək Gürcüstan Prezidenti seçilməsi ölkədəki son proseslər fonunda mühüm siyasi hadisədir. Gürcüstan Qərbin planlaşdırdığı kimi, vətəndaş müharibəsinə, savaş meydanına çevrilmədi. Çünki Ukraynadan sonra Qərb dairələrinin Rusiyaya ikinci müharibə cəbhəsi açmaq ssenarisini məhz Gürcüstanda həyata keçirmək istəyi gün kimi ortada idi.

Hələ 2004-cü ildə Qərb "demokratiya" adı altında bu ölkədə Gürcüstanın ərazilərinin itkisi kimi faciəvi hala gətirib çıxaracaq "rəngli inqilab" həyata keçirmişdi. Eyni zamanda Qərbin Saakaşviliyə yalan vədlər verərək onu 2008-ci ildə Rusiya ilə qarşıdurmaya sürükləməsi nəticəsində Gürcüstan Cənubi Osetiya və Abxaziyanı itirdi. Qərb Gürcüstanın arxasında dayanmadı, onu taleyi ilə baş-başa buraxdı. Tanış ssenarini hazırda Ukraynanın timsalında da izləyirik. Qərbin avantürası ilə müharibəyə sürüklənən Ukraynanın acınacaqlı vəziyyəti göz qabağındadır.

Son zamanlar Qərb Gürcüstanda da bu təhlükəli planını gerçəkləşdirməyə cəhd edirdi. QHT, KİV və digər təsirində olan təşkilat və media, "qrant agenturası" vasitəsilə qızışdırıcı ritorika həyata keçirir, Gürcüstanı daxildən parçalamağa cəhd edirdi.

Ancaq Gürcüstanın hazırkı hakimiyyəti siyasi iradə nümayiş etdirərək ölkəsinin, xalqının taleyi naminə Qərbə qarşı dirənc göstərməyi bacardı. Açıq mövqe ortaya qoyaraq nümayiş etdirdi ki, Gürcüstan Qərbin dağıdıcı maraqlarına xidmət etməyəcək və öz yolu ilə irəliləyəcək.

Bu ölkənin 6-cı Prezidenti seçilmiş Mixeil Kavelaşvili də ötən bazar "İmedi" telekanalına verdiyi müsahibəsində bununla bağlı aydın mesajlarını çatdırıb. Onun sözlərinə görə, Gürcüstan hakimiyyəti istənilən məsələ ilə bağlı müzakirələrə açıqdır, lakin Qərbdən müzakirə aparmaq üçün heç bir qarşılıqlı istək yoxdur, sadəcə tənqid var: "Əgər bizim dəyərlərimiz və xarakterimiz, mədəniyyətimiz, dilimiz, inancımız, vətəni müdafiəmiz olmasaydı, hansısa təşkilata qoşulmağın nə mənası olardı? Biz Avropa İttifaqına olduğumuz kimi üzv olmaq istəyirik, inteqrasiyadan imtina etmirik".

Ancaq bütün bunlar Qərbə sərf etmədiyi üçün Gürcüstanı qara siyahısına salıb və hələ də ona qarşı təzyiq mexanizmindən əl çəkməyib.

### Regionun taleyi Azərbaycan və Gürcüstandan asılıdır

Cənubi Qafqaza sahiblənmək istəyən Qərb zaman-zaman Azərbaycanda da digər ölkələrdəki kimi ələ aldığı "qrant agenturası" vasitəsilə "rəngli inqilab"lara, yəni vətəndaş qarşıdurmasına, çevrilişə nail olmağa çalışıb. Amma xalqla iqtidarın birliyi Qərb maşalarının xain cəhdlərinin qarşısını qətiyyətlə alıb. Onu da vurğulayaq ki, 2020-ci ildəki 44 günlük müharibədən və antiterror tədbirlərindən sonra regiondan qovulan Qərb yenidən bura qayıtmaq üçün Gürcüstana fokuslanmışdı. Lakin ABŞ və Avropa Birliyinin istəyinə zidd olaraq hadisələr fərqli yöndə inkişaf etdi və gürcü xalqı hakim partiyanı dəstəkləyərək ölkənin müqəddəratını müəyyənləşdirməyi bacardı.

Azərbaycan hazırkı Gürcüstan hakimiyyəti ilə uğurlu əməkdaşlığa malikdir. Prezident İlham Əliyev Gürcüstanın Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Mixeil Kavelaşviliyə ünvanladığı məktubda Azərbaycan-Gürcüstan əlaqələrinin tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlandığını bildirib: "Belə möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir. İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı, regionumuzun sabitliyi və təhlükəsizliyinin təmin olunması, iqtisadi potensialının reallaşdırılması naminə dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik".

Danılmaz faktdır ki, regionun taleyi Azərbaycan və Gürcüstandan birbaşa asılıdır. Hər iki ölkənin bir-birinin ərazi və suverenliyini dəstəkləməsi, bölgədə əməkdaşlığın, inkişafın tərəfdarı olmaları, həm də Cənubi Qafqazda təhlükəsizliyə xidmət edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Təxribat və girov götürmə cinayətlərini planlaşdıran ekstremist qruplaşma ifşa edilib




Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri ilə Azərbaycan Respublikasının vətəndaşları - 1984-cü il təvəllüdlü Şahmurov Fəxrəddin Hacı oğlu, 1960-cı il təvəllüdlü Muradov Calal Murac oğlu, 1998-ci il təvəllüdlü Babayev Kamran Kamil oğlu və digərlərinin Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları əleyhinə ağır və xüsusilə ağır cinayət əməlləri törətmək məqsədilə sövdələşib cinayətkar birlik yaratmaları, respublika ərazisində gizli görüşlər və sosial şəbəkələrdə müxtəlif qapalı qruplar təşkil edərək, dövlət təsisatlarına qarşı təxribat əməlləri törətmələrinə hazırlıq görmələri təsbit olunub.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xarici ölkə vətəndaşının da iştirakı ilə təşkil olunmuş gizli toplantıda cinayətkar birliyin bayrağının hazırlandığı bəyan edilərək, birliyin məqsədləri naminə törədiləcək cinayətlərin plan və şərtlərinin işlənib hazırlanmasına rəhbərlik etmək üçün Fəxrəddin Şahmurova təqdim edilib.

Fəxrəddin Şahmurov cinayət qruplaşmasının digər üzvləri ilə birlikdə mütəşəkkil dəstə halında ölkənin müdafiə qabiliyyətinə və iqtisadi təhlükəsizliyinə ziyan vurmaq məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədində yerləşən gömrük postunu ələ keçirmək, cinayətkar birliyin tələblərini irəli sürmək üçün orada xidmət aparan əməkdaşları və digər şəxsləri girov götürmək barədə təxribat planı hazırlayıb, görülmüş tədbirlərlə mütəşəkkil dəstənin qanunsuz əməllərinin qarşısı alınıb. Fəxrəddin Şahmurov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28.282.2-ci (mütəşəkkil dəstə tərəfindən təxribata hazırlıq), 28.215.3 (adamları girov götürməyə hazırlıq), 218.1 (cinayət birlik (təşkilat) yaratma) və 281.2 (dövlət əleyhinə çağırışlar məzmunlu materiallar yayma), Calal Muradov və Kamran Babayev isə Cinayət Məcəlləsinin 281.2-ci və digər maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək həbs olunub, həmçinin digər şəxslər istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə kompleks araşdırmalar davam etdirilir.

# REGİONLAR

İlə yekun vurulur

## Bölgələrimiz daha işıqlı olur

**Yaxın keçmişdə elektik enerjisi sarıdan korluq çəkən, nəinki kəndləri, hətta şəhərləri də işığı az qala saatla alan Azərbaycan bu gün başdan-başa nur içindədir. Bu, son iki onillik ərzində tikilən və yenidən qurulan onlarla enerji obyektləri sayəsində mümkün olub. İndi ölkəmiz elektrik enerjisi ilə həm özünü təmin edir, həm də onun ixracatçısıdır.**



Yola salmağa hazırlaşdığımız 2024-cü il ərzində də respublikanın müxtəlif yerlərində yeni elektrik stansiya və yarımstansiyaları istifadəyə verilib. Bu il fəaliyyətə başlayan həmin enerji obyektləri əsasən regionları əhatə edir. Prezident İlham Əliyevin bu enerji obyektlərinin hər birinin açılışında iştirak etməsi onların əhəmiyyətinə bir daha diqqət çəkir.

Dövlət başçısı aprelin 9-da Qəbələ rayonunda "Azərişıq" ASC-nin 110/35/10 kV-luq "Hacıalılı" elektrik yarımstansiyasını işə saldı. 26 meqavat-amperlik (MVA) "Hacıalılı" yarımstansiyasının gücü 41 MVA-ya çatdırılmaqla müasir tələblərə uyğun yenidən tikilib. Qeyd edək ki, rayonun elektrik şəbəkəsi ümumilikdə 31 min 502 abonenti əhatə edir. Aparılan yenidənqurma işləri çərçivəsində Qəbələ şəhərinin, 2 qəsəbənin və 13 kəndin elektrik təsərrüfatı yenilənib. Sözügedən yarımstansiya da istehlakçıların elektrik enerjisi təchizatının keyfiyyətinin yüksəldilməsi məqsədilə inşa edilib. Paylayıcı şəbəkələrdə "yaşıl" və innovativ texnologiyaların tətbiqi təbii qaza qənaət edilməsinə, karbon dioksid emissiyasının azaldılmasına imkan yaradır.

"Hacıalılı" elektrik yarımstansiyasının qarşısında elektromobillər üçün "Azərişıq" tərəfindən iki enerjidoldurma stansiyası inşa olunub. Elektromobil enerjidoldurma stansiyalarının tətbiqi nəticəsində ildə 230 min ton karbohidrogen yanacağına qənaət edilməsi və 239 min ton karbon dioksid emissiyasının azaldılması mümkün olacaq.

Bu il Qarabağın və Şərqi Zəngəzurun da işığı artdı. Ümumiyyətlə, elektrik enerjisi obyektlərinin istifadəyə verilməsi işğaldan azad edilmiş ərazilərimizin bərpa-quruculuq işləri sırasında ön yerlərdən birini tutur. Çünki bunsuz heç bir inkişaf mümkün olmaz. Elə təkcə bu ilin may ayında Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə dörd enerji obyektinin açılışını etdi.

Laçın rayonunda "Azərtnerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" kiçik su-elektrik stansiyaları (KSES) açıldı. "Zabux" KSES 2,8 MVt, "Qarıqışlaq" KSES isə 4 MVt gücündədir. "Zabux" KSES-də il ərzində 8-9 milyon, "Qarıqışlaq" KSES-də 11-12 milyon kilovat-saat "yaşıl enerji" istehsal ediləcək.

Stansiyaların enerjisistemə inteqrasiyası üçün yeni yarımstansiyalar tikilib, 35 kV-luq yeni elektrik verilişi xətti çəkilib. Yeni optik kabel xətti çəkilməklə stansiyalar ölkə enerjisisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunub. Nəticədə rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan nəzarətin əlçatanlığı təmin edilib. Qeyd edək ki, Zabux Azərbaycan ərazisində formalaşan, bolsulu və itiaxan dağ çayıdır. Odur ki, azsulu mövsümlərdə də bu stansiyanın məhsuldar istismarı mümkün olacaq.

Mayın 18-də isə "Azərenerji"nin "Zəngilan" və "Şayıflı" su-elektrik stansiyaları açıldı. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində qısa vaxtda hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat təşkil edən "Zəngilan" su-elektrik stansiyaları silsiləsi layihələndirilərək tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su-elektrik stansiyası olan Zəngilan silsiləsindən "Cahangirbəyli" 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib.

"Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Zəngilan" və "Şayıflı" SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilmə təmin olunub. Bu SES-lərin il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat "yaşıl enerji" istehsal ediləcək. Bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının (CO2) həcmi 28 min ton azalacaq.

Sözügedən silsilənin sonuncu stansiyası "Sarıqışlaq" isə oktyabr ayında istifadəyə verildi. "Sarıqışlaq"da il ərzində 33 milyon kilovat-saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur.

Bu stansiyada 110 kV-luq açıq paylayıcı qurğu tikilib. Qurğu nəinki "Sarıqışlaq" SES-də, eyni zamanda "Şayıflı" SES-də istehsal olunan "yaşıl enerji"nin sistemə ötürülməsi funksiyasını icra edir.

Əlavə edək ki, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən tədqiqi barədə "Azərenerji" ASC-yə verdiyi tapşırığın icrası məqsədilə işğal dövründə dağıdılmış su-elektrik stansiyalarından əlavə, ekoloji normalar daxilində yeni su-elektrik stansiyalarının tikintisi barədə hesabat hazırlanaraq təqdim edilib. Hesabata əsasən, bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su-elektrik stansiyası olacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Gəncə Dövlət Universitetinin nümayəndə heyəti Türkiyəyə işgüzar səfər edib



**Gəncə Dövlət Universitetinin (GDU) rektoru Yusif Yusibovun rəhbərlik etdiyi nümayəndə heyəti Dokuz Eylül Universiteti (DEU) ilə akademik əməkdaşlığı daha da genişləndirmək məqsədilə Türkiyəyə işgüzar səfər etmişdir.**

Nümayəndə heyəti Dokuz Eylül Universitetində biologiya ixtisası üzrə ikili diplom proqramında təhsil alan birinci və ikinci kurs tələbələri ilə görüş keçirib. Görüş zamanı ikili diplom proqramının üstünlüklərindən danışan Y.Yusibov Türkiyədə təhsil almaq imkanının gənclər üçün böyük şans olduğunu qeyd edib və bu proqramda təhsil alan tələbələrin gələcəkdə peşəkar kadr kimi yetişəcəklərindən əmin olduğunu bildirib, tələbələrin problemleri ilə maraqlanıb. Tələbələr üçün yaradılmış şəraitlə tanış olan, tədris otaqları, Biologiya, Mikrobiologiya, Zoologiya və Biologiya Elmi-Tədqiqat laboratoriyalarına baş çəkən nümayəndə heyəti - GDU-nun rektoru Yusif Yusibov, ümumi işlər üzrə prorektor Samir Məmmədov, İnnovasiyalar Departamentinin direktoru Vasif Həsənov və Kimya-biologiya fakültəsinin dekanı İsfəndiyar Alverdiyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin adına mühazirə zalında olublar. Azərbaycandan gələn qonaqlar tələbələrə təqdim edilib, Gəncə Dövlət Universitetinin Dokuz Eylül Universiteti ilə elmi əməkdaşlıq əlaqələrindən danışılıb, Nizami Gəncəvi adına mühazirə otağının məhz GDU ilə DEU universiteti arasında əməkdaşlıq çərçivəsində yaradıldığı bildirilib, GDU-da da türk dünyasının görkəmli şəxsiyyəti Yunus Əmrə adına mühazirə otağının olması barədə məlumat verilib.

Görüşdə rektor Yusif Yusibov Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, elm, təhsil sahəsində də əməkdaşlığın yüksək səviyyədə qurulmasından danışıb, tələbələrə uğurlar arzulayıb.

Qeyd edək ki, Gəncə Dövlət Universiteti və Türkiyə Respublikasının Dokuz Eylül Universiteti arasında imzalanmış müqaviləyə əsasən, 2023-2024-cü tədris ilindən etibarən ikili diplom proqramı çərçivəsində biologiya ixtisası üzrə mütəxəssis hazırlığına başlanılıb. 2025-2026-cı tədris ilindən etibarən hazırda ikinci kursda oxuyan tələbələr təhsillərini üçüncü və dördüncü kursda Gəncə Dövlət Universitetində davam etdirəcəklər.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Mingəçevirdə ictimai dinləmə keçirilib



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" barədə növbəti ictimai dinləmə Mingəçevir şəhərində təşkil olunub.**

Tədbir layihə barədə məlumatlılığı artırmaq, nəzərdə tutulmuş hədəf kateqoriyaları layihəyə cəlb etmək məqsədi daşıyıb.

İşaxtaran və işsiz şəxslərin iştirakı ilə keçirilən tədbirdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi barədə məlumat verilib. Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblərdən, proqramın gözlənilən faydalarından, layihəyə müraciət qaydalarından bəhs olunub.

Əlavə dəstək mexanizmi kimi layihə çərçivəsində təşkil edilən "Həvəsləndirmə Mükafatı" müsabiqəsi və digər məşğulluğa dəstək mexanizmləri barədə məlumatlar da iştirakçıların diqqətinə çatdırılıb.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Kəndlinin bir alnı, bir də qapısı həmişə açıqdır

### Goranboylular yeni ili yeni uğurlarla qarşılayırlar

**Ölkənin iri və öncül kənd təsərrüfatı rayonlarından biri də Goranboydur. Demək olar, hər il aqrar sahədə uğurlar qazanan goranboylu fermerlər cari ili də müsbət göstəricilərlə yola salmaq əzmindədirlər.**

Rayonda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil etdiyindən torpaq sahibləri yaxşı başa düşürlər ki, onların istehsal etdikləri məhsullar bütünlükdə ölkənin ərzağa olan tələbatının ödənilməsində müəyyən paya malikdir. Odur ki, rayonda hər il təkcə əkin sahələrini genişləndirməklə deyil, həm də məhsuldarlığı artırmaqla daha çox kənd təsərrüfatı məhsulları istehsal edilir.

Bu baxımdan cari il də istisna olmayacaq. Keçək rəqəmlərə: rayon üzrə cari mövsüm 15739,3 hektarda arpa, 7559,7 hektarda buğda olmaqla 23299,5 hektarda taxıl toxumu səpilmişdir. Biçin vaxtı "Aqroservis" ASC-yə məxsus 35, hüquqi və fiziki şəxslərə məxsus 36 olmaqla ümumilikdə 71 kombayn sahələrə çıxdı. Arpa üzrə orta məhsuldarlıq 33,6, buğda üzrə 36,2 sentner oldu ki, bu da əvvəlki ildəki göstəricidən xeyli çox idi. Kənd təsərrüfatının digər sahələrində də yüksək göstəricilərə nail olundu. Xüsusən kümçülər əvvəlki ildə qazandıqları göstəricini xeyli üstələdilər. 51 kümçü 110 qutu baramaqurdu toxumundan 4174 kiloqram barama yetişdirib təhvil verdi.

Artıq 5 ilə yaxındır ki, Goranboyda da pambıqçılıq müəyyən sayda fermerlərin əsas fəaliyyət sahəsidir. Yeri gəlmişkən, qeyd edək ki, bu il də rayonda pambıq əkini ilə "Azərpambıq", "MKT" və "Goran Cotton" MMC-lər məşğul olmuşlar. Onlarla bağlanan müqavilələrə əsasən, cari mövsüm 1450 hektarda pambıq əkilmişdir. Hələlik yetişdirilmiş pambığın 90 faizi yığılaraq təhvil verilmişdir.

Növbəti mövsümün məhsullarına gəldikdə, bu istiqamətdə də işlər pis getmir. Bizə təqdim olunan son məlumata görə, 10 hektar ərazidə buğda, 256 hektarda arpa, 184 hektarda xəsil, 63 hektarda təzə yonca və 412,14 hektarda digər məhsulların əkini aparılmışdır. Əkin sahələrinin suvarılması üçün 965 subartezian quyusu, 16 nasos stansiyası və ümumi uzunluğu 2019 kilometr olan suvarma kanallarından istifadə olunur. Həmin suvarma qurğularının daim saz vəziyyətdə olmasına diqqətlə yanaşılır. Təkcə cari il 769 subartezian quyusunun nasosları əsaslı təmir olunmuş, 342 təzə nasos alınaraq quyulara quraşdırılmışdır. Əkin sahələrinin suvarma vəziyyətinin yaxşılaşdırılması məqsədilə Şəmkir Maşın Kanalının çəkilişinin III mərhələsində kəndlərə suvarma suyunun verilməsi üçün aparılan tikinti işləri isə fasiləsiz davam edir.

Demək olar, artıq qışdır, havalar əməlli-başlı soyuyub. Belə vaxtda isə əhalini təkcə əkin-biçin yox, elektrik enerjisi və təbii qazla təchizat da maraqlandırır. Götürək işıq məsələsini. Rayon elektrik şəbəkəsi 29789 abonentə xidmət edir. 27398 abonent əhali, 2378 abonent isə qeyri-əhali qruplarına aiddir. İl ərzində Goranboy Elektrik Şəbəkəsinin xidməti ərazisində istismara yararsız 8 ağac dayaq metal dayaqlarla əvəz edilmişdir. Payız-qış mövsümünə hazırlıq işləri çərçivəsində isə Qarapirimli kəndində yeni elektrik transformatoru quraşdırılmışdır.



Təbii qazla təminata gəldikdə, Gəncə Regional Qaz İstismar İdarəsinin Goranboy Qaz İstismar Sahəsi əhalinin qaz təminatının yaxşılaşdırılması üçün 9346,96 paqonmetr (pm) yeni qaz xətti çəkmiş, Qazaxlar kəndində 1925 pm polad boru quraşdırmışdır. Bundan başqa, rayonun Nizami kəndində 1547 pm polad boru yenisi ilə əvəz edilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, hazırda rayon üzrə yaşayış məntəqələrinin 96,7 faizi qazlaşdırılmışdır. Hələlik qazlaşdırılmamış Yuxarı Ballıqaya, Todan, Mənəşli, Erkəc və Börü kəndləri ilə bağlı isə layihə artıq hazırdır.

Goranboy Sukanal Sahəsi 7771 abonentə xidmət göstərir. İl ərzində Qazanbulaq qəsəbəsinə təxminən 7 kilometr məsafədən magistral su xətti çəkilmiş, fərdi qaydada sayğaclaşdırma işləri aparılmışdır. Sahənin işçiləri Dəliməmmədli şəhərində 3, Goran qəsəbəsində 1 subartezian nasosunu təmir və yararsız vəziyyətə düşmüş subartezian nasosunu təzəsi ilə əvəz etmişlər. Hazırda Rəhimli və Yeni qəsəbə ərazisində əhaliyə fərdi qaydada su verilməsi üçün xətlər çəkilir.

Qış mövsümündə Mərkəzi Elekton ATS-in fəaliyyətində də fasilələrin olmaması üçün tədbirlər görülmüş, o cümlədən 150 kilovoltluq generator qoyulmuş, Xınnalı, Veyisli, Qarqucaq, Muzdurlar və Səfikürd kəndlərində internetin şəbəkəsi genişləndirilmiş, Dəliməmmədli, Borsunlu, Veyisli, Səfikürd, Qaraçinar, Aşağı Ağcakənd, Qızılhacılı və Qarqucaq kəndlərində akkumulyatorlar qoyulmuşdur. Xınnalı-Borsunlu-Ağcakənd-Xoylu Dəliməmmədli-Xanqərvənd kəndlərində abunəçilərin istifadəsinə müasir tipli stansiyalar verilmişdir.

İl ərzində əhalinin məşğulluğunun təminatı da diqqət mərkəzində saxlanılmışdır. Konkret desək, 1379 nəfər daimi işlə, 299 nəfər mövsümi işlə təmin edilmiş, bundan əlavə, 57 nəfər özünüməşğulluq proqramı çərçivəsində özü üçün fəaliyyət sahəsi açmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Abadlıq yoldan başlayır

### Qubanın Davudoba kəndinin camaatı da yol sarıdan rahatlığa çıxdı

**Abad yol rahatlıq və inkişafdır. Quba kimi rayonda isə həm də turizmin genişlənməsinin ilkin şərtidir. İstəyir lap cənnət olsun, yolu yoxdursa, ora kimsə üz tutmayacaq.**

Qubanın kəndlərinin demək olar ki, hamısı turizm əhəmiyyətlidir. Belə məkanlardan biri də Hacıhüseynli kənd inzibati ərazi dairəsidir. Dairənin ərazisinə Davudoba, Qımılqışlaq, Əliməmmədoba, Küpçalqışlaq, Hacıqayıb, Çaydüzü, Mirzəqasım, Ərməkiqışlaq, Hacıhüseynli kəndləri və Gənclər qəsəbəsi daxildir.

- Kəndlərimiz həm dağlıq, həm də aran ərazilərdə yerləşir, - deyə Quba Rayon İcra Hakimiyyəti başçısının Hacıhüseynli kənd inzibati ərazi dairəsinin nümayəndəsi Valeh Əmrullayev bildirir. - Coğrafi baxımdan gözəl təbiətə malik, yazda-yayda yaşıllıqlarla, qışda qarla örtülən kəndlərimiz buralara ayaq basan hər kəsi valeh edir. Kəndlər bir-birinə yaxın məsafədə yerləşdiyindən yerli əhali xeyirdə-şərdə bir yerdə olur. Gənclər qəsəbəsi və bir çox kəndlərimizdə demək olar ki, bütün daxili infrastruktur müasir tələblər səviyyəsində qurulub.

Bu inzibati dairənin kəndlərinin çoxu rayonun turizm sektorunda müəyyən çəkiyə malikdir. Xüsusən yayda Bakıdan bu kəndlərə gələn çoxdur. Odur ki, rayon rəhbərliyi vaxtaşırı ərazidə yerləşən kəndlərdə sakinlərlə görüşür və ortaya çıxan problemləri yoluna qoyur. İnzibati dairəyə daxil olan Davudoba kəndinin sakinləri də onlarla görüşə gələn rəhbər vəzifəli şəxslər qarşısında bəzi məsələləri önə çəkdi. Kənd sakini Almas Daşdəmirov deyir ki, burada az qala hamı bir-birilə qohumdur.



- Yəni problem varsa, yığışıb birlikdə müzakirə edirik. Səyyar görüşdə iştirak edən camaatımız rayon rəhbərliyinə yolumuzla bağlı problem olduğunu bildirdi. Rayon rəhbəri isə məsələni nəzarətə götürəcəyinə söz verdi.

Tezliklə Hacıhüseynli kəndindən Davudoba kəndinə qədər olan yol təmir edilməyə başlandı. Bir qədər də genişləndirilən yolun hər iki tərəfində daşıyıcı arxlar qazıldı. Çox yerdə yolun kənarında belə arxlar olmadığına görə hərəkət zolaqları tez sıradan çıxırdı. Eləcə də yolun ətrafındakı işıq dirəkləri yeniləndi.

Bu günlər yolun təmirdən sonra açılışı oldu. Tədbirə ətraf kəndlərdən də xeyli sakin axışıb gəlmişdi. Rayon rəhbərlərinin iştirakı ilə yol davudobalıların ixtiyarına verildi.

- Biz kənd yolunun təmirini ən vacib iş sayırıq, - deyə kənd sakini Tamella Məmmədova ürək sözlərini bizimlə bölüşdü: - Ətraf kəndlərin çoxunun yolu yaxşı idi. Biz onlara qonaq gedəndə, düzü, paxıllıq edirdik. Bu gün bizim də rahat yolumuz var. Bu işdə əməyi olan hər kəsə minnətdarıq.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Elm xadimləri

# Böyük bir nəslin unudulmaz müəllimi

**Zirvələri fəth etmək, ətrafındakılardan seçilmək, irəlidə getmək heç də həmişə asan olmur. Təbiidir ki, zirvələri əlçatan etmək üçün zaman-zaman əziyyətlərə qatlaşmalı, çətinliklərdən keçməlisən. Kitablardan ayrılmadan elm öyrənməlisən, ciddi araşdırmalar aparmalısan. İşinlə, əməlinlə, zəhmətinlə, biliyinlə, xeyirxahlığınla böyük hörmət qazanmalısan, həmişə haqqın, ədalətin tərəfində olmalısan. Öz sahəndə addım-addım irəliləməlisən, uğurlar qazanmalısan. Bununla da kifayətlənməyib daim irəliyə, üzü gələcəyə, sabahlara doğru baxmalısan. Keçdiyin ömür yolunda özündən sonra pozulmaz izlər qoymalısan.**



Əməli işinlə, elmi araşdırmalarınla, yaradıcılığınla zirvələri fəth edib, minlərin, milyonların sevgisini qazanmalısan. Böyük bir nəslin sevimli, unudulmaz müəllimi olmuş görkəmli alim, publisist, pedaqoq, ömrünün 70 ilindən çoxunu milli mətbuatımızın araşdırılmasına, inkişafına sərf etmiş professor Şirməmməd Hüseynov kimi.

Professor Şirməmməd Hüseynov çoxlarına nümunə olan şərəfli bir ömür yolu keçib. O, 17 dekabr 1924-cü ildə Nuxada (indiki Şəki) anadan olub. Atasını üç yaşı olarkən itirib. 1940-cı ildə Nuxa şəhər 2 nömrəli orta məktəbi bitirib. 1941-1943-cü illərdə Nuxa Dövlət Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsində oxuyub. 1943-cü ilin mart ayından 1944-cü ilin iyun ayınadək Zaqatala rayonunun Varxian, Nuxa rayonunun Aşağı Göynük və Oxud kəndlərindəki orta məktəblərdə fizika-riyaziyyat müəllimi işləyib. Texniki fənləri tədris etsə də, mətbuata, ədəbiyyata, sözə olan sevgisi 1944-cü ilin iyun ayında gələcəyin böyük alimi Şirməmməd Hüseynovu jurnalistikaya gətirib. Şirməmməd müəllim böyük həvəslə "Nuxa fəhləsi" qəzetində işləyib. Gələcək böyük yolun ilk addımlarını atıb. İlk məqalələrini bu qəzetdə yazıb, qələmi burada püxtələşib. Şirməmməd müəllim 1945-ci ilin avqustuna qədər bu mətbu orqanda çalışıb. Bir-birindən maraqlı və dəyərli məqalələr yazıb. O, 1945-1950-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) Filologiya fakültəsinin jurnalistika şöbəsində, 1950-1954-cü illərdə isə M.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspirantura şöbəsində təhsil alıb.

Yaşadığı illər ona bir-birindən böyük uğurlar gətirib. 1947-ci ilin aprel ayından 1950-ci ilin sentyabr ayına qədər S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "Lenin tərbiyəsi uğrunda" qəzetində redaktor müavini, 1948-1950-ci illərdə "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində çalışıb. 1954-2019-cu illərdə Bakı Dövlət Universitetində müxtəlif vəzifələrdə işləyib. 1971-1976-cı illərdə bu ali təhsil ocağının Jurnalistika fakültəsinin dekanı olub.

Tələbələrin ən çox sevdiyi və böyük maraq göstədiyi Şirməmməd müəllimin mühazirələri idi. Onun dərslərində tələbələrin pıçıltısı belə eşidilmirdi. Çünki mühazirənin mövzusunu çox maraqla danışar, geniş izah edərdi. Buna görə də tələbələr ona qulaq asar, qeydlər aparardı. Həmişə də yetirmələrinə obyektiv qiymət verərdi. O, hətta artıq tarixin arxivinə gömülmüş sovet ideologiyasının hökm sürdüyü zamanlarda da gənclərə millət sevgisi aşılayırdı. Düzdür, mühazirələrini təsdiqlənmiş, möhürlənmiş proqramlara uyğun olaraq aparırdı. Amma eyni zamanda tələbələrə gah sətiraltı, gah da açıq şəkildə əsl həqiqətləri çatdırmağa çalışırdı. Necə deyərlər, sözünü ürəyində saxlamırdı.

Müstəqillik illərində ideoloji qadağaların aradan qaldırıldığına görə həm müəllimlərin, həm də tələbələrin nəfəs dərmələri üçün şərait yarandı. Artıq müəllimlər dünənə qədər tələbələrə pıçıltı ilə deyə bilmədiklərini açıq şəkildə dillərinə gətirirdilər. Belə bir dövrdə professor Şirməmməd Hüseynov zamanın dəyişdiyindən, dayanmadan inkişaf etməkdə olan ictimai-siyasi proseslərin cəmiyyətə demokratik yeniliklər gətirməsindən bacarıqla istifadə edərək zəkası ilə XX əsr mətbuat tariximizin ən maraqlı və dəyərli səhifələrinə işıq salırdı. Çəkdiyi zəhmət hədər getmirdi, sonda məqsəd və amalına çatırdı. Uzun illər bağlı qalmış, qatı açılmamış tarixi həqiqətləri, Azərbaycan sevdalısı olan böyük şəxsiyyətləri xalqa tanıtdırmağa nail olurdu.

Professor Şirməmməd Hüseynovun qələmə aldığı bütün məqalələrindən vətənpərvərlik, xalq sevgisi süzülürdü. Bu sevgi, bu istək onun ürəyində, qəlbində aşıb-daşırdı. Şirməmməd müəllim qabaqcıl ziyalı kimi erməni terrorizmini də, erməni iftiralarını da daim diqqətə çəkərdi. Hadisələrin başladığı ilk günlərdən sevimli müəllimimizin ürəyi, qəlbi sanki Qarabağda döyünürdü. Bəzi ziyalılar kimi yaxasını bir kənara çəkib dayanmırdı. Xalqının ağrı-acısı, problemləri ilə yaşayırdı.

Professor bu mövzuda qələmə aldığı publisistik məqalələrində Qarabağ probleminin, erməni terrorizminin dərin köklərini araşdırır, erməni faşizminin xalqımıza qarşı torpaq iddialarına ətraflı yer ayırırdı. Ermənilərin heç bir tarixi fakta söykənməyən "böyük Ermənistan" uydurmasının qaranlıq məqamlarını açıb dünyaya göstərirdi. Professor Şirməmməd Hüseynov yazırdı: "Tam bir əsrdir ki, erməni millətçilərinin daşnaksütyun partiyası dünya ermənilərini "böyük Ermənistan" uğrunda səlib yürüşünə səsləyir. XX əsr tarixinə bələd olanlar keçən müddət ərzində ermənilərin Qafqaz, Türkiyə və İran torpaqlarında nə oyunlardan çıxdıqlarını yəqin ki, xatırlayırlar. Erməni millətçilərinin üzdəniraq "planlarında" Azərbaycana xüsusi yer ayrılır. Azərbaycanı parçalamaq, onun ata-baba torpaqlarını tutmaq, əhalisini məhv etmək üçün təkcə bizim əsrimizdə dörd iri cəhd edilmişdir".

Şirməmməd müəllimin həmin illərdə bu mövzuda yazdığı məqalələri böyük əhəmiyyət kəsb edirdi. Çünki məqalədəki həqiqətləri sovet ideologiyası 70 il Azərbaycan xalqından gizlətmişdi. Şirməmməd Hüseynov gərgin araşdırmaları sayəsində bu həqiqətləri arxivlərdən aşkarlayaraq gün işığına çıxarmışdır. Professorun "Zaman keçsə də, bəla elə həmin bəladır" adlı məqaləsi də oxucular tərəfindən maraqla qarşılandı. Şirməmməd müəllim bu məqaləsində Qarabağda baş verən hadisələri daha da gərginləşdirən, erməni millətçilərinin başında dayanan, hadisələri körükləyib qızışdıran Zori Balayan kimi şovinistlərin qanlı əməllərinə diqqət çəkirdi. Alim bu avantürist millətçilərin Qarabağı ələ keçirib Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirmək məqsədi güddüyünü ifşa edərək yazırdı: "Qarabağın təkcə dağlıq hissəsində deyil, ətraf rayonlarda da qan tökülür. Erməni yaraqlıları azğınlaşmışlar. Vəziyyət həddindən artıq çətindir. Yerevanın rəsmi dairələrinin köməyinə arxalanan erməni millətçiləri nəyin bahasına olursa olsun Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq, əgər baş tutmasa, onu viranəyə çevirməyi qarşılarına məqsəd qoymuşlar. Dəhşətlisi budur ki, qan tökən də erməni quldurları, hamıdan bərk qışqıran da onlardır. Erməni daşnak mafiyası çoxdandır ki, Azərbaycan torpaqlarına göz dikir. Onun hesabına öz ərazisini genişləndirmək istəyir. Bunun üçün isə heç bir yalan və iftiradan çəkinmir". Göründüyü kimi, Şirməmməd müəllim tarixi həqiqətləri sadə dillə oxuculara çatdırır, erməni faşizminin qanlı əməllərini ifşa edirdi.

Azərbaycan jurnalistikasının görkəmli nümayəndələrindən biri, mətbuat tədqiqatçısı, Əməkdar jurnalist, Şirməmməd Hüseynovun adı həmişə böyük hörmət və ehtiramla çəkilir. O, milli mətbuatımızın tanınmış simalarından biridir. Şirməmməd müəllim əsərləri ilə ölkəmizin dünəni və bu günü arasında mənəvi körpü yaratmağa çalışıb. İşıqlı ziyası, dərin zəkası ilə dünəni bu günümüzə, bu günümüzü dünənə qovuşdurub. Ona görə də Şirməmməd müəllimin bütün əsərləri həmişə maraqla oxunur.

Şirməmməd Hüseynov çoxsaylı tədqiqatlarında Azərbaycanda milli mətbuatın əsasını qoyan, "Əkinçi" qəzetinin redaktoru Həsən bəy Zərdabi, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Mirzə Bala Məmmədzadə, Ömər Faiq Nemanzadə və başqalarının bənzərsiz publisistik yaradıcılığını, milli istiqlal, Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması uğrundakı mübarizələrini tədqiq edib xalqa çatdırmağı həyatının əsas fəaliyyət proqramına çevirmişdi. Onu xalqa sevdirən amillərdən biri də məhz bu idi.

Professor Şirməmməd Hüseynov elmi, publisistik əsərləri ilə yanaşı, təcrübəli, savadlı və təmənnasız müəllim ömrü də yaşayıb. Bakı Dövlət Universitetinin Mətbuat tarixi kafedrasına rəhbərlik etdiyi dövrdə keçmiş SSRİ-nin Moskva, Leninqrad (indi Sankt-Peterburq) universitetləri, eləcə də Kiyev, Rostov, Sverdlovski, Tbilisi, Minsk, Kişinyov, Daşkənd və başqa universitetlərin jurnalistika fakültələri ilə əməkdaşlıq əlaqələri qurmuşdu. Bu əlaqələr tələbələr arasında təcrübə mübadiləsi aparmağa şərait yaratmışdı.

Böyük tədqiqatçı alim milli mətbuatımızın inkişafı üçün misilsiz işlər görmüşdür. Professorun dərin təfəkkürü, ürəyindəki Azərbaycan sevgisi, bitib-tükənməyən yaradıcılıq həvəsi ilk günlərdən başlayaraq xalqın istiqlalına xidmət edib. Onun Azərbaycan Xalq Cümhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində, təbliğində xidmətləri əvəzsizdir. Professor "Həqiqət və ədalət carçısı", "M.Ə.Rəsulzadə", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr" və digər dəyərli kitabların, həmçinin çoxsaylı dərslik və dərs vəsaitinin müəllifi idi.

Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il 16 dekabr tarixli sərəncamına əsasən, professor Şirməmməd Hüseynov "Şərəf" ordeni ilə təltif edilmişdi. Bu, Şirməmməd müəllimin xidmətlərinə verilən yüksək qiymət idi.

Professor Şirməmməd Hüseynov 2019-cu il iyunun 24-də 95 yaşında dünyasını dəyişdi. Yaşasaydı, bu gün hörmətli müəllimimizin 100 yaşı tamam olacaqdı. Milli mətbuatın inkişafında misilsiz xidmətləri olmuş, əsərləri ilə yaddaşlarda böyük bir iz qoymuş professor Şirməmməd Hüseynov onu sevənlər tərəfindən daim hörmətlə yad ediləcək, ehtiramla xatırlanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "İrs" jurnalının xorvat dilində növbəti buraxılışı işıq üzü görüb

**AZƏRTAC xəbər verir ki, jurnalda Azərbaycan reallıqları, habelə ölkəmizin milli-mədəni mirası, o cümlədən tarixi və mədəniyyəti haqqında məlumatlar təqdim edilib.**




Jurnalda, həmçinin Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), ölkəmizdə mövcud olan tolerantlıq və multikulturalizm ənənələri, Azərbaycanın tarixi memarlıq abidələri, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terror, Qarabağın tarixi, xristian irsi, eləcə də maddi-mədəni irs nümunələri haqqında məqalələr yer alıb.

Qeyd edək ki, "İrs" jurnalı xalqımızın tarixi, mədəniyyəti, incəsənəti və milli-mədəni irs nümunələrinin təbliğində, həmçinin Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayır.

# Bakıda "Azərbaycan xalçasının ehtişamı. Səfəvi dövrü xəzinəsi" sərgisi açılacaq

**Dekabrın 24-də Azərbaycan Milli Xalça Muzeyində "Azərbaycan xalçasının ehtişamı. Səfəvi dövrü xəzinəsi" sərgisi açılacaq.**




Mədəniyyət Nazirliyindən bildirilib ki, sərgidə ABŞ vətəndaşı Əmir Oskoueinin kolleksiyasından XVII-XVIII əsrlərə aid 14 unikal xalça və bədii tikmə, bununla yanaşı, XVI əsrdə "Şahnamə" əsərinə çəkilmiş miniatür nümayiş olunacaq. Sənət əsərləri sırasında dünyada məşhur "Əfşan", "Qoca", "Xətai" ("Əjdahalı") kompozisiyalı saray xalıları xüsusi yer alacaq.

Səfəvilər hakimiyyəti zamanı Azərbaycanda orijinal bədii quruluşa malik bu cür nəfis xalıların istehsalı genişlənir, xalçaçılıq sənəti öz çiçəklənmə dövrünü yaşayırdı. Həmin vaxt Şirvan, Qarabağ, Bakı, Quba kimi toxuculuq mərkəzlərində hazırlanan xalçaların ölçüləri böyüyürdü. Xalq sənətkarlarının yaratdığı nümunələrdə Təbriz xalılarını bəzəyən islimi, xətai, bulud, əjdaha, simurq, həyat ağacı kimi təsvir və elementlər qismən dəyişdirilərək əks olunurdu.

XVI əsrdə Səfəvi saray emalatxanalarında xalılarla yanaşı, dövrün dəyərli dekorativ-tətbiqi sənət nümunələrindən hesab edilən bədii tikmələr də hazırlanırdı. XVII-XVIII əsrlərdə Azərbaycanın ayrı-ayrı yaşayış yerlərindəki istehsal məntəqələrində həmin tikmələrdən bəhrələnərək yeniləri yaradılırdı. Bunlardan əsasən örtük, süfrə və ya divar bəzəyi kimi istifadə olunurdu.

Azərbaycanda istehsal edilən unikal xalçalar keyfiyyətinə və bədii xüsusiyyətlərinə görə dünyada daim yüksək dəyərləndirilib. Qərbin yüksək zövqlü əsilzadələri əsrlər boyu xalqımızın yaratdığı əsrarəngiz xalçaları toplayır, onlarla sarayları, malikanələri, dini abidələri bəzəyirdilər. Dünyanın bir çox məşhur muzeyində və şəxsi kolleksiyalarda qorunan Azərbaycan dekorativ-tətbiqi sənət nümunələrinə, o cümlədən XVII-XVIII əsrlərə aid xalçalara bu gün də böyük maraq göstərilir. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi, "Amir Textiles&Rugs" MMC, ABŞ-Azərbaycan Ticarət Palatası və "Silk Way West Airlines" aviaşirkətinin birgə təşkilatçılığı ilə baş tutacaq "Azərbaycan xalçasının ehtişamı. Səfəvi dövrü xəzinəsi" sərgisi bunun bariz örnəyidir.

Qeyd edək ki, sərgi 2025-ci il mayın 10-dək davam edəcək.

# Vaqif Mustafazadənin anım günü olub



**Azərbaycanın görkəmli caz pianoçusu və bəstəkarı, ölkəmizdə caz musiqisinin banilərindən biri, Əməkdar incəsənət xadimi Vaqif Mustafazadə 45 il bundan əvvəl Daşkənddə qastrol zamanı ürək tutmasından vəfat edib və Bakıda dəfn olunub.**

AZƏRTAC Azərbaycan musiqisinin, muğamının klassik amerikan caz musiqisi ilə sintezini yaratmış V.Mustafazadənin yaradıcılığından bəzi məqamları təqdim edir.

V.Mustafazadənin musiqi stili "Caz-Muğam" adlanır. Onun musiqimizdə etdiyi bu kimi yeniliklər bu günə qədər öz aktuallığını qoruyub saxlayır. Bu günün özündə belə bir çox musiqiçi öz ifasında məhz Vaqif Mustafazadənin yaratdığı caz-muğam sintezindən istifadə edir.

1940-cı ildə Bakı şəhərində anadan olan Vaqif Mustafazadə erkən yaşlarında atasını itirir. Onun tərbiyəsi ilə musiqi müəlliməsi olan anası məşğul olmağa başlayıb. 1963-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Kollecini bitirərək Bakı Musiqi Akademiyasına daxil olub. Vaqif burada kiçik konsertlər verib, klublarda çıxış edib, əsasən, klassik caz, bluz və oynaq mahnılar ifa edib.

1964-cü ildən "Orero" ansamblına, "Qafqaz" caz üçlüyünə, "Leyli" və "Sevil" qadın vokal instrumental və "Muğam" instrumental ansambllarına rəhbərlik edib. Beynəlxalq caz müsabiqələri və festivallarının laureatı olub.

Monakoda 1979-cu ildə qeyri-adi şərtlərlə yeni festival keçirilir. Bu festivalın şərtlərinə görə, əsərin müəllifi, ifaçısı və ölkəsi gizli saxlanılmalıdır. Festival başa çatdıqdan sonra yüzlərlə naməlum ad içərisindən bizə doğma ad çəkilir: Azərbaycan, Vaqif Mustafazadə. Monako caz festivalından Vətənə "Ağ royal" mükafatı ilə qayıdır.

Xalq musiqisi, muğamdakı improvizasiyalarda caz elementləri görmüş və orijinal bir janr ortaya çıxarmış "Muğam" simfoniyasının müəllifi Vaqif Mustafazadə 1979-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb.

Vaqif Mustafazadənin işıqlı xatirəsi daim xalqımız tərəfindən əziz tutulur, hörmətlə anılır.

# "Xəsis cəngavər" ilk dəfə filarmoniyada təqdim olunacaq

**Dekabrın 20-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Əməkdar incəsənət xadimi, professor, pedaqoq və pianoçu Elmira Səfərovanın 90 illiyinə həsr olunan musiqi gecəsi keçiriləcək.**

Filarmoniyadan bildirilib ki, tədbirdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi ilə Xalq artistləri F.Bədəlbəyli (piano), Murad Adıgözəlzadə (piano), Əməkdar artistlər Gülşən Ənnağıyeva (piano), Nərgiz Əliyarova (piano) və Elnarə Kəbirlinskaya (piano) dinləyicilər qarşısında çıxış edəcəklər.

Konsert proqramında F.Chopin piano və orkestr üçün 1 saylı konsert (I hissə), J.Brahms piano və orkestr üçün 1 saylı konsert (I hissə), Mozart piano və orkestr üçün ikili konsert (I hissə), S.V.Raxmaninov iki piano üçün 2 saylı süita yüksək ustalıqla təqdim olunacaq. Dekabrın 23-də isə eyni səhnədə Xalq artisti, xoreoqraf Əminə Dilbazinin 105




illiyinə həsr olunmuş konsert proqramı reallaşacaq. Həmçinin dekabrın 28-də Xalq artisti Yalçın Adıgözəlovun rəhbərliyi, Niyazi adına Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin, konsertmeyster Daniil Kirillovun müşayiəti ilə solistlər Əvəz Abdullayev, Ataş Qarayev, Mahir Tağızadə, Əliəhməd İbrahimov, İqor Yadrov musiqi nömrələrini ifa edəcək.

Görkəmli rus bəstəkarı S.V.Raxmaninovun "Xəsis cəngavər" (A.S.Puşkinin eyniadlı kiçik faciəsi əsasında) operası ilk dəfə Azərbaycan səhnəsində konsert şəklində təqdim olunacaq.




● Günahsızlar

# Əks-inqilabçı adı ilə sürgünə göndərilən bəy oğlu

**Sovet dönəmində ölkəmizin Qərb bölgəsində uzun müddət dövrün təzyiq, sürgün və repressiyalarına məruz qalan nəsillərdən biri də Samux rayonunda Arıqlı soyuna məxsus (Şahmalıbəylər) Şahmalıyevlər olmuşdur.**

Xatırladaq ki, hələ sovet hakimiyyəti qurulmamışdan çox illər öncə Şahmalıbəylərə məxsus mülkiyyət indiki Mingəçevir gölünün altında qalmış əkin və yaşayış yerlərindən ta Qərb istiqamətində Tiflis quberniyasının Şirak pristavlığınadək ərazini əhatə edirdi. Bu ərazini 1863-cü ildə çar Rusiyası öz nəzarətinə keçirmişdi. Rusiyalı mütəxəssis Dubrovun "Zaqafqaziya hekayəti"ndə bildirilir ki, Qafqaz arxeoqrafik komissiyasının tərtib etdiyi aktların ikinci hissəsində Samux əyalətinin və sahibi Şirin bəyin İmperator I Aleksandrın ali fərmanına əsasən himayəyə götürülməsi və Samuxun sahibi kimi saxlanması öz əksini tapıb.

Bundan sonra Samux (1863) Yelizavetpol quberniyasına daxil edilmiş, Samux pristavlığı yaradılmış və Şirin bəyin oğlu Samuxun pristavı təyin edilmişdir. Samuxlu ağsaqqalların, ağbirçəklərin yaddaşlardan-yaddaşlara ötürülən xatirələrindən məlum olur ki, istər çar Rusiyası dönəmində, istərsə də sovet hakimiyyəti zamanında Şahmalıbəylilər xalqın, elin-obanın, ətrafındakıların təhlükəsizliyinə, habelə Azərbaycanın milli dövlətçilik maraqlarına qarşı həmişə diqqətcil olublar. Ölüm təhlükəsi ilə qarşı-qarşıya qalsalar da, xalqa zərrə qədər ziyan verməyiblər.

Şahmalıbəylilərin belə milli mentalitetə bağlı nümayəndələrindən biri də repressiya qurbanı İsmayıl bəy Nəsrullah bəy oğlu Şahmalıyevdir.

İsmayıl bəy 1883-cü ildə Samuxda anadan olmuşdur. Dövrün ənənələrinə uyğun olaraq, yazıb-oxumağı uşaq ikən Samuxda molla yanında öyrənmişdir. Daha sonra İsmayıl bəy Tiflis oğlanlar gimnaziyasında təhsil almışdır. İsmayıl bəyi valideynləri gələcəkdə hüquqşünas görmək istəyirdilər. Özünün də ürəyindən olan bu arzu ilə o, valideynlərinin və yaxınlarının tövsiyəsi ilə Rusiyanın Novorossiya İmperator Universitetinin Hüquq fakültəsində təhsilini davam etdirir.



Nəhayət, 1908-ci ildə universiteti müvəffəqiyyətlə başa vuran İsmayıl bəy gənc hüquqşünas olaraq xidmətə 10 fevral 1909-cu ildə Tiflis Məhkəmə Palatası yanında I cinayət departamentində məhkəmə vəzifələrinə kiçik namizəd kimi başlayır. Təxminən bir ildən sonra - 1 fevral 1910-cu ildən Yelizavetpol (Gəncə) şəhərinə göndərilir və burada quberniya katibi, Yelizavetpol Dairə Məhkəməsində məhkəmə vəzifələrinə baş namizəd vəzifələrində işləyir, 4-cü istintaq şöbəsinə, Yelizavetpol qəzasının Ləki istintaq sahəsinə rəhbərlik edir.

İsmayıl bəy Şahmalıyev 1911-ci ilin sentyabrında istefaya çıxmışdır. 1913-cü ilin iyulunda yenidən dövlət xidmətinə qayıtmış, İrəvan Dövlət Palatasının xüsusi tapşırıqlar məmuru təyin edilmişdir. 16 fevral 1914-cü ildən İrəvan quberniyasının Naxçıvan nahiyəsinin vergi müfəttişinin köməkçisi, 1914-cü ilin aprel ayından 1915-ci ilədək palatanın mühasib köməkçisi, ödəniş şöbəsinin müdiri, palatanın katibi, xüsusi tapşırıqlar məmuru, 1916-cı ildə isə palatanın I bölmə rəisi olmuşdur. 1916-cı ilin dekabrından Naxçıvan nahiyəsinin vergi müfəttişinin baş köməkçisi, 1917-ci ilin yanvarından isə Zaqatala əyalətinin vergi müfəttişi vəzifələrində çalışmışdır. 26 avqust 1918-ci ildə Gəncə Dairə Məhkəməsinin üzvü təyin edilmişdir.

Xalqının yüzilliklərin müstəmləkə buxovundan azad olunmasına və milli dövlət quruculuğuna daim dəstək olan İsmayıl bəy Şahmalıyev 31 avqust 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının tərkibinə daxil edilmiş, Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarının və Yelizavetpol quberniyalarının talan edilməsi haqqında cinayət işlərini araşdıran istintaq qruplarında işləmişdir. 19 mart 1919-cu ildə Azərbaycan Hərbi Məhkəməsinin hərbi müstəntiqi təyin edilmişdir. Bu vəzifədə çalışarkən işin azlığı səbəbindən 1 may 1919-cu ildə FTK üzvlüyündən azad edilmişdir.

Sovet dövründə Gəncədə və Bakıda vəkil kimi çalışmış, Ədliyyə Xalq Komissarları yanında Hüquq Müdafiəçiləri Kollegiyasının üzvü olmuşdur. Bakıda dövlət müəssisələrində hüquq məsləhətçisi işləmişdir.

Repressiya illərində Siyasi İdarənin əməkdaşları təcrübəli hüquqşünas İsmayıl bəy Şahmalıyevi bəy oğlu olduğu və cümhuriyyət hökumətu ilə can-dildən əməkdaşlığına görə nəzarətə götürmüşdülər. 1938-ci il aprelin 2-də Azərbaycan Daxili İşlər Xalq Komissarlığı dövlət təhlükəsizliyi orqanları tərəfindən onu guya əks-inqilabçı, habelə millətçi-qiyamçı təşkilata mənsub olmaqla ittiham edilərək həbs etmişlər. Bir ilə yaxın istintaq təcridxanalarında işgəncələrə məruz qalan 55 yaşlı İsmayıl bəy Şahmalıyev müstəntiqlərin uydurma suallarını rədd etmiş, özünü müqəssir bilməmişdir.

Lakin İsmayıl bəy Azərbaycan SSR DİXK Fövqəladə Üçlüyün 2 iyun 1938-ci il tarixli qərarı ilə əmlakı müsadirə edilməklə, cəzasını islah-əmək düşərgəsində çəkməklə 10 il müddətinə Uzaq Şərqə sürgün edilmişdir.

İsmayıl bəy sürgünə göndəriləndən 5 ay 25 gün sonra, 1938-ci ilin şaxtalı-sazaqlı noyabr ayının 25-də Xabarovsk vilayətində islah-əmək düşərgəsində həyatla vidalaşmışdır.

1955-ci ildə Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası İsmayıl bəy Nəsrullah bəy oğlu Şahmalıyevin "Cinayət işi"nə yenidən baxmış, əməlləri sübuta yetirilmədiyi üçün SSRİ Ali Soveti Rəyasət Heyətinin 16 yanvar 1989-cu il tarixli "1930-1940-cı və 1950-ci illərin əvvəllərində baş vermiş repressiya qurbanları barədə ədalətin bərpası ilə bağlı əlavə tədbirlər haqqında" fərmanının 1-ci maddəsinə aid edilməklə Fövqəladə Üçlüyün 2 iyun 1938-ci il tarixli qərarı ləğv edilərək ona bəraət verilmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Qanlı illər

# Sədaqətə xəyanət

## 1937-ci ildə respublika rəhbərlərinə və partiya üzvlərinə qarşı repressiyalar kütləvi hal almışdı

**1937-ci ilin yayından 1938-ci ilin payızına qədər Azərbaycan faktiki olaraq idarəedilməz qalmışdı. Təkcə 1937-ci ildə 22 xalq komissarı, 49 rayon komitəsi katibi, 29 rayon icraiyyə komitəsinin sədri həbs olunmuşdu. 18 xalq komissarı və bütün rayon komitəsi katibləri bu zaman ərzində öldürüldülər. Əkinçilik, maarif və ədliyyə xalq komissarları ilə birgə onların müavinləri və demək olar ki, bütün əməkdaşları da repressiya qurbanı oldular.**



Tədqiqatçıların araşdırmalarına görə, bir sıra partiya və dövlət xadimlərinin həbsinə səbəb onlara qarşı yazılan ərizələr, böhtan və iftira xarakterli şikayətlər idi. Ölüm hökmü alan Xəzər Dəniz Gəmiçiliyinin rəisi İvan Menyaylov ziyankarlıq fəaliyyətində əlbir olduğu 138 nəfər haqqında ifadə vermişdi. Onların arasında Xəzər Dəniz Gəmiçiliyinin Siyasi şöbəsinin keçmiş rəisi, o dövrdə artıq Naxçıvan Vilayət Komitəsinin birinci katibi, eyni zamanda Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olan Hüseyn Rəhmanovun qardaşı Həsən Rəhmanovun da adı çəkilirdi. 26 sentyabr 1937-ci ildə Stalin Azərbaycan KP MK-ya şifrələnmiş teleqram yollayır.

Teleqramda deyilirdi ki, ÜKP Mərkəzi Komitəsi Hüseyn Rəhmanov və Həsən Rəhmanovun həbsini təsdiqləyir: "Sizdən xahiş edilir ki, Həsən Rəhmanov tərəfindən mundarlanmış Naxçıvan Respublikasını diqqətlə təmizləyəsiniz. Nəzərə alın ki, Naxçıvan Respublikası bütün Zaqafqaziyada ən təhlükəli nöqtədir. Ora yoxlanılmış əsl bolşevik idarəetməsi təyin etmək gərəkdir".

Həmin dövrdə Azərbaycanın xalq hakimlərinin hər beşindən dördü həbs edilmişdi, demək olar ki, bütün prokurorluq aparatı başsız qalmışdı. Kirovabadda (indi Gəncə) məhkəmə və prokurorluq orqanlarının kolxozlardakı cinayətkar elementlərlə mübarizədə yetəri qədər qətiyyətli olmamaları ilə bağlı bəyanatdan sonra 1937-ci ilin yazında burada demək olar ki, bütün hakim və prokurorlar həbs edilmişdi. Alman tarixçisi Yorq Baberovskinin yazdığına görə, Bağırovun cadugər ovu Azərbaycandakı partiya-təsərrüfat aparatını özünüməhvetmə təhlükəsinin sərhədinə və dəhşətli burulğana salmışdı.

Repressiyalar həm də Mir Cəfər Bağırova öz siyasi rəqiblərini məhv etmək üçün ideal şərait yaratmışdı. O da öz növbəsində bundan istifadə edirdi. 1937-ci ilin may-iyun aylarında olan məlumatlara görə, bəzi azərbaycanlı kommunistlərin (xalq maarif komissarı M.Cuvarlinski, H.Sultanov) Mir Cəfər Bağırovla bağlı Moskvaya şikayət cəhdləri qeydə alınmışdı. Bu cəhdlər onların özləri üçün faciəvi sonluqla bitmişdi. Məmməd Cuvarlinski Azərbaycan SSR-in maarif komissarı AZK(b)P Nuxa (Şəki) Komitəsinin birinci katibi vəzifəsində çalışmışdı. MK-nın üzvü idi. M.Bağırov 1937-ci ildə Azərbaycan SSR Sovetlər qurultayında partiya qrupundan çıxış edərək Azərbaycan Konstitusiyasında düzəlişlər edən Cuvarlinskini millətçi adlandırmışdı. Martın 17-də MK-nin bürosu, 19-da isə plenumu Mir Cəfər Bağırovun təklifi ilə Məmməd Cuvarlinskini MK-nın bürosundan, 29-da isə partiya işindən xaric etmişdilər. M.Cuvarlinski Moskvaya şikayət üçün yollanmışdı. M.Bağırov onu qabaqlayıb həbs etdirmiş və o, 13 oktyabr 1937-ci ildə güllələnmişdi.

Repressiyaya məruz qalanlar arasında Çingiz İldırım da var idi. Keçmişdə o, Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Dəniz Donanmasına rəhbərlik etsə də, 1920-ci ilin aprel işğalında əsas rol oynayan fiqurlardan olmuşdu. Böyük terror zamanı Krivoy Roq şəhərində zavod direktoru vəzifəsində çalışan Çingiz İldırımı "bəy oğlu" kimi həbs edib Bakıya gətirmiş, işgəncələrə məruz qoyaraq istədikləri ifadələri aldıqdan sonra Moskvaya yollayıb orada güllələmişdilər.

Onun ardınca Azərbaycan Fövqəladə Komissiyasının keçmiş sədri Eyyub Xanbudaqovu 1924-cü ildə etdiyi millətçi çıxışlarını xatırladıb həbs etmişdilər. 1937-ci ilin 23 iyul tarixində SSRİ XDİK-nin xüsusi iclasında 5 il azadlıqdan məhrum edilən E.Xanbudaqov sonradan SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının səyyar iclasının 12 oktyabr 1937-ci il tarixli qərarı ilə ölüm hökmünə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin 1957-ci il 26 dekabr tarixli qərarına əsasən, E.Xanbudaqova bəraət verilmişdir. Arxiv materiallarına görə, Xanbudaqova qarşı Həmid Sultanov ifadə vermişdi. 1937-ci ilin noyabrında üçlük partiya veteranı (1907-ci ildən partiya üzvü olan), əmək qəhrəmanı Sumbat Fətəlizadəni 8 il müddətinə əmək düşərgəsinə məhkum etmişdi. Sumbat Fətəlizadə düşərgədə dünyasını dəyişmişdi.

Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı, eləcə də Azərbaycan XDİK üçlüyünün üzvü Mixail Rayev-Kaminski 1938-ci ildə M.Bağırovun otağında olarkən həbs edilir. Müstəntiq Pavel Xentovun ifadələrinə əsasən, o, həbs edilənlərin döyülməsində xüsusi fəallıq göstərirmiş. Mixail Rayev-Kaminski 1939-cu ildə güllələnmiş, amma bəraət almamışdı.

Həbsdən yayınmaq üçün bəzi kommunistlər ya dəli olurdular, ya da özlərini öldürürdülər. "Azneft"in rəhbəri olan R.İ.Qulbis 1937-ci ilin yayında Bakı vağzalında tezliklə həbs olunacağını bildikdən sonra özünü qatarın altına atmışdır.

Repressiyalar Azərbaycan SSR Kommunist Partiyasını orta sinifsiz qoyub partiya rəhbərliyinin əksəriyyətini məhv etmişdi. Mir Bəşir Qasımov və Yusif Qasımovdan başqa, "Hümmət" təşkilatının bütün üzvləri repressiya qurbanı olmuşlar, adları çəkilənlər isə həbsə göndərilmişdilər. Kommunist elitasının "köhnə qvardiyası" amansızcasına məhv edilmişdi. Dadaş Bünyadzadə, Sultanməcid Əfəndiyev, Həmid Sultanov, onun həyat yoldaşı Ayna Sultanova, Teymur Əliyev, Ruhulla Axundov, Mirzə Davud Hüseynov, Mustafa Quliyev, Əliheydər Qarayev, Qəzənfər Musabəyov, İsay Dövlətov kimi sosializmin ən parlaq təmsilçiləri sədaqətlə xidmət etdikləri rejimin qurbanı olmuşdular.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Yaddaş

# Treblinka düşərgəsi







**İkinci Dünya müharibəsində faşist Almaniyasının törətdiyi cinayətlər silsiləsində ölüm düşərgələri xüsusi yer tutub. Təkcə "Ölüm fabriki" adı ilə tarixə düşən Treblinka düşərgəsində 900 min nəfərin həyatına son qoyulub.**

Belə bir düşərgənin yaradılması təşəbbüsü Adolf Hitlerdən gəlib. 1942-ci ilin aprel ayında keçirilən müşavirədə yeni əsir düşərgələrinin yaradılması müzakirə olunanda Hitler xəritədə Polşa ərazisinə nəzər salaraq Varşavadan 80 kilometr aralıda yerləşən Treblinka kəndini karandaşla işarə edib və düşərgənin bu ərazidə salınmasına dair əmr verib. Əmrin icrası Henrix Himmlerə həvalə olunub.

Düşərgə 24 hektar ərazidə salınıb. 22 iyul 1942-ci ildə Treblinka ilk "sakin"lərini qarşılayıb. Düşərgədə əvvəlcə üç qaz kamerası olub. Bir neçə aydan sonra "ölüm tələbatını" ödəmək üçün onların sayı 13-ə çatdırılıb.

Treblinka düşərgəsinin fəaliyyətə başladığı ilk vaxtlarda ölüm prosedurlarını əsirlərdən gizlədiblər. Müqavimətin yaranmasından çəkinən xidməti personal qaz kameralarına su duşları quraşdırıb. İlk baxışdan bu kameralar daha çox ümumi hamamı xatırladıb. Saxlanılanları "hamam"a 50-60 nəfərlik qrup şəklində buraxıblar. 15-20 dəqiqədən sonra isə onların meyitləri çıxarılaraq ərazidə qazılmış xəndəklərdə basdırılıb.

Düşərgəyə gətirilən qadınların saçları qırxılıb və "qiymətli xammal" kimi Almaniyaya göndərilib. Qadınlara kişilərdən daha çox işgəncə verilib. Onların üzərində tibbi-bioloji sınaqlar keçirilib.

1943-cü ildə Himmler Hitlerin xüsusi tapşırığı ilə Treblinkaya səfər edib. O, meyitlərin yandırılması üçün təcili olaraq sobaların quraşdırılması haqqında düşərgə rəhbərliyinə əmr verib. Yazılı əmrdə o da göstərilib ki, əvvəlki basdırılmış meyitlər də, basdırıldıqları xəndəklərdən çıxarılaraq yandırılmalıdır.

Araşdırmaçıların qənaətinə görə, Stalinqrad döyüşlərindən sonra Hitler ilk dəfə olaraq məğlubiyyətin dadını hiss edib. Gələcəkdə tam məğlub olacağı təqdirdə milyonlarla insanın meyitlərinin aşkar olunması faktı füreri ciddi narahat edib. Bu baxımdan o, basdırılmış meyitlərin yandırılmasını ən məqbul variant kimi qəbul edərək bu qərarı verib.

Sovet qoşunlarının irəliləməsi ilə Hitler bir sıra başqa düşərgələr kimi Treblinka düşərgəsinin də ləğv edilməsi haqqında göstəriş verib. Göstərişə əsasən, düşərgədə saxlanılanların hamısı güllələnib, bütün tikililər yandırılıb, kül olan ərazinin üzərinə torpaq tökülüb, ağaclar əkilib.

Treblinka düşərgəsinin ən qəddar siması komendant Frans Ştaql olub. Onun hər bir hərəkəti, hər addımı, hər jesti əsirlərin ölümü ilə nəticələnib. O, Treblinka düşərgəsinin ləğv olunması əmrindən 10-15 gün əvvəl Polşadan qaçıb. Yalnız 1967-ci ildə Braziliyada həbs olunaraq Almaniyaya gətirilib. 1970-ci ildə məhkəmənin hökmü ilə 59 yaşlı Ştaql ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Lakin o, bu cəzanın yalnız bir ilini çəkib. 1971-ci ildə keçmiş hərbi cani həbsxanada ölüb.

Müharibədən sonrakı illərdə 900 min nəfərin həyatına son qoyan, alman faşizmi tərəfindən antibəşəri cinayətlərin törədildiyi Treblinka düşərgəsinin yerində xatirə kompleksi və muzey yaradılıb.

***"Azərbaycan"***

● Böyük terror

# Həbslər, edamlar, sürgünlər

**Azərbaycan SSR Kommunist Partiyasının heyəti dəfələrlə azalıb çoxalsa da, böyük terror vaxtı partiya üzvlərinin sayı xeyli azalmışdı. Azalmaya səbəb təkcə edamlar və həbslər deyildi, eləcə də partiya sıralarından xaricetmə və başqa səbəblər də var idi.**

Böyük terrordan əvvəl 1 yanvar 1937-ci ildə Azərbaycan Kommunist Partiyasının üzvləri və namizədlərinin ümumi sayı 47194 nəfər olmuş, lakin 1 yanvar 1938-ci ildə bu say 45331 nəfərə düşmüşdü. 1937-ci ilin may ayında baş tutmuş partiyanın Bakı Komitəsinin konfransından sonra XDİK tərəfindən 1938-ci il ərzində Bakı şəhər komitəsinin 36 üzvü və 4 namizədi həbs edilmişdi. Azərbaycan KP-nin 1937-ci il 3-9 iyul tarixlərində keçirilmiş 13-cü qurultayında 34211 nəfər üzv. 12906 nəfər namizəd (ümumi 47117 nəfər) var idisə, bir il sonra 1938-ci ilin 7-14 iyul tarixlərində keçirilmiş 14-cü qurultayda üzvlərin sayı 32135-ə, namizədlərin sayı isə 12494 (ümumi 44629 nəfər) nəfərə düşmüşdü.



***"Azərbaycan"***

# Bakıda "Terrorçuların kiberməkandan istifadəsi - ümumi yanaşma" mövzusunda təlim kursu keçirilir



**Dekabrın 16-da Bakıda Azərbaycanın Sülh Naminə Tərəfdaşlıq proqramının Çərçivə Sənədinə qoşulmasının 30 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Ankarada yerləşən Terrorçuluğa Qarşı Müdafiə üzrə Mükəmməllik Mərkəzi (TQMMM) tərəfindən "Terrorçuların kiberməkandan istifadəsi - ümumi yanaşma" mövzusunda təlim kursuna başlanılıb.**

AZƏRTAC xəbər verir ki, dekabrın 20-dək davam edəcək təlimlərdə ölkəmizin müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Kurs çərçivəsində terrorçuluğun asimmetrik təhdid qismində beynəlxalq sülh və təhlükəsizliyə törətdiyi təhlükələr, müasir texnologiyaların yaranması fonunda terrorçuluq fəaliyyətinin meydana çıxan yeni növləri, o cümlədən kiberterrorçuluğa qarşı mübarizə tədbirləri müzakirə olunacaq.

Təlim kursunda iştirakçılar, həmçinin terrorçuların kiberməkandan istifadəsi ilə əlaqədar yaranan təhdidlər, terror aktlarının həyata keçirilməsi məqsədilə kiberməkandan istifadə olunması metodları, terrorçuların kiberməkandan istifadəsinə qarşı mübarizədə milli və beynəlxalq səviyyədə atılan addımlar, habelə digər məsələlər barədə məlumatlandırılacaq.

# "Səssiz qatil"

**Qışın gəlişi ilə paytaxt və bölgələrdə dəm qazı zəhərlənmələrinin artmasının şahidi oluruq. Təkcə noyabrda Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə zəhərlənmə səbəbi ilə 104 nəfər qəbul edilib. Şöbəyə qəbul edilən xəstələrdən 14 nəfəri dəm qazından zəhərlənənlər olub.**

Dadsız, rəngsiz və qoxusuz olduğu üçün "səssiz qatil" adlandırılan dəm qazı və yaxud karbon monoksid təbii qaz, benzin, balon qazı, odun və kömür kimi tərkibində karbon olan yanacaqların yanması və ya tam yanmaması nəticəsində yaranır. Güclü və sürətli zəhərlənməyə səbəb olan zəhərli qaz orqanizmdə sürətlə yayılır, ürək, beyin, qan və əzələləri zədələyir, zamanında müvafiq tədbir görülməzsə, insanın ölümünə səbəb olur.



## Baş ağrıları, halsızlıq, huşun itirilməsi

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkim-toksikoloqu Aynur Məmmədovanın sözlərinə görə, dəm qazı zəhərlənmələri yüngül, orta və ağır dərəcəli olur: "Yüngül dərəcəli zəhərlənmələrin ciddi əlamətləri olmur. Yalnız yüngül başağrıları və halsızlıq müşahidə olunur. Bu zaman qanda 15 faizə qədər karboksihemoqlabin (CoHB) olduğu üçün tibbi yardıma da gərək qalmır. Orta dərəcəli dəm qazı zəhərlənmələrində ürəkbulanma, başağrısı, qusma və halsızlıq kimi əlamətlər özünü büruzə verir. Bu zaman "CoHB"nin miqdarı 35 faizə çatır, xəstədə ciddi başağrıları, halsızlıq, hətta qısamüddətli huş itirilməsi də olur. Zərərçəkən kömək olmadan hamamdan çıxa bilmir. Kömək çağırmaq üçün isə çox az vaxt olur. O anda çıxa bilməsə, zəhərlənmə ağır dərəcəyə keçir. Ağır hallarda xəstə huşunu itirir, qıcolma baş verir, tənəffüs və ürək çatışmazlığı yaranır. "CoHB"nin miqdarı 50-55 faizə çatdıqda isə ölüm baş verir".

Aynur Məmmədova bildirib ki, ağır dərəcəli dəm qazı zəhərlənmələri zamanı qeyri-iradi qusmalar olur, xəstə özündə olmadığı üçün isə qusuntu kütləsi tənəffüs yoluna düşərək onu qapayır, boğulmaya səbəb olur. Buna aspirasiya deyilir. Təəssüf ki, xəstələr bu diaqnozla xəstəxanaya gələnədək dünyasını dəyişirlər. Dəm qazından zəhərlənmə zamanı ilk olaraq xəstə həmin mühitdən uzaqlaşdırılaraq, təmiz havaya çıxarılmalıdır. Yuxarı tənəffüs yolları selikdən təmizlənməli, əgər nəfəs dayanıbsa, suni tənəffüs verilməlidir. Bununla bərabər, təcili tibbi yardım çağırmaq lazımdır.

"Dəm qazı zəhərlənmələri yaşlılar, xroniki xəstəlikləri olanlar, azyaşlılar, hamilələr və onların bətnindəki körpələr üçün olduqca təhlükəlidir. Risk qrupuna daxil olmayan zərərçəkənlər belə bəzən dəm qazı zəhərlənmələrinin fəsadları ilə üzləşə bilərlər. Bu fəsadlar özünü karlıq, korluq, əqli zəiflik və hərəkət pozğunluğu kimi nevroloji əlamətlərlə göstərir. Bu isə beynin hansı hissəsinin zədələnməsindən asılı olur. Adətən, bu təzahürlər bir müddətdən sonra keçib getsə də, bəzi hallarda ömürlük qalır", - deyə həkim-toksikoloq qeyd edib.

## Tüstü bacaları ildə iki dəfədən az olmayaraq təmizlənməlidir

Qış fəslində havaların soyuması ilə insanların istiliyə olan tələbatı artır. Bu da öz növbəsində qaz cihazlarına olan zərurəti artırır, istilik qurğularından düzgün istifadəni gündəmə gətirir. Qaz cihazlarına kənar müdaxilələr etdikdə və ya onlar standartlara uyğun olmadıqda, tüstü bacaları isə yararsız olduqda dəm qazı yaranır.

Təhlükəsizlik qaydaları üzrə ekspert Elmar Nurəliyev deyib ki, qaz cihazı quraşdırılarkən otağın kvadratı nəzərə alınmalıdır: "İkigözlü qaz sobaları üçün otağın sahəsi minimum 8 kvadrat, üçgözlü qaz sobası üçün 12 kvadrat, dördgözlü qaz sobası üçün isə 15 kvadrat olmalıdır. Əgər əlavə su qızdırıcı da quraşdırılırsa, otağın sahəsi minimum 20 kvadrat olmalıdır. Qaz cihazlarının seçimi də önəmlidir. Təhlükəsizlik standartlarına cavab verən, sertifikasiyası olan cihazlardan istifadə etmək lazımdır. Standartlara cavab verən qaz cihazını aldıqdan sonra onun quraşdırılması, daha sonra hər hansı bir texniki qulluğun göstərilməsi və təmir işinin aparılması yalnız peşəkar mütəxəssislər tərəfindən həyata keçirilməlidir".

Ekspertin sözlərinə görə, tüstü bacaları ildə iki dəfədən az olmayaraq təmizlənməlidir. Dəlik, deşik, çatların olmamasına diqqət yetirilməlidir. Tüstü bacaları işlək olmadıqa yanan qaz tullantılarını çölə xaric edə bilmir, nəticədə dəm qazı yaranır. Qaz cihazı olan yerdə mütləq yaxşı havalandırma sistemi, nəfəslik olmalıdır. Dəm qazının daha çox yarandığı mətbəx və hamam otaqlarında təhlükəsizlik qaydaları xüsusilə önəmlidir.

Qaz sızmasını və dəm qazını aşkarlayan detektorların önəmini vurğulayan Elmar Nurəliyev qeyd edib ki, bu cihazlar geniş təbliğ olunmalı, hər bir evə quraşdırılmalıdır. "Qaz sızması əleyhinə olan detektorlarda təhlükə anında klapan bağlanır, dəm qazı əleyhinə olan detektorlar isə xüsusi səs siqnalı vasitəsilə istifadəçiyə məlumat verir. Bu da bədbəxt hadisələrin yaşanmasının qarşısını alır. Detektorların quraşdırılması istehlakçıların üzərinə düşən məsuliyyətdir. Lakin əfsuslar olsun ki, bəzən buna qeyri-ciddi yanaşılır. Funksionallığı mükəmməl olan bu cihazlar dəm qazı olan kimi işə düşür. Qazın təchizatı dayanır və istehlakçıya bununla bağlı bildiriş gedir. Nasazlığın aradan qaldırılması yönündə müvafiq addımlar atılır. Cihazların qiymətinin əlçatanlığı isə olduqca yaxşı haldır. Təhlükəsizlik qaydalarına riayət etməklə dəm qazı faciələrinin qarşısını əhəmiyyətli dərəcədə almaq olar", - deyə ekspert vurğulayıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Revanşistlər Paşinyanı hədələdilər

## Ermənistanda daxili siyasi vəziyyət yenidən mürəkkəbləşməyə doğru gedir

**Ermənistanda geridə qalan son aylar göstərdi ki, müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti genişlənsə də, bu xüsusda keçmiş hərbi xunta önə çıxmağa cəhd etsə də, Xocalı soyqırımını törədənlərin və son savaşda məğlub olan müharibə canilərinin Paşinyanı hakimiyyətdən devirmək planları işə yaramadı. Bununla belə, revanşist qüvvələrin, habelə xarici dairələrin ssenarisi əsasında təşkil olunan etiraz aksiyalarının "lider"i rolunu oynayan, mayın 9-da Tavuşdan İrəvana yürüş keçirən erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan növbəti dəfə Nikol Paşinyanı devirməklə hədələyib.**

Keşiş növbəti addımlarının Ermənistanda hakimiyyət dəyişikliyinə yol açacağını iddia edib.

Həmçinin etiraf edib ki, bundan öncə bir neçə dəfə səhvlərə yol veriblər, amma daha Paşinyana imkan verməyəcəklər: "Müəyyən çatışmazlıqlara görə bir neçə dəfə yekun nəticəni əldə edə bilmədik. Yaxşı olar ki, indi vaxtında uyğunlaşaq və problemlərimizi həll edək. Yenə deyirəm: meydana çıxacağımız gün yekun olacaq".

Xatırladaq ki, Qalstanyanın may-iyun və oktyabr aylarında keçirdiyi antihakimiyyət mitinqləri uğursuzluqla başa çatmışdı.

Bu arada Nikol Paşinyanın və arvadı Anna Akopyanın davranışları Ermənistanda getdikcə daha çox qıcıq yaratmağa başlayıb. Təkcə müxalifət tərəfdarları deyil, hətta Paşinyanın ən yaxın adamları, partiya üzvləri də narazılıqlarını dilə gətirməyə başlayıblar. Qeyd olunur ki, ölkədə mövcud gərginlik fonunda Nikol Paşinyan öz adamlarına xalq arasında çox dolanmamağı, qıcıq yaratmamağı tapşırıb. Paşinyan və ailəsi isə bu göstərişə özləri məhəl qoymurlar. Xüsusən Anna Akopyanın tez-tez xalq arasında görünməsi böyük narazılıq yaradır. Çünki Anna Akopyanın onlarla mühafizəçinin əhatəsində olması xalqla bu cür yaxınlığın süni olmasını göstərir, həmçinin cəmiyyətdə ikrah hissi doğurur. Narazılıq doğuran daha bir məqam isə Akopyanın geyimidir.

Paşinyanın arvadının son vaxtlar çəkdirdiyi selfilər kəskin qəzəblə qarşılanmaqdadır. Paşinyanın tərəfdarları olan "Vətəndaş sazişi" üzvləri belə Akopyanın açıq-saçıq geyimdəki selfisindən hiddətləniblər.

Erməni siyasi analitik Manvel Simonyan deyib ki, Paşinyan və arvadı bir tərəfdən velosiped sürmək və ya küçədə qayğısız gəzmək kimi təbliğat fəndləri ilə tərəfdarlarına sakitlik nümayiş etdirmək istəyirlər, digər tərəfdən isə narahat ola bilərlər, lakin bu yolla narahat olan tərəfdarlarını sakitləşdirmək istəyirlər. Onun sözlərinə görə, bu gün Ermənistan və siyasi rəhbərliyin resursları o qədər məhduddur ki, onlar təbliğat üsullarına əl atırlar: "2018-ci ildən sonra mövcud imkanlardan sosial-siyasi problemlərin həlli üçün istifadə edilməli idi, əvəzində fəaliyyətdə olan hakimiyyət keçmiş-indiki qısamüddətli məsələləri ilə məşğul idi. Ermənistanda daxili siyasi hadisələrin əsas generatoru xarici qüvvələrdir, Böyük Britaniyanın marağı daha böyükdür".

Beləliklə, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin**
tabeliyində olan "Bibiheybət" Gəmi Təmiri Zavodu üçün iaşə xidmətlərinin satın alınması məqsədilə ikimərhələli (1-ci mərhələ texniki tələblər, 2-ci mərhələ kommersiya qiymətləndirilməsi)
***müsabiqə elan edilir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il dekabrın 19-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1144**

***Tender komissiyası***



***"ŞAİQ" MTK-nın Bakı şəhəri, Xətai rayonu, General Şıxlinski küçəsi, 2942 "D" ünvanında inşa edilən korporativ yaşayış binasının 11 saylı mənzilinin payçısı İldira Ağalarovna Əliyevaya aid Maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.***


## ALLAH RƏHMƏT ELƏSİN!

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət əmlakının özəlləşdirilməsinin təşkili şöbəsinin müdiri Əziz Mirzəyevə qardaşı

**PULAĞA MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın üzvü, "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının partnyoru Turqay Teymurova atası

**TEYMUR TEYMUROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4233
Sifariş 2898

Qiyməti 60 qəpik